# I FƏSİL

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNLARI

## MÜNDƏRİCAT


- Dövlət qulluğu haqqında Azərbaycan Respublikasının Qanunu *(21 iyul 2000-ci il)*
- "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu *(13 fevral 2001-ci il)*
- Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında Azərbaycan Respublikasının Qanunu *(22 iyul 2001-ci il).*
- "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *(22 iyul 2001-ci il).*
- Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *( 29 mart 2002-ci il).*
- Dövlət qulluqçularının icbari sığortası haqqında Azərbaycan Respublikasının Qanunu *(30 aprel 2002-ci il)*
- Dövlət qulluqçusu üçün hakimiyyət səlahiyyətinin icrasına görə əlavə haqqın təyin edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu *(31 may 2002-ci il).*
- Dövlət qulluqçularının vəzifə maaşlarına yerli əmsalların müəyyən edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu *(31 may 2002-ci il)*
- "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu *(4 noyabr 2003-cü il)*
- Azərbaycan Respublikasının "Vətənə xidmətə görə" ordeninin statutunun və təsvirinin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *(7 noyabr 2003-cü il)*
- Azərbaycan Respublikasının "Dövlət qulluğunda fərqlənməyə görə" medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *(7 noyabr 2003-cü il)*
- Qulluq şəraiti həyat və sağlamlıq üçün təhlükəli olan, yaxud xüsusilə ağır olan dövlət orqanlarında dövlət qulluqçularının vəzifə maaşları üçün artıq əmsalın müəyyən edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu *(5 dekabr 2003-cü il)*
- Dövlət qulluqçularının pensiya təminatı haqqında Azərbaycan Respublikasının Qanunu *(7 noyabr 2003-cü il)*
- "Dövlət qulluqçularının pensiya təminatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *(15 aprel 2005-ci il)*
- Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası yanında Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *(3 may 2005-ci il).*
- "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişiklik və əlavələr edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *(10 may 2005-ci il).*
- "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar "Dövlət qulluqçularının pensiya təminatı haqqında Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *(23 dekabr 2005-ci il).*
- Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *(3 mart 2006-cı il)*
- "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əlavə və dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *(12 may 2006-cı il).*

- "Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu *(30 may 2006-cı il)*
- Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu *(10 oktyabr 2006-cı il).*
- "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *(28 noyabr 2006-cı il).*
- "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (*16 fevral 2007-ci il).*
- "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (*10 aprel 2007-ci il).*
- Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavə və dəyişikliklər edilməsi və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının qanununa əlavə və dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2006-cı il 12 may tarixli 108-IIIQD nömrəli qanununun qüvvədən düşmüş hesab edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu (*17 aprel 2007-ci il).*
- "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (*31 may 2007-ci il)*
- Dövlət qulluqçularının etik davranış qaydaları haqqında (*31 may 2007-ci il).*
- "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (*19 oktyabr 2007-ci il)*
- "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (*7 dekabr 2007-ci il).*
- "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının 2007-ci il 10 aprel tarixli 303-IIIQD nömrəli qanununun tətbiqi ilə əlaqədar bəzi qanunvericilik aktlarına əlavələr və dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu (*1 fevral 2008-ci il)*
- "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (*1 fevral 2008-ci il)*
- "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (*12 fevral 2008-ci il)*
- Gender (kişi və qadınların) bərabərliyinin təminatları ilə bağlı "Dövlət qulluğu haqqında" və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanunlarına əlavə və dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (*1 aprel 2008-ci il).*
- "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *(2 iyun 2008-ci il)*
- "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (*13 iyun 2008-ci il).*
- "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əlavə və dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *(30 dekabr 2008-ci il).*
- "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *(28 aprel 2009-cu il).*
- "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu *(28 aprel 2009-cu il)*
- "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununa əlavə edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *(26 may 2009-cu il)*
- "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *(30 sentyabr 2009-cu il).*
- "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *(1 fevral 2011-ci il)*

- “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *(17 may 2011-ci il).*
- “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *(20 aprel 2012-ci il).*
- “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *(1 oktyabr 2012-ci il)*
- “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *(16 oktyabr 2012-ci il).*
- “Dövlət qulluqçularının icbari sığortası haqqında” Azərbaycan Respublikası Qanununun ləğv edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (*4 aprel 2014-cü il)*
- “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu Azərbaycan Respublikasının Qanunu *(30 dekabr 2014-cü il)*
- “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *(3 aprel 2015-ci il)*
- “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (*30 sentyabr 2015-ci il*)
- “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *(31 may 2016-cı il)*
- “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *(30 sentyabr 2016-cı il)*
- “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *(14 oktyabr 2016-cı il)*
- “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *(14 oktyabr 2016-cı il)*
- “Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə *(29 noyabr 2016-cı il)*
- “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *(10 mart 2017-ci il)*
- “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə *(31 may 2017-ci il)*
- “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə *(31 may 2017-ci il)*
- “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 31 may tarixli 267-VQD nömrəli Qanununda dəyişiklik edilməsi haqqında *(31 may 2017-ci il)*
- “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə *(31 may 2017-ci il)*
- “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə *(30 iyun 2017-ci il)*
- “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (*31 oktyabr 2017-ci il)*
- “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *(31 oktyabr 2017-ci il)*
- “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *(29 dekabr 2017-ci il)*
- “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *(29 dekabr 2017-ci il)*
- “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *(6 mart 2018-ci il)*
- “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *(24 aprel 2018-ci il)*

- “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *(1 may 2018-ci il)*
- “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *(18 may 2018-ci il)*
- “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *(31 may 2018-ci il)*
- “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *(29 iyun 2018-ci il)*
- “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *(7 dekabr 2018-ci il)*
- “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *(24 noyabr 2020-ci il)*
- “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu *(12 fevral 2021-ci il)*

# "Dövlət qulluğu haqqında"

# Azərbaycan Respublikasının Qanunu

## I fəsil
## ÜMUMİ MÜDDƏALAR

**Maddə 1. Qanunun məqsədi**

Bu Qanun Azərbaycan Respublikasında dövlət qulluğu sahəsində dövlətlə dövlət qulluqçuları arasında yaranan münasibətləri və dövlət qulluqçularının hüquqi vəziyyəti ilə bağlı məsələləri tənzimləyir.

**Maddə 2. Dövlət qulluğu**

2.1. Dövlət qulluğu Azərbaycan Respublikasının Konstitusiyasına və digər qanunvericilik aktlarına uyğun olaraq dövlətin məqsədlərinin və funksiyalarının həyata keçirilməsi sahəsində dövlət qulluqçularının öz vəzifə səlahiyyətlərini yerinə yetirməsidir.

2.2. Bu Qanun icra, qanunvericilik və məhkəmə hakimiyyətləri orqanlarının aparatlarında dövlət qulluğu keçən qulluqçulara şamil edilir.

2.3. Prokurorluq, ədliyyə, milli təhlükəsizlik, sərhəd xidməti, daxili işlər, gömrük, vergi, xarici işlər və feldyeger rabitəsi orqanlarında, Azərbaycan Respublikasının Milli Bankında dövlət qulluğunda çalışan şəxslərin dövlət qulluğu keçməsi bu Qanunun Azərbaycan Respublikası vətəndaşlarının dövlət qulluğuna girmək hüququna, dövlət qulluğuna qəbulun müsabiqə və şəffaflıq əsasında həyata keçirilməsinə və dövlət qulluğunun digər prinsiplərinə aid müddəaları nəzərə alınmaqla, Azərbaycan Respublikasının başqa qanunları ilə tənzimlənir.

2.4. Bu Qanunda başqa hal nəzərdə tutulmayıbsa, bu Qanun Azərbaycan Respublikasının Prezidentinə, Azərbaycan Respublikası Milli Məclisinin deputatlarına, Azərbaycan Respublikasının Baş nazirinə və onun müavinlərinə, Azərbaycan Respublikası məhkəmələrinin hakimlərinə, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinə (Ombudsmana), Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərlərinə və onların müavinlərinə, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədrinə, sədr müavinlərinə, katibinə və üzvlərinə, Azərbaycan Respublikası Hesablama Palatasının sədrinə, sədr müavininə və auditorlarına, yerli icra hakimiyyəti orqanlarının rəhbərlərinə (başçılarına), Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarına, Naxçıvan Muxtar Respublikasının Baş nazirinə və onun müavinlərinə, Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərlərinə, habelə hərbi qulluqçulara şamil olunmur.

2.5. Bu Qanun müvafiq icra hakimiyyəti orqanlarının tabeliyində olan müəssisələrin işçilərinə şamil edilmir. Bu işçilərin qulluğu ilə bağlı məsələlər Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə tənzimlənir.

2.6. Bu Qanunun 2.3-cü maddəsində göstərilən orqanlarda dövlət qulluğunda çalışan şəxslərə müvafiq qanunlarla nəzərdə tutulmuş təminatlar "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş təminatlardan az olduqda, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş təminatlar şamil edilir.

**Maddə 3. Dövlət qulluğunun əsas vəzifələri**

3.1. Dövlət qulluğunun əsas vəzifələri aşağıdakılardır:

3.0.1. Azərbaycan Respublikasının Konstitusiyası və digər qanunvericilik aktları əsasında vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi;

3.0.2. dövlət orqanlarının səlahiyyəti hüdudlarında qərarların hazırlanması, qəbul edilməsi, icrası və icraya nəzarət edilməsi;

3.0.3. dövlət orqanlarının səmərəli fəaliyyətinin və dövlət qulluqçuları tərəfindən vəzifə səlahiyyətlərinin yerinə yetirilməsinin təmin edilməsi.

**Maddə 4. Dövlət qulluğunun prinsipləri**

4.1. Dövlət qulluğu aşağıdakı prinsiplərə əsaslanır:

4.1.1. qanunçuluq;

4.1.2. Azərbaycan Respublikasında qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının səlahiyyət hüdudlarının müəyyən edilməsi;

4.1.3. dövlət orqanlarına və dövlət qulluqçularına nəzarət və onların hesabat verməsi;

4.1.4. yuxarı dövlət orqanlarının və vəzifəli şəxslərin öz səlahiyyətləri hüdudlarında qəbul etdikləri qərarların aşağı dövlət orqanları və vəzifəli şəxslər tərəfindən mütləq yerinə yetirilməsi;

4.1.5. bütün vətəndaşların və vəzifəli şəxslərin dövlət qulluqçularının qanuni tələblərini icra etməyə və qanuni hərəkətlərini müdafiə etməyə borclu olması;

4.1.6. dövlət qulluğuna girmənin şəffaflığı;

4.1.7. vətəndaşların dövlət qulluğuna müsabiqə əsasında girməsi;

4.1.8. vətəndaşların öz qabiliyyətlərinə, xidməti nailiyyətlərinə və peşə hazırlığına uyğun olaraq dövlət qulluğunun hər hansı vəzifəsini tutmaqda hüquq bərabərliyi;

4.1.9. irqindən, milliyyətindən, dilindən, cinsindən, sosial mənşəyindən, ailə, əmlak və qulluq vəziyyətindən, yaşayış yerindən, dinə münasibətindən, əqidəsindən, ictimai birliklərə mənsubiyyətindən, habelə qulluqçuların işgüzarlıq keyfiyyətlərinə dəxli olmayan başqa səbəblərdən asılı olmayaraq dövlət qulluqçularının hüquq bərabərliyi;

4.1.10. dövlət qulluqçularının potensialının səmərəli istifadəsi, xidməti və peşəkarlıq səviyyəsinin artırılması məqsədi ilə onların rotasiyası;

4.1.11. dövlət qulluqçularının sosial və hüquqi müdafiəsi, onların özləri və ailələri üçün ləyaqətli yaşayış səviyyəsinin təmin edilməsi;

4.1.12. qulluq borcunun yerinə yetirilməsi üçün dövlət qulluqçusunun cavabdehlik daşıması, eləcə də dövlət qulluqçusunun hərəkətlərinə görə dövlət orqanının cavabdehlik daşıması.

4.2. Dövlət orqanlarında siyasi partiyaların və ictimai birliklərin strukturları yaradılmır.

4.3. Dövlət qulluqçuları vəzifə borclarını yerinə yetirərkən Azərbaycan Respublikası Konstitusiyasını, qanunlarını və onlara müvafiq olaraq qəbul edilmiş digər qanunvericilik aktlarını rəhbər tuturlar və siyasi partiyaların və ictimai birliklərin qərarlarının onlara dəxli yoxdur.

**Maddə 5. Dövlət qulluğunu idarəetmə orqanları**

5.1. Azərbaycan Respublikasında bu Qanunun tətbiqinə nəzarəti, dövlət qulluğunun normativ-metodiki təminatını, Azərbaycan Respublikasında dövlət qulluqçuları kateqoriyasına aid edilən şəxslərin siyahısını müəyyən etməyi Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası həyata keçirir (bundan sonra – Şura). Şura 18 nəfər üzvdən ibarətdir. Şuranın 6 üzvü Azərbaycan Respublikasının Prezidenti tərəfindən, 6 üzvü Azərbaycan Respublikası Milli Məclisinin sədri tərəfindən, 6 üzvü isə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri tərəfindən təyin edilir. Şuranın səlahiyyətləri qanunla təsdiq edilən Əsasnamə ilə müəyyən edilir.

5.2. Şura dövlət orqanı deyil və onun üzvləri öz səlahiyyətlərini ictimai əsaslarla həyata keçirirlər.

5.3. Şuranın qəbul etdiyi qərarların məcburiliyi müvafiq dövlət qulluqçuları üçün müvafiq olaraq Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikası Milli Məclisinin sədri və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri tərəfindən təmin edilir.

**Maddə 6. Dövlət qulluğu haqqında qanunvericilik**

Dövlət qulluğu haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, Azərbaycan Respublikasının dövlət qulluğunu hüquqi cəhətdən tənzim edən və dövlət qulluqçularının hüquqi vəziyyətinin xüsusiyyətlərini müəyyən edən digər qanunvericilik aktlarından ibarətdir.

## II fəsil
## DÖVLƏT ORQANLARI

**Maddə 7. Dövlət orqanı anlayışı**

7.1. Azərbaycan Respublikasının qanunvericilik aktları ilə müəyyən edilmiş hüdudlarda Azərbaycan Respublikasının məqsəd və funksiyalarını həyata keçirən, qanunvericiliyə uyğun olaraq yaradılmış və dövlət büdcəsindən maliyyələşdirilən dövlət qulluqçularının qurumu dövlət orqanıdır.

7.2. Dövlət orqanının bölməsi bu orqanın qanunvericilik aktlarında nəzərdə tutulmuş, yaxud müəyyən edilmiş qaydada təsis olunan elə struktur hissəsidir ki, özünə həvalə edilmiş funksiyalar çərçivəsində həmin orqanın səlahiyyətlərinin bir hissəsini həyata keçirir.

**Maddə 8. Dövlət orqanlarının təsnifatı**

8.1. Dövlət orqanları öz səlahiyyətlərinə görə aşağıdakı təsnifata bölünürlər:

8.1.1. əsas səlahiyyətləri Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyən edilən Azərbaycan Respublikasının ali dövlət hakimiyyəti orqanları - müvafiq icra hakimiyyəti orqanı, müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərinin həyata keçirilməsini bilavasitə təmin edən orqanlar, Azərbaycan Respublikasının

Milli Məclisi, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi və Azərbaycan Respublikasının Ali Məhkəməsi, Məhkəmə-Hüquq Şurasının Aparatı (1-ci kateqoriya dövlət orqanları);

8.1.2. əsas səlahiyyətləri Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyən edilən yuxarı dövlət orqanı və Naxçıvan Muxtar Respublikasının ali dövlət hakimiyyəti orqanı - müvafiq icra hakimiyyəti orqanı və Naxçıvan Muxtar Respublikasının Ali Məclisi (2-ci kateqoriya dövlət orqanları);

8.1.3. əsas səlahiyyətləri Azərbaycan Respublikasının Konstitusiyası və ya Azərbaycan Respublikasının Konstitusiya qanunları ilə müəyyən edilən dövlət orqanları - Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanının) Aparatı, Azərbaycan Respublikasının apellyasiya məhkəmələri, müvafiq icra hakimiyyəti orqanı, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi (3-cü kateqoriya dövlət orqanları);

8.1.4. əsas səlahiyyətləri Azərbaycan Respublikasının Konstitusiyasına əsasən qanunla müəyyən edilən dövlət orqanları - Azərbaycan Respublikası Hesablama Palatasının Aparatı, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Aparatı, Ağır Cinayətlərə dair İşlər üzrə Azərbaycan Respublikasının Məhkəməsi, Ağır Cinayətlərə dair İşlər üzrə Azərbaycan Respublikasının Hərbi Məhkəməsi, Ağır Cinayətlərə dair İşlər üzrə Naxçıvan Muxtar Respublikasının Məhkəməsi, Naxçıvan Muxtar Respublikasının İqtisad Məhkəməsi, Azərbaycan Respublikası Dövlət Qulluğunu İdarəetmə Şurası yanında Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyanın Katibliyi (4-cü kateqoriya dövlət orqanları);

8.1.5. əsas səlahiyyətləri Azərbaycan Respublikası Konstitusiyasının 113-cü maddəsində nəzərdə tutulmuş qaydada müəyyən edilən dövlət orqanları - müvafiq icra hakimiyyəti orqanları və onlara bərabər tutulan icra hakimiyyəti orqanları, o cümlədən müvafiq icra hakimiyyəti orqanı yanında olan müvafiq icra hakimiyyəti orqanları (5-ci kateqoriya dövlət orqanları);

8.1.6. əsas səlahiyyətləri Azərbaycan Respublikası Konstitusiyasının 113-cü və 120-ci maddələrində nəzərdə tutulmuş qaydada müəyyən edilən dövlət orqanları - müvafiq icra hakimiyyəti orqanları, müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətləri (6-cı kateqoriya dövlət orqanları);

8.1.7. əsas səlahiyyətləri Azərbaycan Respublikası Konstitusiyasının 113-cü və 124-cü maddələrində nəzərdə tutulmuş qaydada müəyyən edilən dövlət orqanları - müvafiq icra hakimiyyəti orqanları, müvafiq icra hakimiyyəti orqanlarının ikili tabelikdə olan yerli bölmələri, onların yanında, tabeliyində olan regional orqanları, *müvafiq icra hakimiyyəti orqanlarının tabeliyində olan orqanları*, əsas səlahiyyətləri Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq qanunla müəyyən edilən dövlət orqanları - rayon (şəhər) məhkəmələri, hərbi məhkəmələr və yerli iqtisad məhkəmələri (7-ci kateqoriya dövlət orqanları).

8.2. (çıxarılmışdır).

8.3. Konkret dövlət orqanlarının və onların bölmələrinin muvafiq kateqoriyalara aidiyyəti Azərbaycan Respublikasının qanunvericiliyi ilə bu Qanun əsasında müəyyən edilir.

# III fəsil
## DÖVLƏT QULLUĞU VƏZİFƏSİ

### Maddə 9. Dövlət qulluğu vəzifəsinin anlayışı

Dövlət qulluğu vəzifəsi dövlət orqanının normativ aktlarla müəyyən edilən struktur quruluşu və ştat cədvəlinə uyğun olan ştat vahididir. Həmin vəzifəni tutan şəxsin səlahiyyət və funksiyalarının hüdudları həmin orqanın səlahiyyətindən asılı olaraq müəyyən edilir.

### Maddə 10. Dövlət orqanlarında vəzifələrin təsnifatı

10.1. Dövlət orqanlarında vəzifələr həmin vəzifələrin funksiyalarının məzmunundan, səlahiyyətlərinin mənbəyindən və tutulması üsullarından asılı olaraq inzibati və yardımçı vəzifələrə bölünür.

10.2. (çıxarılmışdır).

10.3. (çıxarılmışdır).

10.4. Siyasi vəzifələri tutan şəxslərin hüquqi statusu başqa qanunvericilik aktları ilə müəyyən olunur və bu Qanunda başqa hal nəzərdə tutulmayıbsa, bu Qanunun qüvvəsi onlara şamil edilmir.

10.5. İnzibati vəzifələr 1-ci-7-ci kateqoriya dövlət orqanları aparatları və bölmələri rəhbərlərinin, onların müavinlərinin, habelə dövlət qulluğunda çalışan mütəxəssislərin vəzifələridir. İnzibati vəzifə tutan şəxsin hüquqi statusu müvafiq orqanın səlahiyyətlərini müəyyən edən qanunvericilik aktları ilə, habelə vəzifə təlimatları ilə müəyyən edilir.

10.6. Yardımçı vəzifələr 1-ci-7-ci kateqoriya dövlət orqanlarında texniki işləri həyata keçirən dövlət qulluqçularının (kargüzar, makinaçı, kuryer, arxiv qeydiyyatçısı, liftçi, sürücü və sair işçilərin) vəzifələridir.

Yardımçı vəzifə tutan şəxsin hüquqi statusu müvafiq orqanın səlahiyyətlərini müəyyən edən qanunvericilik aktları ilə, habelə vəzifə təlimatları ilə müəyyən edilir.

**Maddə 11. İnzibati və yardımçı vəzifələrin təsnifatı**

11.1. İnzibati vəzifələrin aşağıdakı təsnifatı vardır:

11.1.1. inzibati vəzifələrin birinci təsnifatı - 1-ci kateqoriya dövlət orqanları aparat rəhbərlərinin vəzifələri, Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinin həyata keçirilməsini bilavasitə təmin edən digər orqanların rəhbərlərinin vəzifələri;

11.1.2. inzibati vəzifələrin ikinci təsnifatı - Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinin həyata keçirilməsini Azərbaycan Respublikası Prezidentinin İcra Aparatında təmin edən dövlət qulluqçularının vəzifələri, 1-ci kateqoriya dövlət orqanları bölmə rəhbərlərinin vəzifələri, 2-ci kateqoriya dövlət orqanları aparat rəhbərlərinin vəzifələri;

11.1.3. inzibati vəzifələrin üçüncü təsnifatı - 1-ci kateqoriya dövlət orqanları bölmə rəhbərləri müavinlərinin vəzifələri, 2-ci kateqoriya dövlət orqanları rəhbərləri müavinlərinin vəzifələri, 2-ci kateqoriya dövlət orqanları bölmə rəhbərlərinin vəzifələri, 3-cü kateqoriya dövlət orqanları aparat rəhbərlərinin vəzifələri;

11.1.4. inzibati vəzifələrin dördüncü təsnifatı - 1-ci kateqoriya dövlət orqanları mütəxəssislərinin vəzifələri, 2-ci kateqoriya dövlət orqanları bölmə rəhbərləri müavinlərinin vəzifələri, 3-cü kateqoriya dövlət orqanları bölmə rəhbərlərinin vəzifələri, 4-cü və 5-ci kateqoriya dövlət orqanları aparat rəhbərlərinin və onların müavinlərinin vəzifələri, 7-ci kateqoriya dövlət orqanı - Bakı şəhər icra hakimiyyəti başçısının müavinlərinin vəzifələri;

11.1.5. inzibati vəzifələrin beşinci təsnifatı - 2-ci kateqoriya dövlət orqanları mütəxəssislərinin vəzifələri, 3-cü kateqoriya dövlət orqanları bölmə rəhbərləri müavinlərinin vəzifələri, 4-cü kateqoriya dövlət orqanları bölmə rəhbərlərinin və onların müavinlərinin vəzifələri, 5-ci kateqoriya dövlət orqanları bölmə rəhbərlərinin və onların müavinlərinin vəzifələri, 6-cı kateqoriya dövlət orqanları aparat rəhbərlərinin və onların müavinlərinin vəzifələri, 7-ci kateqoriya - yerli icra hakimiyyəti orqanları başçılarının müavinlərinin vəzifələri;

11.1.6. inzibati vəzifələrin altıncı təsnifatı - 3-cü, 4-cü və 5-ci kateqoriya dövlət orqanları mütəxəssislərinin vəzifələri, 6-cı kateqoriya dövlət orqanları bölmə rəhbərlərinin və onların müavinlərinin vəzifələri, 7-ci kateqoriya dövlət orqanları aparat rəhbərlərinin və onların müavinlərinin vəzifələri;

11.1.7. inzibati vəzifələrin yeddinci təsnifatı - 6-cı kateqoriya dövlət orqanları mütəxəssislərinin vəzifələri, 7-ci kateqoriya dövlət orqanlarının mərkəzi icra hakimiyyəti orqanlarının ikili tabelikdə olan yerli bölmələri və yanında, tabeliyində olan regional orqanları rəhbərlərinin, yerli icra hakimiyyəti orqanlarının bölmə rəhbərlərinin, *müvafiq icra hakimiyyəti orqanlarının tabeliyində olan orqanların rəhbərlərinin* vəzifələri;

11.1.8. inzibati vəzifələrin səkkizinci təsnifatı - 7-ci kateqoriya dövlət orqanlarının - mərkəzi icra hakimiyyəti orqanlarının ikili tabelikdə olan yerli bölmələri və yanında, tabeliyində olan regional orqanları rəhbərləri müavinlərinin vəzifələri, yerli icra hakimiyyəti orqanları bölmə rəhbərləri müavinlərinin, *müvafiq icra hakimiyyəti orqanlarının tabeliyində olan orqan rəhbərləri müavinlərinin* vəzifələri;

11.1.9. inzibati vəzifələrin doqquzuncu təsnifatı - 7-ci kateqoriya dövlət orqanlarının - mərkəzi icra hakimiyyəti orqanlarının ikili tabelikdə olan yerli bölmələri və yanında, tabeliyində olan regional orqanları mütəxəssislərinin vəzifələri, yerli icra hakimiyyəti orqanları bölmə mütəxəssislərinin, *müvafiq icra hakimiyyəti orqanlarının tabeliyində olan orqanların mütəxəssislərinin* vəzifələri, yerli icra hakimiyyəti orqanlarının ərazi vahidləri üzrə nümayəndələrinin vəzifələri, rayon (şəhər) məhkəmələri, hərbi məhkəmələr və yerli iqtisad məhkəmələri aparatlarının mütəxəssislərinin vəzifələri.

11.2. Yardımçı vəzifələrin aşağıdakı təsnifatı vardır:

11.2.1. yardımçı vəzifələrin birinci təsnifatı - 1-ci və 2-ci kateqoriya dövlət orqanlarında texniki vəzifələr;

11.2.2. yardımçı vəzifələrin ikinci təsnifatı - 2-ci və 3-cü kateqoriya dövlət orqanlarında texniki vəzifələr;

11.2.3. yardımçı vəzifələrin üçüncü təsnifatı - 3-cü və 4-cü kateqoriya dövlət orqanlarında texniki vəzifələr;

11.2.4. yardımçı vəzifələrin dördüncü təsnifatı - 4-cü və 5-ci kateqoriya dövlət orqanlarında texniki vəzifələr;

11.2.5. yardımçı vəzifələrin beşinci təsnifatı - 5-ci və 6-cı kateqoriya dövlət orqanlarında texniki vəzifələr;

11.2.6. yardımçı vəzifələrin altıncı təsnifatı - 6-cı və 7-ci kateqoriya dövlət orqanlarında texniki vəzifələr.

11.3. Bu Qanunun 11.1-ci maddəsində göstərilən inzibati vəzifələrin birinci təsnifatı istisna olmaqla, ikinci-üçüncü təsnifat vəzifələri tutan şəxslərin müvafiq ixtisas dərəcəsi (o cümlədən, həmin vəzifə üçün nəzərdə tutulmuş daha yüksək ixtisas dərəcəsi) alması üçün dövlət orqanında azı yeddi illik qulluq stajı və müvafiq vəzifədə azı üç illik qulluq stajı olmalı, dördüncü-yeddinci təsnifat vəzifələri tutan şəxslərin isə bundan ötrü dövlət orqanında azı beş illik qulluq stajı olmalıdır. Bu halda həmçinin vəzifəli şəxsin funksiyalarının məzmunu, peşəkarlığı və idarəçilik təcrübəsi nəzərə alınır. Bu maddənin birinci cümləsində müəyyən edilmiş

hər hansı tələbə cavab verməyən vəzifəli şəxsə tutduğu vəzifənin inzibati təsnifatı üçün müəyyən edilmiş ən kiçik ixtisas dərəcəsi verilir. Üçüncü təsnifat vəzifələrində çalışan dövlət qulluqçularına 3-cü dərəcə dövlət müşaviri ixtisas dərəcəsi o halda verilə bilər ki, həmin şəxslərin uyğun dövlət orqanlarında azı on illik qulluq stajı, müvafiq vəzifədə isə azı beş illik qulluq stajı olsun. Bu halda həmçinin vəzifəli şəxsin funksiyalarının məzmunu, peşəkarlığı və idarəçilik təcrübəsi nəzərə alınır.

11.4. Dövlət orqanlarının aparatları (və ya onların fəaliyyətini təmin edən qurumlar) və onların bölmələri 1-7-ci kateqoriya dövlət orqanlarının Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyən edilmiş funksiya və səlahiyyətləri, habelə onların həyata keçirilməsi xüsusiyyətləri nəzərə alınaraq təminedici və yardımçı kimi təsnifləşdirilir.

Dövlət orqanlarının aparatının (və ya onların fəaliyyətini təmin edən qurumların) və onun bölmələrinin adları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Qeyd:**

1. 11.3-cü maddənin müvafiq olaraq 1-ci cümləsində "dövlət orqanı" və dördüncü cümləsində "uyğun dövlət orqanlarında" dedikdə, dövlət qulluqçusunun hazırda işlədiyi (vəzifə tutduğu) dövlət orqanı, habelə dövlət qulluqçusunun bir təsnifat daxilində bərabər statuslu vəzifəyə keçdiyi həmin təsnifata daxil olan dövlət orqanı nəzərdə tutulur.

2. 11.3-cü maddənin müvafiq olaraq birinci və üçüncü cümlələrində "müvafiq vəzifədə" dedikdə, dövlət qulluqçusunun hazırda dövlət qulluğu keçdiyi dövlət orqanında tutduğu dövlət qulluğu vəzifəsi nəzərdə tutulur.

3. 11-ci maddədə "dövlət orqanlarının aparatı (və ya onların fəaliyyətini təmin edən qurumlar)" dedikdə dövlət orqanının vəzifə, funksiya və səlahiyyətlərinin həyata keçirilməsini təmin edən dövlət qulluqçularından ibarət ixtisaslaşdırılmış bölmələrini özündə birləşdirən dövlət orqanının struktur vahidi nəzərdə tutulur.

**Maddə 12. İnzibati və yardımçı vəzifələrin təsnifat toplusu**

12.1. İnzibati və yardımçı vəzifələrin təsnifat toplusuna vəzifələrin ixtisas dərəcələri, adları, dərəcələr üzrə bölgü və vəzifələrin tutulması şərtləri haqqında məlumatlar daxil edilir.

12.2. İnzibati və yardımçı vəzifələrin təsnifat toplusu dövlət orqanlarının ştat cədvəllərinin yaradılması və dövlət qulluqçularının vəzifə təlimatlarının hazırlanması üçün əsasdır. İnzibati və yardımçı vəzifələrin təsnifat toplusu Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Maddə 13. İnzibati və yardımçı vəzifələrə aid ixtisas tələbləri**

13.1. İnzibati və yardımçı vəzifələrə aid ixtisas tələbləri vəzifə iddiasında olan şəxsin həmin vəzifənin öhdəsindən gəlməsi üçün kifayət qədər səriştəsinin olmasını təmin edir.

13.2. İnzibati vəzifə iddiasında olan şəxsin müvafiq ali təhsili olmalıdır. Həmin şəxsin başqa ali təhsili olduqda, o, ixtisasını dəyişdirib iddiasında olduğu inzibati vəzifənin profilini öyrənməlidir.

13.3. Yardımçı vəzifə iddiasında olan şəxsin müvafiq orta təhsili olmalıdır. Həmin şəxsin başqa orta təhsili və ya ümumi orta təhsili olduqda, o, hazırlığını dəyişdirib iddiasında olduğu yardımçı vəzifənin profilini öyrənməlidir.

13.4. İnzibati və yardımçı vəzifələri tutmaq üçün əlavə tələblər qanunvericiliklə və vəzifə təlimatları ilə müəyyən edilir.

## IV fəsil
### DÖVLƏT QULLUQÇUSU

**Maddə 14. Dövlət qulluqçusu**

14.1. Dövlət qulluqçusu bu Qanunla müəyyən edilmiş qaydada maaşlı (maaş yalnız dövlət büdcəsi vəsaitindən verilə bilər) dövlət qulluğu vəzifəsini tutan və Azərbaycan Respublikasına sadiq olacağına and içən Azərbaycan Respublikasının vətəndaşıdır.

14.2. İnzibati vəzifə tutan və hakimiyyət səlahiyyətləri alan dövlət qulluqçusu dövlət vəzifəli şəxsdir.

14.3 (çixarilmişdir).

**Maddə 15. Dövlət qulluqçusunun andı**

15.1. And Azərbaycan Respublikası ilə dövlət qulluqçusu arasında açıq hüquqi borc və sədaqət münasibətlərini təsdiq edir.

15.2. Vətəndaş dövlət qulluğuna daxil olarkən belə bir and içir:

"Azərbaycan Respublikasına sadiq olacağıma, onun Konstitusiyasına dönmədən əməl edəcəyimə, dövlət sirrini və xidməti sirri qoruyacağıma, dövlət qulluğunun mənə verdiyi hüquqları və üzərimə qoyduğu vəzifələri

qərəzsiz, vicdanla, ancaq qanuna uyğun surətdə, var gücümlə və vətənin mənafeyi naminə həyata keçirəcəyimə and içirəm".

15.3. Andiçmə təntəli şəraitdə Azərbaycan Respublikasının Dövlət bayrağı altında Azərbaycan Respublikasının Konstitusiyasına əl basmaqla həyata keçirilir.

15.4. Andiçmə bir dəfə olur. Andın imzalanmış mətni dövlət qulluqçusunun şəxsi işində saxlanılır.

15.5. Dövlət qulluğunun ayrı-ayrı növlərində andın status xüsusiyyətləri Azərbaycan Respublikasının qanunvericilik aktlarında müəyyən edilir.

15.6. Yardımçı dövlət qulluğu vəzifəsinə qəbul edilənlər and içmirlər.

**Maddə 16. Dövlət qulluqçularının ixtisas dərəcələri**

16.1. Dövlət qulluqçusunun ixtisas dərəcəsi onun ixtisas səviyyəsini göstərir, onun tuta bildiyi dövlət qulluğu növlərinin və dövlət vəzifələrinin təsnifat siyahısını müəyyənləşdirir, dövlət qulluqçusuna vəzifə maaşına əlavə haqq almaq və sosial təminatlardan istifadə etmək hüququ verir.

16.2. İnzibati vəzifələrin təsnifatına uyğun olaraq aşağıdakı ixtisas dərəcələri verilir:

16.2.1. inzibati vəzifələrin birinci təsnifatı üzrə - həqiqi dövlət müşaviri, 1-ci dərəcə dövlət müşaviri və 2-ci dərəcə dövlət müşaviri;

16.2.2. inzibati vəzifələrin ikinci təsnifatı üzrə - 1-ci, 2-ci və 3-cü dərəcə dövlət müşaviri, dövlət qulluğunun baş müşaviri;

16.2.3. inzibati vəzifələrin üçüncü təsnifatı üzrə - 3-cü dərəcə dövlət müşaviri, dövlət qulluğunun baş müşaviri və dövlət qulluğunun müşaviri;

16.2.4. inzibati vəzifələrin dördüncü təsnifatı üzrə - dövlət qulluğunun baş müşaviri, dövlət qulluğunun müşaviri və dövlət qulluğunun kiçik müşaviri;

16.2.5. inzibati vəzifələrin beşinci təsnifatı üzrə - dövlət qulluğunun müşaviri, dövlət qulluğunun kiçik müşaviri və 1-ci dərəcə dövlət qulluqçusu;

16.2.6. inzibati vəzifələrin altıncı təsnifatı üzrə - dövlət qulluğunun kiçik müşaviri, 1-ci dərəcə dövlət qulluqçusu və 2-ci dərəcə dövlət qulluqçusu;

16.2.7. inzibati vəzifələrin yeddinci təsnifatı üzrə - 1-ci dərəcə dövlət qulluqçusu, 2-ci dərəcə dövlət qulluqçusu və 3-cü dərəcə dövlət qulluqçusu;

16.2.8. inzibati vəzifələrin səkkizinci təsnifatı üzrə - 2-ci dərəcə dövlət qulluqçusu, 3-cü dərəcə dövlət qulluqçusu və kiçik dövlət qulluqçusu;

16.2.9. inzibati vəzifələrin doqquzuncu təsnifatı üzrə - 3-cü dərəcə dövlət qulluqçusu, kiçik dövlət qulluqçusu.

16.3. Yardımçı vəzifələrin təsnifatına uyğun olaraq aşağıdakı ixtisas dərəcələri verilir:

16.3.1. yardımçı vəzifələrin birinci təsnifatı üzrə - dövlət qulluğunun baş referenti, dövlət qulluğunun böyük referenti;

16.3.2. yardımçı vəzifələrin ikinci təsnifatı üzrə - dövlət qulluğunun böyük referenti, dövlət qulluğunun 1-ci dərəcə referenti;

16.3.3. yardımçı vəzifələrin üçüncü təsnifatı üzrə - dövlət quluğunun 1-ci dərəcə referenti, dövlət qulluğunun 2-ci dərəcə referenti;

16.3.4. yardımçı vəzifələrin dördüncü təsnifatı üzrə - dövlət qulluğunun 2-ci dərəcə referenti, dövlət qulluğunun 3-cü dərəcə referenti;

16.3.5. yardımçı vəzifələrin beşinci təsnifatı üzrə - dövlət qulluğunun 3-cü dərəcə referenti, dövlət qulluğunun kiçik referenti;

16.3.6. yardımçı vəzifələrin altıncı təsnifatı üzrə — dövlət qulluğunun kiçik referenti.

**Maddə 17. İxtisas dərəcələrinin verilməsi**

17.1. İxtisas dərəcələri bu Qanunun 16-cı maddəsinə müvafiq surətdə dövlət qulluqçusunun ixtisasına, tutduğu vəzifəyə və qulluq stajına uyğun olaraq, habelə əvvəllər verilmiş dərəcə nəzərə alınmaqla ardıcıl verilir. Dövlət qulluqçusunun qulluq stajına 1991-ci il oktyabrın 18-dək dövlət, sovet və partiya orqanlarında iş müddəti də daxil edilir.

17.2. Bu Qanunun 16-cı maddəsində müvafiq inzibati vəzifələr üçün müəyyən edilmiş ixtisas dərəcələri çərçivəsində daha yüksək ixtisas dərəcəsi almaq üçün aşağıdakılar vacibdir:

17.2.1. dördüncü-altıncı təsnifat vəzifələri üçün – həmin vəzifələrdə qulluq müddəti 3 il təşkil etməlidir;

17.2.2. yeddinci-doqquzuncu təsnifat vəzifələri üçün – həmin vəzifələrdə qulluq müddəti 2 il təşkil etməlidir;

Bu Qanunun 16-cı maddəsində müvafiq yardımçı vəzifələr üçün müəyyən edilmiş ixtisas dərəcələri çərçivəsində daha yüksək ixtisas dərəcəsi almaq üçün aşağıdakılar vacibdir:

birinci - üçüncü təsnifat vəzifələri üçün - həmin vəzifələrdə qulluq müddəti ardıcıl olaraq_2 il təşkil etməlidir.

17.3. Dövlət qulluğunun kiçik referentindən dövlət qulluğunun baş müşavirinədək ixtisas dərəcələri dövlət qulluqçusunun şəxsi ərizəsi əsasında verilir. Ərizəyə ixtisas dərəcəsi xahiş edilən ixtisas dərəcəsindən aşağı olmayan iki dövlət qulluqçusunun zəmanətləri, habelə iddiaçının təhsilini təsdiq edən sənədlər və onun xidməti vərəqəsi əlavə edilir.

17.4. İxtisas dərəcələrinin verilməsi qaydası Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən edilir.

17.5. 3-cü dərəcə dövlət müşaviri və ondan yuxarı olan ixtisas dərəcələri Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü və 32-ci bəndlərində nəzərdə tutulmuş qaydada verilir. Bu ixtisas dərəcələri alan dövlət qulluqçusuna müvafiq hüquqi akt və vəsiqə verilir.

17.6. Bu Qanunun 25.2.6-cı və 33.1.5-ci maddələrində nəzərdə tutulmuş hallar istisna olmaqla, dövlət qulluğuna xitam verildiyi bütün hallarda dövlət qulluqçusu ona verilmiş ixtisas dərəcəsini saxlayır.

**Maddə 18. Dövlət qulluqçusunun əsas vəzifələri**

18.0. Dövlət qulluqçuları vəzifədə olaraq aşağıdakıları etməlidirlər:

18.0.1. qanunvericiliyi və dövlət orqanlarının qəbul etdikləri başqa normativ hüquqi aktları həyata keçirməli;

18.0.2. rəhbərlərin öz səlahiyyəti hüdudunda verdikləri əmrləri, sərəncamları və göstərişləri yerinə yetirməli;

18.0.3. dövlət orqanında müəyyən edilmiş qulluq reqlamentinə riayət etməli;

18.0.4. başqa dövlət qulluqçularının işini çətinləşdirən, yaxud işlədiyi dövlət orqanının nüfuzunu aşağı sala biləcək hərəkətlərə yol verməməli;

18.0.5. vətəndaşların, müəssisə, idarə və təşkilatların müraciətlərinə vaxtında baxmalı və öz səlahiyyətləri hüdudunda onları qərəzsiz həll etməli;

18.0.6. lazım gəldikdə öz ixtisası hüdudunda rəhbərin göstərişi ilə əlavə iş görməli;

18.0.7. dövlət sirrini və qanunla mühafizə edilən digər sirri həmişə, o cümlədən işdən çıxdıqdan, istefaya və ya pensiyaya getdikdən sonra da saxlamalı;

18.0.8. vəzifə borcunun yerinə yetirilməsi vaxtı daxil olan və vətəndaşların şəxsi həyatı, şərəfi və ləyaqəti ilə bağlı məlumatları gizli saxlamalı və qanunla nəzərdə tutulmuş hallar istisna edilməklə, belə məlumatların verilməsini tələb etməməli;

18.0.9. qulluq etdiyi orqanın rəhbərinə hər il öz gəlirləri və əmlak vəziyyəti haqqında maliyyə hesabatı verməli, orada əlavə gəlirlərin mənbəyini, növünü və məbləğini göstərməli;

18.0.10. qanunvericilikdə müəyyən edilmiş hallarda və qaydada müvəqqəti olaraq başqa yaşayış yerinə keçməli, başqa yerdə işləməli və ya başqa vəzifələri icra etməli;

18.0.11. qanunvericilikdə müəyyən edilmiş hallarda və qaydada öz fiziki və əqli qabiliyyətinin və ya tapşırılan funksiyaların icrasına yararlı olmasının müəyyən edilməsi üçün tibbi komissiyalarda müayinə keçməli;

18.0.12. qulluq etikası normalarına əməl etməlidir.

**Maddə 19. Dövlət qulluqçusunun əsas hüquqları**

19.0. Dövlət qulluqçusu aşağıdakı hüquqlara malikdir:

19.0.1. vəzifə borcunu yerinə yetirmək üçün dövlət orqanlarından, ictimai birliklərdən, müəssisə, idarə və təşkilatlardan müəyyən edilmiş qaydada lazımi informasiya və materiallar tələb etmək və almaq;

19.0.2. dövlət qulluqçusunu işə götürmək və işdən azad etmək hüququna malik olan vəzifəli şəxsdən öz qulluq vəzifələrinin yazılı surətdə təsbit edilməsini və onların icrası üçün şərait yaradılmasını tələb etmək;

19.0.3. dövlət maaşı almaq;

19.0.4. ixtisasının artması və qulluq vəzifələrinin yerinə yetirilməsinə münasibəti nəzərə alınmaqla qulluqda irəli çəkilmək və ya dövlət maaşının məbləğinin artırılması iddiasında olmaq;

19.0.5. elmi və yaradıcılıq fəaliyyəti ilə məşğul olmaq, işlədiyi dövlət orqanı rəhbərinin icazəsi ilə pedaqoji və başqa ödənişli fəaliyyətlə məşğul olmaq;

19.0.6. əmanətlərdən (depozitlərdən), qiymətli kağızlardan, rentadan və icarədən gəlir götürmək;

19.0.7. ilk tələbdən öz şəxsi işinin bütün materialları ilə, şəxsi işə tikilməli olan rəylər və digər sənədlərlə tanış olmaq, habelə öz izahatlarının şəxsi işə tikilməsini tələb etmək;

19.0.8. şərəf və ləyaqətinə xələl gətirən məlumatları təkzib etmək üçün xidməti təhqiqat aparılmasını tələb etmək;

19.0.9. müvafiq orqanlarda və məhkəmədə öz qanuni hüquqlarını və mənafeyini müdafiə etmək;

19.0.10. həmkarlar ittifaqlarında birləşmək;

19.0.11. işlədiyi dövlət orqanının rəhbərindən aldığı icrası məcburi olan göstəriş və ya əmrin qanuniliyi və ya dürüstlüyü dövlət qulluqçusunda şübhə doğurursa, həmin göstərişin və ya əmrin yazılı şəkildə ona verilməsini tələb etmək;

19.0.12. qanunvericilikdə başqa hal nəzərdə tutulmayıbsa və bu, dövlət qulluqçusu funksiyalarının icrası ilə bir araya sığmayan deyilsə, ictimai birliklərdə üzv olmaq;

19.0.13. qanunvericilikdə nəzərdə tutulmuş qaydada dövlət vəsaiti hesabına təhsil almaq və müvafiq təlim keçmək, habelə təhsil məqsədilə məzuniyyət almaq;

19.0.14. qanunvericilikdə nəzərdə tutulmuş hallarda və qaydada məzuniyyətlər (sosial məzuniyyətlər, özünün və ya ailə üzvlərinin müalicəsi ilə əlaqədar və elmi məzuniyyətlər), özünün və ya ailə üzvlərinin əlilliyi ilə əlaqədar pensiyalar və müavinətlər almaq.

**Maddə 20. Dövlət qulluğu ilə əlaqədar məhdudiyyətlər**

20.1. Dövlət qulluqçusunun aşağıdakılara ixtiyarı yoxdur:

20.1.1. dövlət orqanlarında əlavə ödənişli vəzifə tutmağa;

20.1.2. elmi və yaradıcılıq fəaliyyəti istisna olmaqla, işlədiyi dövlət orqanı rəhbərinin icazəsi olmadan pedaqoji və başqa ödənişli fəaliyyətlə məşğul olmağa;

20.1.3. dövlət orqanının və ya yerli özünüidarə orqanının işləri üzrə üçüncü şəxslərin vəkili olmağa;

20.1.4. istefaya getdikdən, işdən və ya pensiyaya çıxdıqdan sonra Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş müddət ərzində öz qulluq fəaliyyətinə aid olan və dövlət sirri və ya qanunla mühafizə edilən digər sirr olan məsələlər barədə informasiyadan üçüncü şəxslərin xeyrinə istifadə etməyə;

20.1.5. işlədiyi dövlət orqanı rəhbərinə bildirmədən xarici ölkənin vəsaiti hesabına oraya getməyə;

20.1.6. qulluq vəzifələrini icra etdiyi dövrdə siyasi partiyaların fəaliyyətində iştirak etməyə;

20.1.7. tətillərdə və dövlət orqanlarının işini pozan digər hərəkətlərdə iştirak etməyə;

20.1.8. dini təbliğ etmək üçün dövlət qulluqçusunun statusundan istifadə etməyə və dövlət orqanlarının tabeliyindəki obyektlərdə dini mərasimlərin keçirilməsinə rəsmi xarakter verməyə.

20.2. Seçki komissiyasının həlledici səs hüquqlu üzvü dövlət qulluğunda ola bilməz.

20.3. Dövlət qulluqçusu bu maddənin tələblərinə zidd hərəkət etdikdə, əgər qanunvericilikdə ayrı qayda nəzərdə tutulmayıbsa, xəbərdarlıq aldıqdan sonra otuz gün ərzində o, dövlət qulluğuna, yoxsa başqa fəaliyyətə üstünlük verdiyini özü üçün müəyyən edərək gəldiyi qərar barəsində qulluq etdiyi dövlət orqanının rəhbərinə məlumat verməlidir.

**Maddə 21. Dövlət qulluqçuları üçün təminatlar**

21.1. Dövlət qulluqçuları üçün aşağıdakılara təminat verilir:

21.1.1. dövlət qulluqçusunun layiqli həyat səviyyəsini təmin edən dövlət məvacibi və digər ödənişlər;

21.1.2. lazımi qulluq şəraiti;

21.1.3. haqqı ödənilən məzuniyyət;

21.1.4. dövlət qulluqçularının və onların ailə üzvlərinin icbari tibbi sığortası;

21.1.5. təkrar hazırlıq və ixtisasartırma;

21.1.6. dövlət orqanları ləğv edilərsə və ya ştatlar ixtisara düşərsə, vəzifə maaşına və ixtisasa uyğun işə düzəlmə və ya başqa dövlət orqanında tutduğu vəzifəyə uyğun vəzifə tutmaqda üstünlük;

21.1.7. pensiya təminatı və dövlət sosial sığortası;

21.1.8. qulluq vəzifələrinin icrası ilə əlaqədar olaraq qanunla müəyyən edilmiş qaydada sığorta;

21.1.9. icra edilən vəzifə öhdəliklərinin xarakteri nəzərə alınmaqla xidməti nəqliyyat və ya müvafiq kompensasiya almaq;

21.1.10. dövlət qulluqçusunun vəzifə öhdəliklərinin icrası ilə əlaqədar olaraq ona və onun ailə üzvlərinə qarşı törədilən zorakılıqdan, hədələrdən və təhqirlərdən dövlət qulluqçusunun və onun ailə üzvlərinin müdafiəsi.

21.2. (çıxarılmışdır).

21.3. Dövlət qulluqçusu bu Qanunun 25-ci maddəsində nəzərdə tutulmuş hallardan başqa yalnız öz razılığı ilə aşağı maaşlı vəzifəyə keçirilə bilər.

21.4. Dövlət hakimiyyəti orqanlarının, habelə dövlət orqanları rəhbərliyinin tərkibinin dəyişməsi dövlət qulluğuna xitam verilməsi üçün əsas deyildir.

21.5. Yardımçı vəzifələr tutan dövlət qulluqçuları üçün təminatlar Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə müəyyən edilir.

**Maddə 22. Dövlət məvacibi**

22.1. Dövlət məvacibi dövlət qulluqçusuna pul ilə ödənilən haqdır. Dövlət məvacibinin məbləği səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, tələb olunan peşəkarlıq səviyyəsindən, vəzifədə qulluq stajından asılıdır.

22.2. Dövlət məvacibi vəzifə maaşından, mükafatlardan və vəzifə maaşına əlavələrdən (dövlət qulluqçusunun ixtisas dərəcəsinə, qulluq stajına və s. görə verilən əlavələr) ibarətdir.

22.3. İnzibati vəzifələrin 9-cu təsnifatı üzrə dövlət qulluqçusunun maaşının məbləği Azərbaycan Respublikasının qanunvericiliyi ilə inzibati vəzifələr üçün müəyyən edilən minimum vəzifə maaşına bərabər tutulur. Yardımçı vəzifələrin 6-cı təsnifatı üzrə dövlət qulluqçusunun maaşının məbləği Azərbaycan Respublikasının qanunvericiliyi ilə yardımçı vəzifələr üçün müəyyən edilən minimum vəzifə maaşına bərabər tutulur. Dövlət qulluqçuları üçün vəzifə maaşlarının məbləği dövlət qulluğu vəzifələrinin təsnifatına uyğun müəyyən edilir. Hər sonrakı təsnifatın vəzifə maaşı əvvəlkindən qanunvericiliklə müəyyən edilmiş faiz miqdarında yuxarı olmalıdır. Hər kəs dövlət qulluğu vəzifəsinə təyin edilərkən onun vəzifə maaşının müəyyən edilməsi haqqında qərar qəbul olunur.

22.4. Qulluq şəraiti həyat və sağlamlıq üçün təhlükəli olan, yaxud xüsusilə ağır olan dövlət orqanlarında vəzifə maaşları üçün artıq əmsal müəyyən edilir. Əmsalın müəyyən edilməsi qaydası, onun təyin edilməsi üçün əsas və onun məbləği Azərbaycan Respublikasının müvafiq qanunu ilə müəyyən edilir.

22.5. Dövlət qulluqçularının vəzifə maaşlarına Azərbaycan Respublikasının qanununa müvafiq surətdə yerli əmsallar müəyyən edilir.

22.6. Dövlət qulluqçusuna hakimiyyət səlahiyyəti vermək barədə qərar qəbul edilməsi ilə eyni zamanda müvafiq səlahiyyətin icrasına görə onun üçün qanunvericiliklə müəyyən edilən məbləğdə əlavə haqq müəyyən edilir.

22.7. Dövlət qulluqçusuna vəzifədə qulluq stajına görə xidmətin ikinci ilindən başlayaraq əlavə haqq verilir və həmin haqq qanunvericiliklə müəyyən edilmiş qaydada artırılır. Haqqın məbləği qanunvericiliklə müəyyən edilir. Bu maddə Azərbaycan Respublikasının Baş naziri və onun müavinləri, Naxçıvan Muxtar Respublikasının Baş naziri və onun müavinləri, Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanının rəhbəri və onun müavinləri, Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanının rəhbəri və onun müavinləri, yerli icra hakimiyyəti orqanının rəhbəri (başçısı) vəzifələrini tutan şəxslərə də şamil olunur.

22.8. Dövlət qulluqçusu üçün hakimiyyət səlahiyyətinin icrasına görə əlavə haqq təyin edilməsi qaydası Azərbaycan Respublikasının müvafiq qanunu ilə müəyyən edilir.

**Maddə 23. Dövlət qulluqçularının pensiya təminatı**

23.1. Dövlət qulluqçularının pensiya təminatı üçün əsas və onun qaydası bu maddənin müddəaları nəzərə alınmaqla Azərbaycan Respublikasının müvafiq qanunu ilə müəyyən edilir.

23.2. Dövlət qulluqçusunun pensiyasının məbləği dövlət qulluğunda xidmət illərindən və dövlət məvacibinin məbləğindən asılıdır. Dövlət pensiyası verilməsi üçün lazım olan xidmət illərinin minimum həddi 5 ildir.

23.3. Müvafiq qanunvericiliyə uyğun olaraq pensiya yaşına çatmasına və ya əlilliyinə görə könüllü işdən çıxmış və dövlət qulluğunda xidmət illərinin minimum həddinə malik olmayan dövlət qulluqçusuna qanunvericiliklə müəyyən edilmiş miqdarda ömürlük müavinət təyin edilir.

23.4. Dövlət qulluqçusunun pensiyasının və müavinətinin məbləği fəaliyyətdə olan dövlət qulluqçusunun dövlət məvacibinin məbləğində olan sonrakı artımlara uyğun olaraq, müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən qaydada yenidən hesablanır.

23.5. Dövlət qulluqçusu, yaxud pensiyaçı öldükdən sonra onun dul arvadına (ərinə), anasına (atasına), ölənin himayəsində olmuş və 22 yaşına çatmamış işləməyən qızına (oğluna) pensiyanın müvafiq qanunvericiliklə müəyyən edilən faizi ödənilir.

**Maddə 24. Dövlət qulluqçularının mükafatlandırılması**

24.1. Dövlət qulluqçusunun vəzifə borclarını yerinə yetirərkən səylə çalışması hərtərəfli mükafatlandırılır. Dövlət qulluqçularının mükafatlandırılmasının növləri və qaydaları qanunvericiliklə müəyyənləşdirilir.

24.2. Dövlət qulluqçularının xidmətdə peşəkarlıq səviyyəsinin artması və vəzifə borcuna və andına sədaqəti dövlət tərəfindən qiymətləndirilməlidir. Onun xidmətlərinin dövlət tərəfindən təsdiq edilməsi "Vətənə xidmətə görə" ordeninin üç dərəcəsi, "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə, digər orden və medallarla təltif olunmasından, habelə Azərbaycan Respublikasının fəxri adlarını almasından ibarətdir. Dövlət qulluqçularının orden və medallarla təltif olunması və onlara fəxri adların verilməsi haqqında əsasnamələr və qaydalar qanunvericiliklə müəyyən edilir.

**Maddə 25. Dövlət qulluqçularının məsuliyyəti**

25.1. Dövlət qulluqçularına həvalə olunmuş vəzifələrin yerinə yetirilməməsi və yaxud lazımi şəkildə yerinə yetirilməməsi, həmçinin bu Qanunla müəyyən edilmiş məhdudiyyətlərə əməl olunmaması, qanunda başqa qayda nəzərdə tutulmayıbsa, intizam məsuliyyətinə səbəb olur.

25.2. Dövlət qulluqçuları bu Qanunun 18-ci maddəsində nəzərdə tutulan tələbləri pozarlarsa, onlara qarşı aşağıdakı intizam tənbehi tədbirləri tətbiq oluna bilər:

25.2.1. töhmət;

25.2.2. bir il müddətinədək vəzifə maaşının 5 faizindən 30 faizinədək azaldılması;

25.2.3. həmin dərəcədən olan, lakin vəzifə maaşı aşağı olan işə keçirilməsi;

25.2.4. daha aşağı dərəcəli işə keçirilməsi;

25.2.5. ixtisas dərəcəsinin aşağı salınması;

25.2.6. ixtisas dərəcəsindən məhrum edilməsi;

25.2.7. dövlət qulluğundan azad edilməsi.

25.3. Bu Qanunun 25.2.4-cü, 25.2.5-ci, 25.2.6-cı və 25.2.7-ci maddələrində göstərilən intizam tənbeh növləri, dövlət qulluqçusunun işlədiyi dövlət orqanının rəhbəri tərəfindən tətbiq olunur.

25.4. Tətbiq olunmuş intizam tənbeh tədbirinin ləğv edilməsi üçün 7 gün ərzində müvafiq icra hakimiyyəti orqanına şikayət vermək olar. Bu zaman intizam tənbeh tədbiri 10 gün ərzində həmin orqan tərəfindən ya ləğv olunmalı, ya da qüvvədə saxlanmalıdır. Çıxarılmış intizam tənbeh tədbirindən şikayət verilməsi qaydası bu maddənin müddəaları nəzərə alınmaqla Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən edilir.

25.5. Dövlət qulluqçuları qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada inzibati məsuliyyətə və cinayət məsuliyyətinə cəlb oluna bilərlər.

25.6. Dövlət qulluqçuları onların təqsiri üzündən dəymiş zərər üçün qanunvericiliklə müəyyən edilmiş qaydada maddi məsuliyyət daşıyırlar. Dövlət qulluqçularının qanuna uyğun hərəkətləri nəticəsində dəymiş zərərin əvəzi tam həcmdə dövlət büdcəsinin vəsaiti hesabına ödənilir.

25.7. Dövlət qulluqçusu “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikası qanunun 5.1-ci maddəsində müəyyən edilmiş tələblərə əməl etmədikdə və ya həmin qanunun 9-cu maddəsində göstərilən hüquqpozmaları törətdikdə (onlar inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda) intizam məsuliyyətinə cəlb olunur.

**Maddə 26. Qanunsuz göstərişin yerinə yetirilməsi üstündə dövlət qulluqçusunun məsuliyyəti**

26.1. Dövlət qulluqçusu öz hərəkətlərinin qanuniliyi üçün cavabdehdir.

26.2. Rəhbər işçinin göstərişini qanunsuz sayan dövlət qulluqçusunun etirazına baxmayaraq, həmin rəhbər işçi öz göstərişini qüvvədə saxlayırsa və ondan yuxarı vəzifəli rəhbər işçi həmin göstərişi ləğv etmirsə, dövlət qulluqçusu məsuliyyətdən azad olunur.

## V fəsil
## DÖVLƏT QULLUĞU KEÇMƏ

**Maddə 27. Dövlət qulluğuna girmək hüququ**

27.1. Azərbaycan Respublikasının 16 yaşına çatmış, irqindən, milliyyətindən, dilindən, cinsindən, sosial mənşəyindən, əmlak vəziyyətindən, yaşayış yerindən, dinə münasibətindən, əqidəsindən, ictimai və digər birliklərə mənsubiyyətindən asılı olmayaraq, müvafiq vəzifənin tələblərinə uyğun peşə hazırlığına malik olan vətəndaşlarının dövlət qulluğuna girmək hüququ vardır.

27.2. Hər hansı şəxs dövlət qulluğuna aşağıdakı hallarda götürülə bilməz:

27.2.1. onun fəaliyyət qabiliyyətinə malik olmaması və ya məhdud fəaliyyət qabiliyyətinə malik olması məhkəmənin qərarı ilə təsdiq edilərsə;

27.2.2. məhkəmə onu müəyyən müddətə dövlət vəzifəsi tutmaq hüququndan məhrum etmişsə;

27.2.3. bilavasitə tabeliyində və ya nəzarəti altında işləyəcəyi dövlət qulluqçusu ilə yaxın qohumluq və ya qudalıq (ər-arvadlar, onların valideynləri, qardaşları, bacıları, övladları) əlaqəsi olduqda;

27.2.4. qanunvericiliklə müəyyən edilmiş başqa hallarda.

27.3. Dövlət qulluğuna qəbul edilən şəxsin dövlət qulluğunda işləməsinin mümkün olub-olmaması qabaqcadan yoxlanıla bilər. Yoxlamanın qaydası qanunvericiliklə müəyyən edilir. Şəxsi (ailə) həyatın təfsilatı yoxlanmamalıdır.

**Maddə 28. Dövlət qulluğuna qəbul**

28.1. Dövlət qulluğuna vətəndaşlar müsabiqə və ya müsahibə əsasında qəbul edilirlər.

28.2. İnzibati vəzifələrin altıncı-doqquzuncu təsnifatlarına uyğun olan vəzifələr boşaldıqda, müvafiq icra hakimiyyəti orqanı həmin vəzifələrin tutulması üçün müsabiqə elan edir.

28.3. Müsabiqədə iştirak etmək istəyənlər sənədlərini müsabiqə elan edilən gündən etibarən 30 gün ərzində müvafiq icra hakimiyyəti orqanına təqdim edirlər.

28.4. Müsabiqə sənədlərin qəbulu başa çatdıqdan sonra 10 gün ərzində keçirilir və vahid test imtahanından və söhbətdən ibarət olur. Müsabiqənin elan edilməsi, keçirilməsi və yekunlarına dair müvafiq qərarın qəbul edilməsi qaydası Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən edilir.

28.5. Test imtahanından müvəffəqiyyətlə çıxanlar söhbətə buraxılırlar. Test nümunələri Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən edilmiş qaydada hazırlanır və təsdiq olunur.

28.6. Qanunvericiliklə başqa qayda nəzərdə tutulmadıqda, müsabiqədən keçmiş namizədlər dövlət orqanı rəhbərinə təqdim olunurlar. Dövlət orqanının rəhbəri təqdim olunmuş namizədlərdən birini seçərək öz qərarı ilə bir il müddətinə stajçı kimi qulluğa götürür və boş vəzifəyə təyin edir. Staj dövründə dövlət orqanı rəhbərinin təyin etdiyi kurator stajçının işinə göz qoyur və staj müddəti qutardıqdan sonra stajçının dövlət qulluğuna götürülməsinin məqsədəuyğun olub-olmadığı barədə tövsiyə təqdim edir. Qanunvericiliklə başqa qayda nəzərdə tutulmadıqda, tövsiyə müsbət olarsa, stajçı əmək müqaviləsi (kontrakt) bağlamaq yolu ilə iki illik sınaq müddəti ilə işə qəbul edilir. Kontraktda sınaq müddəti ərzində işin şərtləri müəyyənləşdirilir. Sınaq müddəti ilə işə qəbul kontraktının nümunəsi Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilən qaydada təsdiq olunur. Sınaq müddəti ərzində kontrakt pozulmayıbsa, həmin müddət qurtardıqdan sonra dövlət orqanının rəhbəri kontraktın şərtlərinə əməl etməklə işləmiş şəxsin daimi dövlət qulluğuna götürülməsi haqqında əmr verir və bu şəxslə müvafiq kontrakt bağlanır. Sınaq müddəti ilə bağlı digər məsələlər qanunvericiliklə müəyyən edilir.

28.7. Daimi dövlət qulluğuna qəbul Azərbaycan Respublikasının adından müvafiq dövlət orqanının sənədi ilə təsdiq edilir.

**Maddə 29. İnzibati vəzifələrin tutulması**

29.1. İnzibati vəzifələrin birinci-beşinci təsnifatlarına uyğun olan vəzifələrin tutulması müsahibə və qulluqda yüksəliş yolu ilə həyata keçirilir.

29.2. İnzibati vəzifələrin altıncı-doqquzuncu təsnifatlarına uyğun olan vəzifələr müsabiqə nəticələrinə əsaslanan müvafiq icra hakimiyyəti orqanının tövsiyəsi nəzərə alınmaqla tutulur. Boşalmış vəzifənin tutulması üçün namizəd seçilərkən müsabiqə vaxtı aşağıdakılar nəzərə alınmalıdır:

29.2.1. ixtisas dərəcəsi;

29.2.2. atestasiyanın nəticələri;

29.2.3. boşalmış vəzifənin tələblərinə uyğun olaraq təkrar hazırlıq keçilməsi və ixtisasın artırılması.

29.3. Müsabiqədə başqa hakimiyyət qolunda dövlət qulluğu keçən dövlət qulluqçuları da iştirak edə bilərlər.

29.4. Müvafiq icra hakimiyyəti orqanı dövlət orqanının rəhbərinə boşalmış vəzifənin tutulması üçün ən azı 3-4 namizəd təqdim edir. Dövlət orqanının rəhbəri onlardan birini seçərək həmin vəzifəyə təyin edir. Dövlət orqanının rəhbəri müvafiq icra hakimiyyəti orqanının tövsiyəsi ilə razılaşmadıqda, yaranmış fikir ayrılığı Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası tərəfindən müəyyən edilmiş qaydada aradan qaldırılır (tövsiyə qüvvədə saxlanılır və namizədlərdən biri təyin olunur və ya tövsiyə rədd edilir). Müvafiq icra hakimiyyəti orqanının tövsiyəsi qüvvədə saxlanılarsa, dövlət orqanının rəhbəri namizədlərdən birini mütləq boşalmış vəzifəyə təyin etməlidir. Həmin tövsiyə rədd edildikdə isə boşalmış vəzifənin tutulması üçün bu Qanunun 29.3-cü, 29.4-cü və 29.5-ci maddələrinin müddəaları nəzərə alınmaqla, Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada müsabiqə elan edilir və keçirilir.

29.5. Müsabiqəyə ixtisas dərəcəsi boşalmış vəzifəyə uyğun gələn ixtisas dərəcəsinin təsnifatından ən çoxu iki təsnifat aşağı olan dövlət qulluqçuları buraxılırlar.

**Maddə 30. Dövlət qulluğunun şərtləri**

30.1. Dövlət qulluğunda iş vaxtı həftədə 40 saatdır. Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qanunla müddəti qısaldılmış iş vaxtı müəyyən edilə bilər.

30.2. Qulluq üçün zəruri olduqda dövlət orqanının rəhbəri müstəsna hallarda iş vaxtını ayda əvəzi ödənilmədən 5 saata qədər artıra bilər. İş vaxtı 5 saatdan çox artırılanda işlədiyi hər saata görə dövlət qulluqçusuna əlavə haqq ödənilməlidir.

30.3. Dövlət qulluqçularına ildə bir dəfə 30 təqvim günü qədər haqqı ödənilən məzuniyyət verilir. Uzun illər işləməyə görə haqqı ödənilən əlavə məzuniyyət aşağıdakı qaydada verilir:

30.3.1. 5 ildən 10 ilədək əmək stajına görə - 2 təqvim günü;

30.3.2. 10 ildən 15 ilədək əmək stajına görə - 4 təqvim günü;

30.3.3. 15 ildən çox əmək stajına görə - 6 təqvim günü;

30.4. Xidməti ezamiyyətə göndərilən dövlət qulluqçusu aşağıdakılarla təmin olunur:

30.4.1. mehmanxanada və ya xidməti yaşayış sahəsində yer, altı aydan çox müddətə ezamiyyətə göndəriləndə isə ayrıca xidməti mənzil sahəsi;

30.4.2. iş yeri, rabitə vasitələrindən istifadə etmək imkanı;

30.4.3. digər zəruri texniki xidmətlər və sosial-məişət xidmətləri, o cümlədən onu göndərən orqanın vəsaiti hesabına xidmətlər.

30.5. Müvvəqqəti olaraq başqa yerə qulluğa keçirilən dövlət qulluqçusunun ailəsini özü ilə aparmağa ixtiyarı vardır. Ona müəyyən edilmiş yaşayış normalarına uyğun gələn məişət ləvazimatı ilə komplektləşdirilmiş xidməti mənzil verilir, habelə əvvəl işlədiyi yerdəki yaşayış sahəsi saxlanılır. Dövlət qulluqçusunun ailə üzvlərinə işə və ya təhsil müəssisəsinə düzəlməkdə kömək göstərilir, məktəbəqədər uşaq müəssisələrində yer verilir və lazım gəldikdə, onu göndərən orqanın vəsaiti hesabına haqqı ödənilən tibbi xidmət göstərilir. Müvəqqəti olaraq başqa yerə qulluğa keçirilməklə bağlı olan başqa məsələlər Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə tənzim olunur.

30.6. Yardımçı vəzifələr tutun dövlət qulluqçularının əmək münasibətləri bu Qanunun müddəaları nəzərə alınmaqla Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə tənzimlənir.

**Maddə 31. Dövlət qulluqçularının attestasiyası**

31.1. İnzibati və yardımçı vəzifələri tutan hər bir dövlət qulluqçusu beş ildə bir dəfədən çox olmayaraq attestasiyadan keçirilməlidir.

31.2. Attestasiya kollegial, obyektiv surətdə, müstəqil mütəxəssislərin cəlb edilməsi ilə keçirilir. Attestasiya komissiyasının tərkibini və attestasiyanın nəticələrini müvafiq dövlət qulluğunu idarəetmə orqanı təsdiq edir. Dövlət qulluqçusunun tutduğu vəzifəyə uyğun gəlmədiyi hesab edilərsə, onun aşağı vəzifəyə keçirilməsi və ya azad edilməsi məsələsi qoyulur.

31.3. Attestasiya zamanı dövlət qulluqçusunun peşəkarlıq, işgüzarlıq və mənəvi keyfiyyətləri qiymətləndirilir və onun tutduğu vəzifəyə uyğun gəlib-gəlmədiyi barədə nəticə çıxarılır.

31.4. Attestasiyanın əsas məqsədləri aşağıdakılardır:

31.4.1. dövlət qulluqçusunun tutduğu vəzifəyə uyğun gəlib-gəlmədiyinin müəyyənləşdirilməsi;

31.4.2. işçinin potensial imkanlarından istifadə etmək mümkünlüyünün aşkara çıxarılması, onun peşə səriştəliyini artırmağa stimullaşdırılması;

31.4.3. qulluqçunun ixtisasının, peşə hazırlığının yüksəldilməsinə və ya təkrar hazırlıq keçməsinə zərurət dərəcəsinin müəyyənləşdirilməsi;

31.4.4. kadrların irəli çəkilməsinin uzunmüddətli planını tərtib etmək imkanının təmin edilməsi, habelə dövlət qulluqçusunun vaxtında vəzifədən azad edilməsi və ya daha aşağı ixtisaslı işə keçirilməsi.

31.5. Attestasiya ümumi kadr potensialının aşkara çıxarılmasına və dövlət orqanının funksional təyinatının optimal surətdə təmin edilməsinə kömək göstərməlidir.

31.6. Attestasiyanın keçirilməsinin konkret müddətləri, habelə cədvəli müvafiq dövlət qulluğunu idarəetmə orqanı tərəfindən təsdiq edilir və attestasiyanın başlanmasına ən geci 1 ay qalmış attestasiyadan keçən işçilərin nəzərinə çatdırılır.

31.7. Tutduğu vəzifədə 1 ildən az işləmiş dövlət qulluqçuları, stajçılar növbəti attestasiyadan keçməli deyildirlər. Uşağa qulluq etmək üçün məzuniyyətdə olan qadınlar işə çıxdıqdan sonra bir ildən tez olmayaraq növbəti attestasiyadan keçməlidirlər.

31.8. Attestasiyanın keçirilməsi üçün sədrdən, katibdən və azı beş komissiya üzvündən ibarət tərkibdə attestasiya komissiyası təsdiq edilir. Tərkibi vaxtaşırı dəyişən attestasiya komissiyasına yüksək ixtisaslı mütəxəssislər, dəvət edilmiş elmi ekspertlər daxil olurlar.

31.9. Attestasiyadan keçməli olan hər bir dövlət qulluqçusuna attestasiyanın başlanmasına ən azı 2 həftə qalmış onun bilavasitə rəhbəri tərəfindən hazırlanmış xidməti xasiyyətnamə verilir. Xasiyyətnamədə işçinin şəxsiyyətinə hərtərəfli qiymət verilir, fərdi xüsusiyyətləri, güclü və zəif cəhətləri, keçən dövr ərzindəki işinin nəticələri göstərilir. Sonrakı attestasiyalarda komissiyaya həmçinin əvvəlki attestasiyanın attestasiya vərəqəsi təqdim edilir.

31.10. Attestasiyadan keçən işçi onun barəsində verilən xasiyyətnamə ilə qabaqcadan, attestasiyaya ən azı 2 həftə qalmış tanış olmalıdır.

31.11. İşçi attestasiyadan keçirilərkən onun işlədiyi struktur bölməsinin rəhbəri orada iştirak etməlidir. Attestasiya komissiyası attestasiyadan keçən işçinin fəaliyyəti haqqında onun məlumatını dinləyir və təqdim edilmiş materialları nəzərdən keçirir.

31.12. Dövlət qulluqçusu üzürlü səbəb olmadan attestasiya komissiyanın iclasına gəlmədikdə komissiya attestasiyanı onsuz keçirə bilər.

31.13. Dövlət qulluqçusunun attestasiyanın nəticələri əsasında attestasiya komissiyası aşağıdakı qiymətlərdən birini verə bilər:

31.13.1. tutduğu vəzifəyə uyğun gəlir;

31.13.2. işini yaxşılaşdırsa və komissiyanın tövsiyələrini yerinə yetirsə, bir ildən sonra təkrar yoxlamadan keçmək şərti ilə tutduğu vəzifəyə uyğun gəlir;

31.13.3. tutduğu vəzifəyə uyğun gəlmir.

31.14. Attestasiya komissiyası attestasiyanın nəticələri əsasında ayrı-ayrı dövlət qulluqçularının qazandıqları müvəffəqiyyətlərə görə mükafatlandırılması, müvafiq vəzifələr üzrə vəzifə maaşlarının dəyişdirilməsi, vəzifə maaşlarına əlavələr müəyyən edilməsi, əlavələrin dəyişdirilməsi və ya ləğv edilməsi, irəli çəkilmək üçün ehtiyata daxil edilməsi, vəzifəsinin aşağı salınması və ya tutduğu vəzifədən azad edilməsi haqqında tövsiyələr verə bilər, habelə attestasiyadan keçən şəxslərin ixtisasının yüksəldilməsi, qulluq fəaliyyətinin, işinin nəticələrinin yaxşılaşdırılması barədə təkliflər irəli sürə bilər. Bu halda komissiya müvafiq təkliflər irəli sürərkən hansı mülahizələrə əsaslandığını göstərməlidir.

31.15. Dövlət qulluqçusunun fəaliyyətinə verilən qiymət və komissiyanın tövsiyələri attestasiyadan keçən şəxsin iştirakı olmadan açıq səsvermə yolu ilə qəbul edilir.

31.16. Attestasiya və səsvermə təsdiq edilmiş tərkibdə olan attestasiya komissiyasının üzvlərinin ən azı üçdə iki hissəsinin iştirakı ilə keçirilir. Səsvermənin nəticələri səs çoxluğu ilə müəyyən edilir. Səslər bərabər olduqda, attestasiyadan keçən dövlət qulluqçusu tutduğu vəzifəyə uyğun gələn sayılır. Attestasiya komissiyasının üzvü olan dövlət qulluqçusu attestasiyadan keçərkən səsvermədə iştirak etmir. Attestasiyanın nəticələri səsvermədən dərhal sonra dövlət qulluqçusuna bildirilir.

31.17. Attestasiyanın nəticələri (qiymət və tövsiyələr) bir nüsxədə tərtib edilən, sədr, katib və attestasiya komissiyasının səsvermədə iştirak etmiş üzvləri tərəfindən imzalanan attestasiya vərəqinə (əlavəyə) yazılır.

31.18. Attestasiyadan keçən dövlət qulluqçusunun attestasiya vərəqi və xasiyyətnaməsi onun şəxsi işində saxlanılır və onların bir surəti attestasiyadan keçən dövlət qulluqçusuna verilir.

31.19. Attestasiya komissiyasının verdiyi qiymət və tövsiyələr nəzərə alınmaqla və qüvvədə olan qanunvericiliyə riayət edilməklə ayrı-ayrı dövlət qulluqçularının qazandıqları müvəffəqiyyətlər müqabilində maddi və mənəvi cəhətdən mükafatlandırılması, onların vəzifə maaşına əlavələr müəyyən edilməsi, əlavələrin dəyişdirilməsi və ya ləğv edilməsi, iş ixtisasının artırılmasına göndərilməsi, dövlət qulluqçusunun vəzifəsinin yüksəldilməsi və ya aşağı salınması, attestasiyanın nəticələrinə görə tutduğu vəzifəyə uyğun gəlmədiyi aşkara çıxan dövlət qulluqçusunun vəzifədən azad edilməsi haqqında qərarlar qəbul edilir və ya attestasiyadan keçən şəxsin diqqəti qulluq vəzifələrinin icrasındakı nöqsanlara və ya fəaliyyətinin nəticələrinin zəif olmasına cəlb edilir.

31.20. Həmin qərarlar dövlət qulluqçusunun attestasiyadan keçdiyi gündən sonra ən geci 2 ay müddətində qəbul edilir. Bu müddət keçdikdən sonra həmin attestasiyanın nəticələri əsasında dövlət qulluqçusunun vəzifə maaşının aşağı salınmasına, ona əlavənin azaldılmasına və ya ləğv edilməsinə, dövlət qulluqçusunun vəzifədən azad edilməsinə icazə verilmir.

31.21. Dövlət qulluqçusunun xəstə və məzuniyyətdə olması vaxtı həmin 2 ay müddətinə daxil edilmir.

31.22. Dövlət qulluqçusu attestasiyanın nəticələrindən müvafiq icra hakimiyyəti orqanına şikayət edə bilər.

**Maddə 32. Dövlət qulluğunda irəli çəkilmək hüququ**

32.1 Dövlət qulluqçusu daha yüksək dərəcəli vəzifəyə təyin edilməsi, habelə ona daha yüksək ixtisas dərəcəsi verilməsi yolu ilə, habelə müsabiqə_nəticəsində dövlət qulluğunda irəli çəkilə bilər.

32.2. Dövlət qulluğunda irəli çəkilmək hüququ dövlət qulluqçularının öz vəzifələrini müvəffəqiyyətlə və vicdanla yerinə yetirməsi, boşalmış vəzifə olması, habelə boşalmış vəzifənin tələblərinə uyğun olaraq təcrübə, təkrar hazırlıq keçməyin və ixtisas artırmağın nəticələri nəzərə alınmaqla həyata keçirilir.

32.3. Qulluqçunun irəli çəkilməsindən imtina edilməsi barədə qanunvericilikdə müəyyən olunmuş qaydada, yəni yalnız müsabiqənin və ya attestasiyanın keçirilməsi qaydasının pozulduğu hallarda şikayət etmək olar.

32.4. Yeni vəzifəyə təyinat Azərbaycan Respublikasının adından həyata keçirilir və müvafiq orqanın sənədi (vəsiqəsi) ilə təsdiq edilir.

**Maddə 33. Dövlət qulluğuna xitam verilməsi**

33.1. Dövlət qulluğuna aşağıdakı əsaslarla xitam verilə bilər:

33.1.1. (çıxarılmışdır).

33.1.2. inzibati vəzifə tutan və ixtisas dərəcəsi olan dövlət qulluqçusunun könüllü olaraq işdən çıxması;

33.1.3. inzibati vəzifə tutan dövlət qulluqçusunun işdən azad edilməsi;

33.1.4. yardımçı vəzifə tutan dövlət qulluqçusunun əmək qanunvericiliyinə müvafiq surətdə işdən azad edilməsi;

33.1.5. Azərbaycan Respublikası vətəndaşlığından çıxması ilə əlaqədar olaraq işdən azad edilməsi;

33.1.6. bir ildən çox müddətə azadlıqdan məhrum edilməyə səbəb olan cinayət məsuliyyətinə cəlb edilməsi.

33.2. (çıxarılmışdır).

33.3. Dövlət qulluqçusu müvafiq qanunvericiliyə uyğun olaraq pensiya yaşına çatmasına görə könüllü işdən çıxdıqda, ona ümumi qaydada hesablanmış aylıq pensiyasının 6 misli məbləğində birdəfəlik haqq verilir və bu məbləğdən vergi tutulmur.

33.4. Dövlət qulluqçusu könüllü işdən çıxdıqda, əgər dövlət orqanının rəhbərliyinin qərarı olarsa, könüllü işdən çıxmaq haqqında ərizəni verdikdən sonra üç ay ərzində dövlət qulluğunu davam etdirməlidir.

33.5. Dövlət qulluqçusunun bu Qanunun 33.1.3-cü maddəsində nəzərdə tutulduğu kimi azad edilməsinə müvafiq orqanın rəhbərinin qərarı ilə aşağıdakı hallarda icazə verilir:

33.5.1. Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulan əsaslarla;

33.5.2. əgər dövlət vəzifəsinin tutulması Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu ilə bir araya sığmırsa, Azərbaycan Respublikası Milli Məclisi deputatının səlahiyyətindən əl çəkməkdən imtina etməsi;

33.5.3. dövlət qulluğundan kənarda bu Qanunla qadağan olunmuş başqa işə keçmə.

33.6. Əmək müqaviləsində (kontraktda) başqa şərt nəzərdə tutulmayıbsa, ixtisas dərəcəsi olmayan dövlət qulluqçusu öz istəyi ilə işdən çıxmaq barədə ərizə verdiyi gündən ən çoxu 3 ay müddətində işdən azad edilir.

33.7. Dövlət qulluqçusu öz istəyi ilə və onu həmin vəzifəyə təyin etmiş rəhbərin razılığı ilə haqqı ödənilmədən uzunmüddətli məzuniyyətə göndərilə bilər.

# VI fəsil

## YEKUN MÜDDƏALAR

### Maddə 34. Dövlət qulluğu keçmənin digər məsələləri

Bu Qanunda və ona uyğun qəbul edilmiş qanunvericilik aktlarında tənzimlənməyən dövlət qulluğu keçmə ilə bağlı digər məsələlər Azərbaycan Respublikasının əmək qanunvericiliyi ilə tənzimlənir.

### Maddə 35. Qanunun qüvvəyə minməsi

Bu Qanun 2001-ci il sentyabrın 1-dən qüvvəyə minir.

**Heydər Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 21 iyul 2000-ci il
№ 926-IQ

2001-ci il 3 fevral tarixli 74-IIQD nömrəli; 2002-ci il 2 iyul tarixli 359-IIQD nömrəli; 2002-ci il 3 dekabr tarixli 398-IIQD nömrəli; 2003-cü il 30 dekabr tarixli 569-IIQD nömrəli; 2004-cü il 5 mart tarixli 597-IIQD nömrəli; 2004-cü il 4 may tarixli 646-IQD nömrəli; 2004-cü il 8 iyun tarixli 684-IIQD nömrəli; 2004-cü il 10 sentyabr tarixli 751-IIQD nömrəli; 2005-ci il 15 aprel tarixli 886-IIQD nömrəli; 2005-ci il 10 may tarixli 914-IIQD nömrəli; 2005-ci il 1 sentyabr tarixli 980-IIQD nömrəli; 2006-cı il 3 mart tarixli 78-IIIQD nömrəli; 2006-cı il 12 may tarixli 108-IIIQD nömrəli; 2006-cı il 30 may tarixli 122-IIIQD nömrəli; 2006-cı il 10 oktyabr tarixli 159-IIIQD nömrəli; 2006-cı il 28 noyabr tarixli 179-IIIQD nömrəli, 2007-ci il 16 fevral tarixli 246-IIIQD nömrəli qanunlara əsasən əlavə və dəyişikliklərlə

# "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa ("Azərbaycan" qəzeti, № 30, 07 fevral 2001-ci il) aşağıdakı dəyişikliklər edilsin

1. 35-ci maddədə "yanvarın 1-dən" sözləri "sentyabrın 1-dən" sözləri ilə əvəz edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Heydər Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 13 fevral 2001-ci il
№ 74-IIQD

# "Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında”

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

***22 iyul 2001-ci il***

**Maddə 1. Qanunun məqsədi**

Bu Qanun dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün onların səhhətini və fizioloji vəziyyətini nəzərə alaraq qısaldılmış iş .vaxtını müəyyən edir.

**Maddə 2: Qısaldılmış iş vaxtının müddəti**

Dövlət qulluğunda olan I və II qrup əlillərə, hamilə və yaşyarımadək uşağı olan qadınlara və yaşyarımadək uşaqlarını qanunvericiliklə müəyyən edilmiş səbəblərdən təkbaşına böyüdən atalara, habelə uşaqların qəyyumlarına, himayədarlarına həftədə 36 saat iş vaxtı müəyyən edilir.

**Maddə 3. Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün iş vaxtı müddətinin artırılmasının qadağan olunması**

Bu Qanunun 2-ci maddəsində göstərilmiş dövlət qulluqçuları üçün "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 30.2-ci maddəsi ilə nəzərdə tutulmuş iş vaxtının artırılması qadağan olunur.

**Maddə 4. Qanunun qüvvəyə minməsi**

Bu Qanun 2001-ci il sentyabrın 1-dən qüvvəyə minir.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezident**

Bakı şəhəri, 22 iyul 2001-ci il
№ 156-IIQ

**Dərci:** 5 sentyabr 2001-ci il.

# "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

*22 iyul 2001-ci il*

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına aşağıdakı əlavələr edilsin:

1. **"Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun** (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, N 5, maddə 348, 1999-cu il, N 11, maddə 659) 14-cü maddəsinə aşağıdakı məzmunda beşinci hissə əlavə edilsin:

"Dövlət qulluqçuları sosial sığorta fonduna ödənişlərdən azaddırlar".

2. **Azərbaycan Respublikasının Vergi Məcəlləsinə** (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, N 8, maddə 583) aşağıdakı məzmunda 102.1.16-cı maddə əlavə edilsin:

"102.1.16. siyasi vəzifə tutan dövlət qulluqçusunun vəzifə səlahiyyətlərinin müddətinin başa çatmasına görə istefası, habelə inzibati vəzifə tutan və ixtisas dərəcəsi olan dövlət qulluqçusunun yaş həddinə, yəni 65 yaşa çatmasına görə istefası və ya Azərbaycan Respublikasında müəyyən edilmiş pensiya yaşına çatdıqda könüllü pensiyaya çıxması nəticəsində verilən birdəfəlik haqlar".

3. **"Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikası Qanununun** (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, N 10, maddə 710) 28-ci maddəsinə aşağıdakı məzmunda cümlə əlavə edilsin:

"Dövlət orqanlarında ictimai birliklərin strukturları yaradılmır".

II. Bu Qanun 2001-ci il sentyabrın 1-dən qüvvəyə minir.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezident**

Bakı şəhəri, 22 iyul 2001-ci il
№ 157-IİQD

**Dərci:** 5 sentyabr 2001-ci il

# "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında" Əsasnamənin təsdiq edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**
I. "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında" Əsasnamə təsdiq edilsin.
II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezident**

Bakı şəhəri, 29 mart 2002-ci il
№ 283-IIQ

**Dərci:** 12 may 2002-ci il.

***Azərbaycan Respublikasının***
***2002-ci il 29 mart tarixli 283 - IIQD nömrəli***
***Qanunu ilə təsdiq edilmişdir***

## Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında ƏSASNAMƏ

*Əlavə və dəyişiklik:*
*1.* ***4 noyabr 2003, q.m.t 02.12.2003***

**I. Ümumi müddəalar**

1.1. Azərbaycan Respublikasının Dövlət Qulluğunun İdarəetmə Şurası (bundan sonra - "Şura") "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsinə uyğun olaraq həmin Qanunun tətbiqinə nəzarəti və dövlət qulluğunun normativ-metodik təminatını həya-ta keçirir. Azərbaycan Respublikasında dövlət qulluqçuları kateqoriyasına aid edilən şəxslərin siyahısını müəyyənləşdirir.

1.2. Şura "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsinə əsasən 18 nəfər üzvdən ibarət tərkibdə təşkil edilir və fəaliyyət göstərir. Şuranın 6 üzvü Azərbaycan Respublikasının prezidenti tərəfindən, 6 üzvü Azərbaycan Respublikası Milli Məclisinin sədri tərəfindən, 6 üzvü isə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri tərəfindən təyin edilir.

1.3. Şura öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, qanunlarını və digər normativ hüquqi aktlarını, habelə bu Əsasnaməni rəhbər tutur.

1.4. Şura öz fəaliyyətini Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikası Milli Məclisinin sədri, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri ilə qarşılıqlı əlaqədə qurur və mütəmadi olaraq onları özünün fəaliyyəti haqqında məlumatlandırır.

**II. Şuranın əsas funksiyaları**

2.1. Şura aşağıdakı əsas funksiyaları həyata keçirir:

2.1.1. vahid dövlət kadr siyasətinin formalaşdırılmasında iştirak;

2.1.2. dövlət hakimiyyəti orqanlarında dövlət qulluğunun vəziyyətinin və səmərəliliyinin təhlil edilməsi;

2.1.3. dövlət qulluğunun kadr təminatının proqnozlaşdırılması və planlaşdırılması işinin həyata keçirilməsi;

2.1.4. dövlət qulluğunun təşkili və həyata keçirilməsi ilə bağlı normativ hüquqi aktların və metodik göstərişlərin layihələrinin hazırlanması və həmin sənədlərin hazırlanmasında dövlət hakimiyyəti orqanlarının fəaliyyətinin əlaqələndirilməsi;

2.1.5. dövlət hakimiyyəti orqanlarının dövlət qulluğu və kadr xidmətlərinin metodik işinin əlaqələndirilməsi;

2.1.6. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş hallarda dövlət qulluqçularının şikayətlərinə baxılması;

2.1.7. dövlət qulluquçlarının peşə hazırlığı, yenidən hazırlanması və ixtisasının artırılması sahəsində işlərin təhlili və bununla bağlı təkliflərin hazırlanması;

2.1.8. dövlət qulluqçularına dair məhdudiyyətlərin və təminatların yerinə yetirilməsinə nəzarət edilməsi;

2.1.9. dövlət qulluğunun təşkili və səmərəliliyinin artırılması məsələləri ilə əlaqədar beynəlxalq əməkdaşlığın həyata keçirilməsində iştirak;

*2.1.10. dövlət qulluğunda vəzifə tutma ilə bağlı dövlət orqanlarının rəhbəri ilə dövlət qulluğunu idarəetmə orqanı arasında yaranmış fikir ayrılığının aradan qaldırılması qaydasının müəyyən edilməsi* (1).

**III. Şuranın fəaliyyətinin təmin edilməsi**

3.1. Öz funksiyalarını həyata keçirmək məqsədi ilə Şura:

3.1.1. müvafiq dövlət hakimiyyəti orqanlarından zəruri materialları sorğu edir və alır;

3.1.2. dövlət qulluğunun təşkili və həyata keçirilməsi ilə bağlı normativ hüquqi aktların və metodik göstərişlərin layihələrini hazırlayır, müvafiq dövlət hakimiyyəti orqanlarının nümayəndələrini, alimləri və mütəxəssisləri bu işə cəlb edir;

3.1.3. dövlət hakimiyyəti orqanlarında dövlət qulluğunun vəziyyətini və səmərəliliyini təhlil edir;

3.1.4. əmək qanunvericiliyinin və dövlət qulluğu haqqında qanunvericiliyin tətbiqi, o cümlədən əmək intizamının pozulması və əmək mübahisələri ilə bağlı vəziyyəti öyrənir və ümumiləşdirir;

3.1.5. dövlət qulluqçularının fəaliyyətinin səmərəliliyinin artırılması yollarını araşdırır və bununla bağlı tədbirlər (təkliflər) hazırlayır;

3.1.6. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq dövlət qulluqçularının şikayətlərinə baxır.

3.2. Şuranın fəaliyyətinə rəhbərliyi və işinin təşkilini Şuranın sədri həyata keçirir. Şuranın sədri onun tərkibindən Şura üzvlərinin sadə səs çoxluğu ilə seçilir.

3.3. Şuranın iclasları mütəmadi olaraq, lakin iki ayda bir dəfədən az olmayaraq keçirilir. Zərurət olduqda Şuranın fövqəladə iclasları çağırıla bilər. Şuranın iclasları onun üzvlərinin yarısından çoxu iştirak etdikdə səlahiyyətlidir. Şuranın müzakirə etdiyi məsələlərə dair qərarları Şuranın iclasında iştirak edən üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı xüsusi rəyi olan Şuranın üzvü öz rəyini qəbul edilmiş qərara əlavə edə bilər.

3.4. Şura özünün Reqlamentini təsdiq edir.

3.5. Şurada kargüzarlığın təşkili məqsədi ilə katiblik yaradılır. Şuranın katibliyinin işini Şuranın iclasında Şura üzvlərinin sadə səs çoxluğu ilə seçilən katib təşkil edir. Katibliyin fəaliyyəti dövlət büdcəsi hesabına maliyyələşdirilir.

3.6. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 5.3-cü maddəsinə uyğun olaraq Şuranın qəbul etdiyi qərarların məcburiliyi müvafiq dövlət qulluqçuları üçün müvafiq olaraq Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikasının Milli Məclisinin sədri, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri tərəfindən təmin edilir.

3.7. Şuranın üzvləri özlərinin fəaliyyətində müstəqildirlər.

**Dərci:** 12 may 2002-ci il.

# Dövlət qulluqçularının icbari sığortası haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

*Əlavə və dəyişiklik:*
*1. **4 noyabr 2003, q.m.t 02.12.2003***

***Bu Qanun "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövlət qulluqçularının sosial müdafiəsini təmin etmək məqsədilə onların icbari sığortası qaydalarını və sərtlərini müəyyən edir.***

**Maddə 1. Dövlət qulluqçularının icbari sığortası haqqında qanunvericilik**

Dövlət qulluqçularının icbari sığortası bu Qanunla, "Dövlət qulluğu haqqında", "Sığorta haqqında" Azərbaycan Respublikasının qanunları ilə və digər normativ hüquqi aktlarla tənzimlənir.

**Maddə 2. Sığorta olunanlar**

Bu Qanuna uyğun olaraq sığorta olunanlar "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyənləşdirilmiş vəzifələrin təsnifatına aid edilən dövlət qulluqçularıdır.

**Maddə 3. Sığortaçı**

Dövlət qulluqçularının sığortaçısı dövlət sığorta orqanıdır.

**Maddə 4. Sığorta məbləği və sığorta haqqı**

4.1. *İnzibati vəzifələrin (1)* təsnifatından asılı olaraq sığorta məbləğləri şərti maliyyə vahidinin aşağıdakı mislilərində müəyyən olunur:

4.1.1. birinci təsnifat - 6 000 misli;

4.1.2. ikinci və üçüncü təsnifat - 4 700 misli;

4.1.3. dördüncü, beşinci və altıncı təsnifat - 3 400 misli;

4.1.4. yeddinci, səkkizinci və doqquzuncu təsnifat - 1 800 misli;

4.1.5. *çıxarılıb (1);*

4.1.6. yardımçı vəzifələr - 1000 misli.

4.2. Sığorta haqqı hər il üçün sığorta məbləğinin 0,3 faizi miqdarında. müəyyən edilir.

**Maddə 5. Sığorta hadisələri və ödənişləri**

5.1. Sığorta olunanın fərdi qəza nəticəsində həlak olması və sağlamlığına zərər vurulması (əlillik və (və ya) xəsarət alması) sığorta hadisələri hesab edilir.

5.2. Sığorta hadisəsi baş verdikdə sığorta olunana bu Qanunun 4.1-ci maddəsində müəyyən edilmiş sığorta məbləğlərindən faizlə aşağıdakı sığorta ödənişləri verilir:

5.2:1. həlak olması - 100 faiz;

5.2.2. aldığı xəsarət nəticəsində əlillik qrupu təyin olunması:

- 1 qrup - 80 faiz
- II qrup - 60 faiz
- III qrup - 40 faiz.

5.2.3. əlillik qrupu təyin olunmadan ağır xəsarət alması - 20 faiz;

5.2.4. yüngül xəsarət alması - 5 faiz.

5.3. Sığorta olunan işdən çıxdıqda və ya başqa işə keçdikdə əvvəlki dövlət qulluğunda olarkən aldığı xəsarət nəticəsində 3 il ərzində vəfat et-dikdə və ya sağlamlığına zərər vurulduqda ona bu Qanunun 5.2-ci maddəsinə uyğun olaraq sığorta ödənişi verilir.

**Maddə 6. Sığortanın aparılması qaydası**

6.1. Dövlət qulluqçularının icbari sığortası sığorta etdirənlər (dövlət hakimiyyəti orqanları) üçün bu məqsədlə hər il dövlət büdcəsində nəzər-də tutulmuş vəsait hesabına aparılır.

6.2. Sığorta etdirənlər növbəti ildə bu Qanunun 4.1-ci maddəsinə uyğun olaraq sığorta olunması nəzərdə tutulan dövlət qulluqçularının siyahısını tərtib edir və cari ilin sonunadək sığortaçıya təqdim edirlər.

6.3. Sığorta etdirənlər dövlət qulluqçularının icbari sığortasını təmin etmək üçün onlara bu məqsədlə dövlət büdcəsindən ayrılan vəsaitdən tələb olunan sığorta haqlarının məbləğini hər il rüblər üzrə sığortaçıya ödəyirlər.

6.4. Sığorta haqlarının məbləği hər ilin əvvəlində dövlət qulluqçularının müəyyən olunmuş sayına, vəzifələrin təsnifatına uyğun olaraq hesablanır.

6.5. Sığortaçı hər rüb sığorta etdirənlərə əvvəlki rübün icrasına dair hesabat təqdim edir.

6.6. Sığorta ödənişi verilmiş bir sığorta hadisəsinin nəticəsi olan əlillik qrupu, yaxud daha ağır əlillik qrupu təyin olunduqda və ya ölüm baş verdikdə, sığorta ödənişi verilərkən əvvəl ödənilmiş məbləğ çıxılır.

6.7. İcbari sığorta haqqında müqavilə sığortaçı və sığorta etdirən arasında bağlanır.

**Maddə 7. Sığorta ödənişinin verilməsi müddəti**

Sığortaçı bu Qanunda nəzərdə tutulmuş şərtlərlə və məbləğdə sığorta olunana və ya onun vərəsələrinə sığorta ödənişini müvafiq sənədləri aldığı gündən 7 təqvim günü ərzində verir.

**Maddə 8. Hüquq və vəzifələr**

8.1. Sığortaçının və sığorta olunanın qarşılıqlı hüquq və vəzifələri sığorta qanunvericiliyinə uyğun olaraq müqavilədə müəyyən edilir.

8.2. Sığortaçı müqavilədə nəzərdə tutulmuş sığorta haqlarının məbləğini aldığı gündən bu Qanuna və müqaviləyə uyğun olaraq sığorta olunana sığorta ödənişini vermək öhdəliyini götürür.

8.3. Sığorta hadisəsi baş verdikdə sığorta olunan (və ya vərəsəsi) bu barədə sığortaçını xəbərdar etməlidir.

8.4. Sığorta olunanın və ya onun vərəsələrinin sığorta ödənişini alması üçün sığorta hadisəsinin baş verdiyi gündən 3 il keçənədək sığortaçıya və ya müvafiq dövlət hakimiyyəti orqanına müraciət etmək hüququ vardır.

**Maddə 9 Sığorta ödənişlərinin alınması üçün tələb olunan sənədlər**

9.1. Sığorta ödənişlərinin alınması üçün sığorta olunan, yaxud onun vərəsələri müəyyən olunmuş formada ərizə, şəxsiyyətini təsdiq edən sənəd və sığorta olunanın qulluq etdiyi və ya əvvəl qulluq etdiyi dövlət hakimiyyəti orqanında tutduğu vəzifə barədə arayışla birlikdə sığortaçıya aşağıdakı sənədləri təqdim edir:

9.1.1. həlak olması halında:

- sığorta olunanın ölümü haqqında şəhadətnamənin surəti;
- vərəsəlik hüququ haqqında şəhadətnamənin notariat qaydasında təsdiq olunmuş surəti;

9.1.2. əlillik halında - əlilliyin təyin edilməsi haqqında (əlilliyin qrupu, səbəbi və təyin edilməsi tarixini göstərməklə) tibbi-sosial ekspert komissiyasının arayışının notariat qaydasında təsdiq edilmiş surəti;

9.1.3. xəsarət alma halında - ağır və ya yüngül xəsarətin alınması barədə tibbi arayış.

9.2. Ağır və yüngül xəsarət növlərinin siyahısını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

**Maddə 10. Sığorta Ödənişinin verilməsindən imtina**

10.0. Sığorta olunana və ya onun vərəsələrinə sığorta ödənişinin verilməsindən aşağıdakı hallarda imtina edilir:

10.0.1. sığorta olunanın alkoqol, narkotik və toksiki maddələrdən istifadə etməsi nəticəsində sığorta hadisəsi baş verdiyi halda;

10.0.2. sığorta olunan özünə qəsd etdikdə və həmin hal məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə təsdiq olunduqda;

10.0.3. sığorta olunanın sığorta hadisəsi ilə birbaşa bağlı olan qəsdən cinayət törətdiyi barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü olduqda.

**Maddə 11. Sığorta ehtiyatları**

Sığortaçı daxil olmuş sığorta haqlarından işlərin aparılması xərclərinə 10 taizi ayırmaqla qanunvericiliklə müəyyən edilmiş qaydada sığorta ehtiyatlarını yaradır.

**Maddə 12. Nəzarət və məsuliyyət**

12.1. Dövlət qulluqçularının icbari sığortasının vaxtında və düzgün aparılmasına sığorta etdirənlər və sığortaçılar nəzarət edirlər.

12.2. Bu Qanunun müddəalarının pozulmasına görə sığorta etdirənlərin, sığortaçının, onların bölmələrinin rəhbərləri və digər vəzifəli şəxsləri Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

**Maddə 13. Mübahisələrə baxılma qaydası**

Dövlət qulluqçularının icbari sığortası ilə əlaqədar mübahisələrə məhkəmə qaydasında baxılır.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezident**

Bakı şəhəri, 30 aprel 2002-ci il
№ 318-IIQ

**Dərci:** 4 iyun 2002-ci il.

# Dövlət qulluqçusu üçün hakimiyyət səlahiyyətinin icrasına görə əlavə haqqın təyin edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

*Əlavə və dəyişiklik:*
*1. **4 noyabr 2002, a.m.t. 2.12.2003***

**Maddə 1. Qanunun məqsədi**

Bu Qanun dövlət qulluqçusu üçün hakimiyyət səlahiyyətinin icrasına görə əlavə haqq təyin edilməsi qaydasını müəyyən edir.

**Maddə 2. Hakimiyyət səlahiyyətinin verilməsi**

Hakimiyyət səlahiyyəti verilən dövlət qulluqçularının siyahısı *qanun-vericiliklə (1)* müəyyən edilir.

**Maddə 3. Hakimiyyət səlahiyyətinin icrasına görə əlavə haqqın məbləği**

Dövlət qulluqçusuna hakimiyyət səlahiyyəti vermək barədə qərar qəbul edildiyi vaxtdan müvafiq səlahiyyətin icrasına görə hər ay vəzifə maaşına *qanunvericiliklə (1)* müəyyən edilmiş məbləğdə əlavə haqq verilir.

**Maddə 4. Hakimiyyət səlahiyyətinin icrasına görə əlavə haqqın ödənilməsi mənbəyi**

Hakimiyyət səlahiyyətinin icrasına görə əlavə haqqın ödənilməsi hakimiyyət səlahiyyətinə malik olan dövlət qulluqçusunun işlədiyi müvafiq dövlət orqanı üçün dövlət büdcəsində nəzərdə tutulmuş əmək haqqı fondu həddində həyata keçirilir.

**Maddə 5. Qanunun qüvvəyə minməsi**

Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezident**

Bakı şəhəri, 31 may 2002-ci il
№ 334-IIQ

**Dərci:** 7 iyul 2002-ci il.

# Dövlət qulluqçularının vəzifə maaşlarına yerli əmsalların müəyyən edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

**Maddə 1. Qanunun məqsədi**

Bu Qanun Azərbaycan Respublikasının təbii-iqlim şəraiti nəzərə alın-maqla, dövlət qulluqçularının vəzifə maaşlarına yerli əmsalları müəyyən edir.

**Maddə 2. Yerli əmsalların müəyyən edilməsi**

Azərbaycan Respublikasına dəniz səviyyəsindən 1500 metrdən 2000 metrədək yüksəklikdəki yaşayış məntəqələrində fəaliyyət göstərən dövlət orqanlarında çalışan dövlət qulluqçularının aylıq vəzifə maaşlarına 1.2 həcmdə, bu yüksəklik 2000 metrdən artıq olduqda isə 1.3 həcmində yerli əmsal müəyyən edilir.

**Maddə 3. Yerli əmsalların tətbiqi**

Dəniz səviyyəsindən 1500 metrdən 2000 metrədək və 2000 metrdən artıq yüksəklikdə yerləşən yaşayış məntəqələrinin siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Yerli əmsallar dövlət qulluqçusunun həmin məntəqələrdə fəaliyyət göstərən dövlət orqanlarında faktiki işlədiyi dövr üçün tətbiq edilir.

**Maddə 4. Yerli əmsalların ödənilməsi mənbəyi**

Dövlət qulluqçularının vəzifə maaşlarına yerli əmsalların tətbiqi dövlət qulluqçusunun işlədiyi müvafiq dövlət orqanı üçün dövlət büdcəsində nəzərdə tutulmuş əmək haqqı fondu həddində həyata keçirilir.

**Maddə 5. Qanunun qüvvəyə minməsi**

Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezident**

Bakı şəhəri, 31 may 2002-ci il
№ 335-IIQ

**Dərci:** 7 iyul 2002-ci il

# "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. Azərbaycan Respublikasının Vergi Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, N 8, maddə 583; 2001-ci ! il, N 7, maddə 454, N 9, maddə 576, N 12, maddə 734; 2002-ci il, N 5, maddə 249; N 12, maddə 707; Azərbaycan Respublikasının 20 iyun 2003- cü il tarixli, 485 II-QD saylı Qanunu) 102.1.16-cı maddəsi aşağıdakı redaksiyada verilsin:

"102.1.16. Dövlət qulluqçusu pensiya yaşına çatmasına görə könüllü işdən çıxması ilə əlaqədar verilən birdəfəlik haqq.".

II. Azərbaycan Respublikasının 2002-ci il 29 mart tarixli 283-IIQ nömrəli qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında Əsasnamə"yə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, N 5, maddə 217) aşağıdakı məzmunda 2.1.10-cu maddə əlavə edilsin:

"2.1.10. dövlət qulluğunda vəzifə tutma ilə bağlı dövlət orqanının rəhbəri ilə dövlət qulluğunu idarəetmə orqanı arasında yaranmış fikir ayrılığının aradan qaldırılması qaydasının müəyyən edilməsi.".

III. "Dövlət qulluqçularının icbari sığortası haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, N 5, maddə 247) aşağıdakı dəyişikliklər edilsin:

1) 4. I-ci maddədə "Vəzifələrin" sözü "İnzibati vəzifələrin" sözləri ilə əvəz edilsin;

2) 4.1.5-ci maddə çıxarılsın.

IV. "Dövlət qulluqçusu üçün hakimiyyət səlahiyyətinin icrasına görə əlavə haqqın təyin edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, N 7, maddə 386) 2-ci və 3-cü maddələrində "qanunvericilik və müvafiq icra hakimiyyəti orqanı tərəfindən" sözləri "qanunvericiliklə" sözü ilə əvəz edilsin.

V. Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 4 noyabr 2003-cü il
№ 506-IIQD

**Dərci:** 2 dekabr 2003-cü il

# Azərbaycan Respublikasının "Vətənə xidmətə görə" ordeninin statutunun və təsvirinin təsdiq edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikasının "**Vətənə xidmətə görə**" ordeninin statunu və təsviri təsdiq edilsin (əlavə olunur).

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 7 noyabr 2003-cü il
№ 514-IIQD

**Dərci:** 3 dekabr 2003-cü il.

***Azərbaycan Respublikasının***
***2003-cü il 7 noyabr tarixli***
***Qanunu ilə təsdiq edilmişdir***

## Azərbaycan Respublikasının "Vətənə xidmətə görə" ordeninin statutu

1. Azərbaycan Respublikasının üç dərəcədə "Vətənə xidmətə ğörə" ordeni aşağıdakılara görə verilir:

Azərbaycan Respublikasına sadiqliyə görə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirməyə görə;

dövlət qulluğunda səmərəli fəaliyyətə, yüksək peşəkarlığa və xüsusi nailiyyətlərə görə;

milli dövlət quruculuğu işlərində xüsusi xidmətlərə görə.

2. "Vətənə xidmətə görə" ordeninin ən yüksək dərəcəsi birinci dərəcə sayılır.

"Vətənə xidmətə görə" ordeninin hər üç dərəcəsi ardıcıllıqla verilir."

3. "Vətənə xidmətə görə" ordeni döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər ordenləri olduqda, onlardan sonra taxılır.

***Azərbaycan Respublikasının***
***2003-cü il 7 noyabr tarixli***
***Qanunu ilə təsdiq edilmişdir***

## "Vətənə xidmətə görə" ordeninin təsviri

"Vətənə xidmətə görə" ordeni hər tərəfə şüalar saçan səkkizguşəli ulduz əsasında tərtib edilmiş kompozisiyadan ibarətdir.

Ulduzun ortasında mavi mina ilə örtülmüş dairəvi lövhə həkk edilmişdir. Lövhənin çökək mərkəzində Azərbaycan Respublikasının Dövlət Gerbi təsvir edilmişdir. Gerbin üst hissəsində dairənin yarımçevrəsi boyunca "Vətənə xidmətə görə" sözləri yazılmışdır. Bütün yazılar və təsvirlər qabarıqdır.

"Vətənə xidmətə görə" ordeninin üç dərəcəsi vardır: onun birinci dərəcəsi qızıldan, ikinci dərəcəsi gümüşdən, üçüncü dərəcəsi bürüncdəndir. Ordenin qabarit ölçüləri 32 mm x 38 mm-dir. Hər dərəcəsinin səthinin müvafiq rəng çaları vardır.

Ordenin arxa tərəfi hamar səthlidir, ortasında ordenin nömrəsi həkk olunmuşdur.

Orden paltara bərkidilmək üçün elementi olan 27 mm x 17.15 mm ölçüdə müvafiq olaraq qırmızı-qara, tünd göy-mavi və çəhrayı şabalıdı çalarlı beşbucaqlı xara lentə halqa və ilgək vasitəsilə birləşdirilir.

Ordenə paltara bərkidilmək üçün elementi olan, milli ornamentlə naxışlanan eyni xara lentdən hazırlanmış 27 mm x 9 mm ölçülü qəlib əlavə olunur.

# Azərbaycan Respublikasının "Dövlət qulluğunda fərqlənməyə görə" medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikasının "Dövlət qulluğunda fərqlənməyə görə" medalının Əsasnaməsi və təsviri təsdiq edilsin (əlavə olunur).

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 7 noyabr 2003-cü il
№ 515-IIQ

**Dərci:** 3 dekabr 2003-cü iL

***Azərbaycan Respublikasının***
***2003-cü il 7 noyabr tarixli***
***Qanunu ilə təsdiq edilmişdir***

## Azərbaycan Respublikasının "Dövlət qulluğunda fərqlənməyə görə" medalının ƏSASNAMƏSİ

1. Azərbaycan Respublikasının "Dövlət qulluğunda fərqlənməyə görə" medalı dövlət qulluqçularına aşağıdakılara görə verilir:

milli dövlət quruculuğu sahəsinə aid mühüm layihələrin hazırlanmasında və onların həyata keçirilməsində fəal iştiraka görə;

dövlət orqanlarında vicdanlı fəaliyyətə və xüsusi xidmətlərə görə.

2. "Dövlət qulluğunda fərqlənməyə görə" medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda, onlardan sonra taxılır.

***Azərbaycan Respublikasının***
***2003-cü il 7 noyabr tarixli***
***Qanunu ilə təsdiq edilmişdir***

## "Dövlət qulluğunda fərqlənməyə görə" medalının təsviri

"Dövlət qulluğunda fərqlənməyə görə" medalı bürüncdəndir, milli ornamentlərlə naxışlanmış lövhə şəklində tərtib edilmişdir. Diametri 35 mm olan lövhənin mərkəzində Azərbaycan Respublikasının Dövlət Gerbi təsvir edilmişdir. Gerbin ətrafı boyunca paylanan şüaların üstündə "Dövlət qulluğunda fərqlənməyə görə" sözləri yazılmışdır. Bütün yazılar və təsvirlər qabarıqdır.

Medalın arxa tərəfi hamar səthlidir, ortasında medalın nömrəsi həkk olunmuşdur.

Medal paltara bərkidilmək üçün elementi olan 27 mm x 43 mm ölçüdə sarımtıl çəhrayı çalarlı beşbucaqlı xara lenti halqa və ilgək vasitəsilə birləşdirilir. Medala paltara bərkidilmək üçün elementi olan, milli ornamentlə naxışlanan eyni xara lentdən hazırlanmış 27 mm x 9 mm ölçülü qəlib əlavə olunur.

# Qulluq şəraiti həyat və sağlamlıq üçün təhlükəli olan, yaxud xüsusilə ağır olan dövlət orqanlarında dövlət qulluqçularının vəzifə maaşları üçün artıq əmsalın müəyyən edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən qulluq şəraiti həyat və sağlamlıq üçün təhlükəli, yaxud xüsusilə ağır olan dövlət orqanlarında vəzifə maaşları üçün artıq əmsalın müəyyən edilməsi və təyin edilməsinin ümumi qaydalarını tənzimləyir.

**Maddə 1.** Qulluq şəraiti həyat və sağlamlıq üçün təhlükəli olan, yaxud xüsusilə ağır olan dövlət orqanlarında vəzifə maaşları üçün artıq əmsalın müəyyən edilməsi haqqında qanunvericilik

Qulluq şəraiti həyat və sağlamlıq üçün təhlükəli olan, yaxud xüsusilə ağır olan dövlət orqanlarında vəzifə maaşları üçün artıq əmsalın müəyyən edilməsi bu Qanunla, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu və digər normativ hüquqi aktları ilə tənzimlənir.

**Maddə 2.** Qulluq şəraiti həyat və sağlamlıq üçün təhlükəli olan, yaxud xüsusilə ağır olan dövlət orqanlarında vəzifə maaşları üçün artıq əmsalın təyin edilməsi üçün əsas

Qulluq şəraiti həyat və sağlamlıq üçün təhlükəli olan, yaxud xüsusilə ağır olan dövlət orqanlarında dövlət qulluqçularının vəzifə maaşları üçün artıq əmsal qulluq şəraiti həyat və sağlamlıq üçün təhlükəli olan, yaxud xüsusilə ağır olan dövlət orqanlarının və müvafiq dövlət qulluğu vəzifələrinin siyahısı əsasında təyin edilir.

Qulluq şəraiti həyat və sağlamlıq üçün təhlükəli olan, yaxud xüsusilə ağır olan dövlət orqanlarının və müvafiq dövlət qulluğu vəzifələrinin siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

**Maddə 3.** Qulluq şəraiti həyat və sağlamlıq üçün təhlükəli olan, yaxud xüsusilə ağır olan dövlət orqanlarında vəzifə maaşları üçün artıq əmsalın müəyyən edilməsi qaydası və məbləği

Qulluq şəraiti həyat və sağlamlıq üçün təhlükəli olan, yaxud xüsusilə ağır olan dövlət orqanlarında dövlət qulluqçularının vəzifə maaşları üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş artıq əmsal tətbiq olunur. Bu artıq əmsala uyğun vəzifə maaşına artım hər ay dövlət məvacibi ilə birlikdə ödənilir və dövlət qulluqçularının orta dövlət məvacibi hesablanarkən nəzərə alınır.

Qulluq şəraiti həyat və sağlamlıq üçün təhlükəli olan, yaxud xüsusilə ağır olan dövlət orqanlarında vəzifə maaşları üçün artıq əmsal dövlət qulluqçusunun müvafiq vəzifəyə təyin edildiyi gündən tətbiq edilir.

Qulluq şəraiti həyat və sağlamlıq üçün təhlükəli olan, yaxud xüsusilə ağır olan dövlət orqanlarında dövlət qulluqçusunu müvəqqəti əvəz edən şəxsin vəzifə maaşına əvəz etdiyi dövr üçün əvəz edilənin vəzifə maaşına uyğun artıq əmsal təyin edilir.

**Maddə 4.** Qanunun qüvvəyə minməsi

Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 5 dekabr 2003-cü il
№ 537-IIQ

# Dövlət qulluqçularının pensiya təminatı haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

*Əlavə və dəyişikliklər:*

*1.* ***28 iyun 2005, d.t. 20.07.2005, q.m.t. 01.09.2005***

Bu qanun dövlət qulluqçularının pensiya təminatının əsaslarım və qaydasını tənzimləyir.

**Maddə 1. Dövlət qulluqçularının pensiya təminatı haqqında Azərbaycan Respublikasının qanunvericiliyi**

Dövlət qulluqçularının pensiya təminatı haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, "Dövlət qulluğu haqqında", "Vətəndaşların pensiya təminatı haqqında" Azərbaycan Respublikasının qanunlarından, prokurorluq, ədliyyə, milli təhlükəsizlik, sərhəd xidməti, daxili işlər, gömrük, vergi, xarici işlər, feldyeger rabitəsi orqanlarında və Azərbaycan Respublikasının Milli Bankında dövlət qulluğunda çalışan şəxslərin dövlət qulluğu keçməsi haqqında müvafiq qanunlardan, bu qanundan və digər normativ-hüquqi aktlardan ibarətdir.

**Maddə 2. Dövlət pensiyası almaq** hüququ **olan şəxslər** 2.1. Bu qanunda nəzərdə tutulmuş şərtlərə əməl olunmaqla aşağıdakı şəxslərin dövlət pensiyası (bundan sonra pensiya) almaq hüququ vardır:

2.1.1. *Çıxarılıb (1);*

2.1.2. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq inzibati və yardımçı vəzifələr tutan Azərbaycan Respublikasının vətəndaşları;

2.1.3. Dövlət qulluqçusu, yaxud pensiyaçı öldükdən sonra onun dul - arvadı (əri), anası (atası), ölənin himayəsində olmuş və 22 yaşına çatmamış işləməyən qızı (oğlu).

2.2. Bu qanun Azərbaycan Respublikasının baş naziri və onun müavinləri, Naxçıvan Muxtar Respublikasının baş naziri və onun müavinləri, Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanının rəhbəri və onun müavinləri, Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanının rəhbəri, yerli icra hakimiyyəti orqanının rəhbəri (başçısı) vəzifələrini tutan şəxslərə də şamil olunur.

2.3. Azərbaycan Respublikasının vətəndaşlığından çıxması və ya dövlət qulluqçusu andını pozması ilə əlaqədar işdən azad edilmiş dövlət qulluqçularına və onların ailə üzvlərinə bu qanunla pensiya təyin olunmur.

**Maddə 3. Pensiya seçmək hüququ**

3.1. "Vətəndaşların pensiya təminatı haqqında", "Hərbi qulluqçuların pensiya təminatı haqqında" Azərbaycan Respublikasının qanunları, prokurorluq, ədliyyə, milli təhlükəsizlik, sərhəd xidməti, daxili işlər, gömrük, vergi, xarici işlər, feldyeger rabitəsi orqan-larında və Azərbaycan Respublikasının Milli Bankında dövlət qulluğunda çalışan şəxslərin dövlət qulluğu keçməsi haqqında müvafiq qanunlar və bu qanun ilə müəyyən edilmiş pensiyaları almaq hüququna malik olan dövlət qulluqçularına öz arzulan ilə bir pensiya təyin edilir.

3.2. Dövlət qulluqçuları bu qanunla müəyyən edilmiş pensiya ilə yanaşı, könüllü (əlavə) sosial sığorta hesabına digər pensiyalar almaq hüququna malikdirlər.

**Maddə 4. Pensiya ödənilməsinin maliyyə mənbələri** Bu qanuna əsasən təyin edilmiş pensiya məcburi dövlət sosial sığorta ayırmaları hesabına ödənilir.

**Maddə 5. Pensiyanın təyin olunması şərtləri**

*5.1 Bu qanunun 2.3-cü maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla pensiya təyin edilməsi üçün müraciət etdiyi zaman dövlət qulluğunda olmayan və dövlət qulluğunda azı 5 il çalışmış əsasən qulluqçusunun müvafiq qanunvericiliyə dövlət pensiya yaşına çatdıqda və ya əlil olduqda bu qanunla pensiya almaq hüququ vardır.* (1)

5.2. Pensiya almaq üçün dövlət qulluqçusunun qulluq stajına aşağıdakılar daxil edilir:

5.2.1. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə mindikdən sonra dövlət qulluğu vəzifəsində qulluq stajı;

5.2.2. 1991-ci il oktyabrın 18-dən "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə mindiyi günədək qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarında iş stajı;

5.2.3. 1991-ci il oktyabrın 18-dək dövlət, sovet və partiya orqanlarında iş müddəti.

5.3. Dövlət qulluqçusunun qulluq stajı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada hesablanır.

5.4. Müvafiq qanunvericiliyə uyğun olaraq pensiya yaşına çatmasına və ya əlilliyinə görə işdən çıxmış və dövlət qulluğunda xidmət illərinin minimum həddinə malik olmayan dövlət qulluqçusunun müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş miqdarda və qaydada müavinət almaq hüququ vardır.

**Maddə 6. Pensiyanın miqdarı**

*6.1. Pensiya dövlət qulluğunda, habelə 1991-ci il oktyabrın 18-dək dövlət, sovet və partiya orqanlarında xidmət ilhrindən asılı olaraq aşağıdakı miqdarda təyin edilir (1).*

*6.1.1. dövlət qulluğu vəzifəsində azı 5 il qulluq stajı olan şəxsə onun dövlət məvacibinin 45 faizi miqdarında; (1)*

*6.1.2. dövlət qulluğu vəzifəsində 5 ildən 10 ilə qədər qulluq stajı olan şəxsə dövlət məvacibinin 45 faizi miqdarında, 5 ildən yuxarı qulluq stajının hər ili üçün dövlət məvacibinin 2 faizi miqdarın-da əlavə olunmaqla; (1)*

*6.1.3. dövlət qulluğu vəzifəsində 10 ildən 15 ilə qədər qulluq stajı olan şəxsə dövlət məvacibinin 55 faizi miqdarında, 10 ildən yuxarı qulluq stajının hər ili üçün dövlət məvacibinin 5 faizi miqdarın-da əlavə olunmaqla, lakin dövlət məvacibinin 80 faizi miqdarından çox olmamaqla.* (1)

6.2. Bu qanunun 2.1.3-cü maddəsində nəzərdə tutulmuş ailə üzvlərinin sayından asılı olmayaraq onlara pensiya aşağıdakı miqdarda təyin edilir:

6.2.1. vəfat etmiş dövlət qulluqçusunun qulluq stajına görə al-malı olduğu pensiyanın 80 faizi miqdarında;

6.2.2. vəfat etmiş pensiyaçının pensiyasının 80 faizi miqdarında.

6.3. Bu qanunun 6.2-ci maddəsində nəzərdə tutulan pensiyanın məbləği dövlət qulluqçusunun, yaxud pensiyaçının bu qanunun 2.1.3-cü maddəsində nəzərdə tutulmuş ailə üzvləri arasında müvafiq qanunvericiliyə uyğun olaraq bərabər bölünür.

**Maddə 7. Pensiyanın hesablanması üçün nəzərə alınan dövlət məvacibi**

7.1. Pensiya almaq üçün müraciət edənin arzusuna əsasən dövlət məvacibi onun müraciət etdiyi gündən əvvəlki dövlət qulluğunun 24 ayı və ya ardıcıl gələn istənilən 60 ayı ərzində aldığı dövlət məvacibindən, dövlət məvacibindəki sonrakı artırmalar da nə-zərə alınmaqla hesablanır.

7.2. Pensiyanın təyin edilməsi üçün dövlət məvacibinin hesablanması qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Maddə 8. Pensiyanın təyin edilməsi qaydası**

8.1. Bu qanunla müəyyən edilən pensiya şəxsin yaşayış yeri üzrə müvafiq icra hakimiyyəti orqanı tərəfindən təyin olunur.

8.2. Pensiya almaq hüququ olan şəxs müddət məhdudiyyəti olmadan istənilən vaxt pensiyanın təyin edilməsi üçün müvafiq icra hakimiyyəti orqanına müraciət edə bilər.

8.3. Pensiya təyin edən orqan təqdim edilmiş sənədlərə onların daxil olduğu vaxtdan ən geci 10 iş günü müddətində baxır.

**Maddə 9. Pensiyanın təyin edilməsi müddətləri**

9.1. Pensiya müraciət olunan gündən ömürlük təyin edilir.

9.2. Pensiya bu qanunla nəzərdə tutulmuş və onun ödənişinin dayandırılmasına səbəb olan halların yarandığı günədək ödənilir.

**Maddə 10. Pensiya ödənişinin dayandırılmasına səbəb olan hallar**

10.0. Bu qanuna əsasən teyin edilmiş pensiyanın ödənişi aşağıdakı halların yarandığı gündən dayandırılır:

10.0.1. pensiyaçı vəfat etdikdə;

10.0.2. pensiyaçı Azərbaycan Respublikası vətəndaşlığından çıxdıqda;

10.0.3. dövlət qulluğunda xidmət müddətində;

10.0.4. dövlət qulluqçusu, yaxud pensiyaçı öldükdən sonra onun bu qanunun 2.1.3-cü maddəsində nəzərdə tutulan ailə üzvü vəfat etdikdə;

10.0.5. dövlət qulluqçusunun, yaxud pensiyaçının dul arvadı (əri) yeni nikah bağladıqda;

10.0.6. dövlət qulluqçusunun, yaxud pensiyaçının qızı (oğlu) 22 yaşına çatanadək işləməyə başladıqda.

**Maddə 11. Pensiya ödənişinin dayandırılmasına səbəb olan hallar barəsində məlumat vermək vəzifəsi**

Pensiya alan şəxs pensiya ödənişinin dayandırılmasına səbəb olan hallar barəsində 15 gün müddətində müvafiq icra hakimiyyəti orqanına məlumat verməyə borcludur.

**Maddə 12. Pensiyanın yenidən hesablanması**

12.1. Dövlət qulluqçusunun pensiyasının məbləği fəaliyyətdə olan dövlət qulluqçusunun dövlət məvacibinin məbləğində olan sonrakı artımlara uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən qaydada yenidən hesablanır.

12.2. Dövlət qulluqçusunun, yaxud pensiyaçının bu qanunun 2.1.3-cü maddəsində nəzərdə tutulmuş ailə üzvlərinə təyin edilmiş pensiya aşağıdakı hallarda yenidən hesablanır:

12.2.1. dövlət qulluqçusu, yaxud pensiyaçı öldükdən sonra onun uşağı doğulduqda;

12.2.2. bu qanunun 10.0.4-cü, 10.0.5-ci və 10.0.6-cı maddələrin-də nəzərdə tutulmuş hallarda.

**Maddə 13. Artıq ödənilmiş pensiya məbləğinin tutulması**

13.1. Pensiya alan şəxsə artıq ödənilmiş pensiyanın məbləği (qəsdən düzgün olmayan məlumat əks etdirən sənəd təqdim etməsi və müvafiq qanunvericilikdə nəzərdə tutulmuş digər hallarda) müvafiq icra hakimiyyəti orqanının qərarı ilə həmin şəxsdən tutulur.

13.2. Artıq ödənilmiş pensiya məbləğinin tutulması məqsədi ilə hər dəfə pensiya ödənilərkən tutulan bütün məbləğlərin ümumi miqdarı verilməli olan pensiyanın 20 faizindən, müvafiq qanunvericilikdə nəzərdə tutulmuş hallarda isə 50 faizindən çox ola bilməz.

**Maddə 14. Şəxs vəfat etdikdə alınmamış pensiyanın ödənil-məsi və dəfn xərcinin verilməsi**

14.1. Pensiyaçının vəfatı ilə əlaqədar alınmamış pensiyanın məbləği ailə üzvlərinə ödənilir.

14.2. Pensiyaçı vəfat etdikdə təyin olunmuş pensiyanın 6 aylıq məbləğində dəfn xərci onun ailəsinə ödənilir.

14.3. Pensiyaçını ailə üzvlərinə aid olmayan şəxslər dəfn etdikdə dəfn xərci həmin şəxslərə ödənilir.

**Maddə 153. Xaricə köçmüş şəxslərə pensiyanın ödənilməsi**

Azərbaycan Respublikası vətəndaşının xaricdə olduğu müddət-də pensiyası öz arzusu ilə Azərbaycan Respublikasının müvafiq bankındakı şəxsi hesabına və ya yaşadığı dövlətdəki müvafiq bank hesabına köçürülür. Bu halda xidmət haqqı pensiyanın məbləğin-dən tutulur.

**Maddə 16. Qanunun qüvvəyə minməsi**

Bu qanun 2005-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 7 noyabr 2003-cü il
№ 515-IIQ

**Dərci:** 20 iyul 2004-cü il

# "Dövlət qulluqçularının pensiya təminatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, N 1, maddə 1, N 3, maddə 131; 2002-ci il, N 12, maddə 693; 2003-cü il, N 1, maddə 16; 2004-cü il, N 1, maddə 10, N 4, maddə 199, N 5, maddə 321, N 8, maddə 597, N 11, maddə 884) aşağıdakı dəyişikliklər edilsin:

1. 22.7-ci maddədə "hər iki ildən bir" sözləri "qanunvericilikdə müəyyən edilmiş qaydada" sözləri ilə əvəz edilsin;

2. 23.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

"23.4. Dövlət qulluqçusunun pensiyasının və müavinətinin məbləği fəaliyyətdə olan dövlət qulluqçusunun dövlət məvacibinin məbləğində olan sonrakı artımlara uyğun olaraq, müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən qaydada yenidən hesablanır".

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 15 aprel 2005-ci il
№ 886-IIQD

# Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası yanında Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya haqqında Əsasnamənin təsdiq edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası yanında Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

2. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 may 2005-ci il
№ 906-IIQ

***Azərbaycan Respublikasının***
***2005-ci il 3 may tarixli,***
***906-IIQ nömrəli Qanunu ilə təsdiq edilmişdir***

## Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası yanında Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya haqqında ƏSASNAMƏ

**I. Ümumi müddəalar**

1. Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası yanında Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya (bundan sonra "Komissiya" adlanacaq) "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 4.2-ci maddəsinə uyğun olaraq yaradılmışdır və korrupsiyanın qarşısının alınması sahəsində ixtisaslaşmış orqan funksiyalarını həyata keçirir.

2. Komissiya öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını və digər normativ hüquqi aktlarını, habelə bu Əsasnaməni rəhbər tutur.

3. Komissiya 15 nəfər üzvdən ibarət tərkibdə təşkil edilir və fəaliyyət göstərir. Komissiyanın 5 üzvü Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun olaraq, 5 üzvü Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən, 5 üzvü isə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən təyin edilir.

4. Komissiya öz fəaliyyətini qanunvericilik, icra və məhkəmə hakimiyyətləri ilə qarşılıqlı əlaqədə qurur və korrupsiyaya qarşı mübarizənin vəziyyəti barədə mütəmadi olaraq onları məlumatlandırır.

**II. Komissiyanın əsas vəzifələri**

5. Komissiyanın həyata keçirdiyi əsas vəzifələr aşağıdakılardır:

5.1. korrupsiyaya qarşı mübarizə sahəsində dövlət siyasətinin formalaşdırılmasında iştirak etmək, bu sahədə dövlət orqanlarının və digər qurumların fəaliyyətini əlaqələndirmək;

5.2. korrupsiyaya qarşı mübarizənin vəziyyətini və səmərəliliyini təhlil etmək;

5.3. Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramının icrasına nəzarəti həyata keçirmək;

5.4. "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsində nəzərdə tutulan maliyyə xarakterli məlumatları qəbul etmək;

5.5. "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsində nəzərdə tutulan maliyyə xarakterli məlumatların təqdim edilməsinə nəzarəti həyata keçirmək;

5.6. korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumatları toplamaq, təhlil etmək, ümumiləşdirmək və müvafiq dövlət orqanlarına təkliflər vermək;

5.7. korrupsiyaya qarşı mübarizə sahəsində dövlət orqanları və digər qurumlarla əməkdaşlıq etmək.

6. Komissiya qanunvericiliyə müvafiq olaraq digər vəzifələri yerinə yetirir.

**III. Komissiyanın əsas hüquqları**

7. Öz vəzifələrini yerinə yetirmək məqsədi ilə Komissiya aşağıdakı hüquqları həyata keçirir:

7.1. korrupsiyaya qarşı mübarizə haqqında qanunvericiliyin icra vəziyyətini öyrənir və ümumiləşdirir, bu barədə hüquq mühafizə və digər dövlət orqanlarının rəhbərlərinin məlumatlarını və hesabatlarını dinləyir;

7.2. dövlət və yerli özünüidarə orqanlarından zəruri məlumatları və materialları alır;

7.3. Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsi barədə müvafiq dövlət orqanlarından məlumatları alır və görülən işlərin vəziyyətini təhlil edir;

7.4. korrupsiyaya qarşı mübarizənin səmərəliliyinin artırılması, həmçinin korrupsiyaya qarşı mübarizə sahəsində müəyyən edilmiş nöqsanların aradan qaldırılması üçün təklif və tövsiyələr hazırlayır, onların həyata keçirilməsi üçün tədbirlər görür;

7.5. korrupsiya ilə bağlı ictimai rəyin öyrənilməsi və korrupsiyaya qarşı mübarizə sahəsində maarifləndirmənin həyata keçirilməsi üçün tədbirlər görür;

7.6. qeyri-hökumət təşkilatları, kütləvi informasiya vasitələri və özəl sektorun nümayəndələri, müstəqil ekspertlər ilə əməkdaşlıq edir və zərurət olduqda, onları müəyyən işlərin görülməsinə cəlb edir;

7.7. korrupsiyaya qarşı mübarizənin təşkili və səmərəliliyinin artırılması üçün beynəlxalq əməkdaşlığın həyata keçirilməsində iştirak edir;

7.8. daxil olmuş materiallarda korrupsiya ilə əlaqədar hüquqpozmaların əlamətləri olduqda, həmin materialları yoxlanılması üçün müvafiq orqanlara göndərir;

7.9. korrupsiyaya qarşı mübarizə haqqında qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı təkliflər verir.

8. Komissiya qanunvericiliyə müvafiq olaraq digər hüquqları həyata keçirir.

**IV. Komissiyanın fəaliyyətinin təşkili**

9. Komissiyanın fəaliyyətinə rəhbərliyi və işinin təşkilini Komissiyanın sədri həyata keçirir. Komissiyanın sədri onun tərkibindən Komissiya üzvlərinin sadə səs çoxluğu ilə seçilir.

10. Komissiyanın səlahiyyətlərinə aid edilmiş məsələlərə onun iclaslarında baxılır. Komissiyanın iclasları mütəmadi olaraq, lakin üç ayda bir dəfədən az olmayaraq keçirilir. Zərurət olduqda, bu Əsasnamənin 13-cü maddəsində nəzərdə tutulmuş Reqlamentlə müəyyən edilmiş qaydada Komissiyanın növbədənkənar iclasları çağırıla bilər. Komissiyanın iclasları onun üzvlərinin üçdə ikisi iştirak etdikdə səlahiyyətlidir. Komissiyanın qərarları iclasda iştirak edən Komissiya üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Qərar qəbul edilərkən səslər bərabər olduqda, Komissiyanın sədri həlledici səsə malikdir. Səsvermə zamanı xüsusi rəyi olan Komissiyanın üzvü öz rəyini qəbul edilmiş qərara əlavə edə bilər.

11. Komissiyanın iclaslarına digər şəxslər də dəvət oluna bilərlər.

12. Komissiyanın üzvləri fəaliyyətlərində müstəqildirlər.

13. Komissiya özünün Reqlamentini təsdiq edir.

14. Komissiya Azərbaycan Respublikasının dövlət gerbi əks olunmuş xidməti blanka malikdir.

15. Komissiyanın nəzdində daimi fəaliyyət göstərən Katiblik yaradılır. Katibliyin rəhbəri və üzvləri Komissiya tərəfindən müəyyən edilir. Katiblik Komissiyanın iclaslarının keçirilməsi ilə bağlı təşkilati məsələlərin həll edilməsi, Komissiyanın müzakirəsinə çıxarılacaq məsələlər üzrə sənədlərin hazırlanması, kargüzarlıq və digər işlərin aparılması üzrə fəaliyyəti həyata keçirir.

16. Katiblik dövlət orqanıdır və Katibliyin işçiləri dövlət qulluqçularıdır.

17. Katibliyin fəaliyyəti dövlət büdcəsi hesabına maliyyələşdirilir.

18. Katibliyin səlahiyyətləri Komissiya tərəfindən müəyyən edilir.

19. Komissiya fəaliyyəti haqqında illik məruzə tərtib edir və onu Azərbaycan Respublikasının Prezidentinə, Azərbaycan Respublikası Milli Məclisinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinə təqdim edir.

# "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişiklik və əlavələr edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının qanunvericilik Toplusu, 2001-ci il, № 1, maddə 1, № 3, maddə 131; 2002-ci il, № 12, maddə 693; 2003-cü il, № 1, maddə 16, 2004-cü il, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; Azərbaycan Respublikasının 2005-ci il 15 aprel 886-IIQD nömrəli qanunu) aşağıdakı dəyişikliklər və əlavələr edilsin:

1. 2.4-cü maddədə "Bu Qanun" sözləri "Bu Qanunda başqa hal nəzərdə tutulmayıbsa, bu Qanun" sözləri ilə əvəz edilsin;

2. 10.4-cü maddədə "və" sözündən sonra "bu Qanunda başqa hal nəzərdə tutulmayıbsa," sözləri əlavə edilsin.

3. 22.7-ci maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Bu maddə Azərbaycan Respublikasının Baş naziri və onun müavinləri, Naxçıvan Muxtar Respublikasının Baş naziri və onun müavinləri, Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanının rəhbəri və onun müavinləri, Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanının rəhbəri və onun müavinləri, yerli icra hakimiyyəti orqanının rəhbəri (başçısı) vəzifələrini tutan şəxslərə də şamil olunur.".

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 10 may 2005-ci il.
№ 914-IIQD

# "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar "dövlət qulluqçularının pensiya təminatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. "Dövlət qulluqçularının pensiya təminatı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, N 7, maddə 511; 2005-ci il, N 7, maddələr 574, 589) 2.3-cü maddəsindən "və ya dövlət qulluqçusu andını pozması" sözləri çıxarılsın.

2. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 23 dekabr 2005-ci il.
№ 30-IIIQD

# Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarında dəyişikliklər edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikasının 2002-ci il 29 mart tarixli 283-İİQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında Əsasnamə"nin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 5, maddə 217, 2003-cü il, № 12, I kitab, maddə 671) 2.1.10-cu maddəsində "dövlət qulluğunu idarəetmə orqanı" sözləri "müvafiq icra hakimiyyəti orqanı" sözləri ilə əvəz edilsin.

II. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 1, maddə 1, № 3, maddə 131; 2002-ci il, № 12, maddə 693; 2003-cü il, № 1, maddə 16, 2004-cü il, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005-ci il, № 6, maddələr 463, 475) aşağıdakı dəyişikliklər edilsin:

1. 25.4-cü və 31.22-ci maddələrdə "yuxarı dövlət qulluğunu idarəetmə orqanına" sözləri "müvafiq icra hakimiyyəti orqanına" sözləri ilə əvəz edilsin.

2. 28.2-ci maddədə "müvafiq dövlət qulluğunu idarəetmə orqanı" sözləri "müvafiq icra hakimiyyəti orqanı" sözləri ilə, 28.3-cü maddədə "müvafiq dövlət qulluğunu idarəetmə orqanına" sözləri "müvafiq icra hakimiyyəti orqanına" sözləri ilə, 29.2-ci maddənin birinci cümləsində "müvafiq dövlət qulluğunu idarəetmə orqanının" sözləri "müvafiq icra hakimiyyəti orqanının" sözləri ilə, 29.4-cü maddənin birinci cümləsində "Müvafiq dövlət qulluğunu idarəetmə orqanı" sözləri "Müvafiq icra hakimiyyəti orqanı" sözləri ilə, üçüncü cümləsində "dövlət qulluğunu idarəetmə orqanının" sözləri "müvafiq icra hakimiyyəti orqanının" sözləri ilə, dördüncü cümləsində "Dövlət qulluğunu idarəetmə orqanının" sözləri "Müvafiq icra hakimiyyəti orqanının" sözləri ilə əvəz edilsin.

III. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 03 mart 2006-cı il
№ 78-IIIQD

# "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əlavə və dəyişiklik edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, N 1, maddə 1, N 3, maddə 131; 2002-ci il, N 12, maddə 693; 2003-cü il, N 1, maddə 16; 2004-cü il, N 1, maddə 10, N 4, maddə 199, N 5, maddə 321, N 8, maddə 597, N 11, maddə 884; 2005-ci il, N 6, maddə 463, N 6, maddə 475, N 10, maddə 874) aşağıdakı əlavə və dəyişiklik edilsin:

8.1.4-cü maddədə "Hərbi Məhkəməsinin Aparatı," sözlərindən sonra "Ağır Cinayətlərə dair İşlər üzrə Naxçıvan Muxtar Respublikası Məhkəməsinin Aparatı, Azərbaycan Respublikası Dövlət Qulluğunu İdarəetmə Şurası yanında Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın Katibliyi" sözləri əlavə edilsin, "Beynəlxalq Müqavilələrdən İrəli Gələn Mübahisələrə dair Azərbaycan Respublikası İqtisad Məhkəməsinin Aparatı" sözləri çıxarılsın.

II. Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 12 may 2006-cı il
№ 108-IIIQD

# "Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır**:

I. "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992-ci il, № 23, maddə 1013; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, № 1, maddə 6, № 3, maddə 226, № 4, maddə 280; 2000-ci il, № 7, maddə 489; 2001-ci il, № 11, maddə 686, № 12, maddə 736; 2002-ci il, № 5, maddələr 241, 248; 2003-cü il, № 1, maddələr 1, 16, № 12, I kitab, maddə 673; 2004-cü il, № 3, maddə 123) 12-ci maddəsinin 5-ci bəndinin birinci abzasında "Azərbaycan Respublikasının qanunvericiliyində" sözləri "Qanunda" sözü ilə əvəz edilsin və ikinci abzası aşağıdakı redaksiyada verilsin:

"Dövlət ehtiyacları və ya ictimai ehtiyaclar tələb etdikdə sahibkarın əmlakı yalnız Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş hallarda və şərtlərlə onun bazar dəyəri miqdarında qabaqcadan əvəzi ödənilməklə özgəninkiləşdirilə bilər.".

II. "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 6, maddə 363; 2001-ci il, № 11, maddə 696; 2002-ci il, № 12, maddə 709; 2003-cü il, № 1, maddə 12) 20-ci maddəsinin birinci hissəsində "əmlakını özgəninkiləşdirilməsinə yalnız qabaqcadan onun dəyərini ədalətli ödəmək şərti ilə yol verilə bilər" sözləri "əmlakın özgəninkiləşdirilməsi şərtləri Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə müəyyən edilir" sözləri ilə əvəz edilsin.

III. "Energetika haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 2, maddə 53) 32-ci maddəsinin 3-cü bəndinin birinci cümləsində "qanunvericiliyi ilə nəzərdə tutulduğu hallarda və qaydada müvafiq kompensasiyanın ödənilməsi ilə" sözləri "Mülki Məcəlləsində nəzərdə tutulmuş şərtlərlə" sözləri ilə əvəz edilsin, "(geri)" sözü mötərizəsiz yazılsın, ikinci cümləsi çıxarılsın.

IV. "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 3, maddə 154; 2001-ci il, № 3, maddə 149; 2002-ci il, № 5, maddə 241, № 12, maddə 706; 2003-cü il, № 1, maddə 14; Azərbaycan Respublikasının 2006-cı il 7 aprel tarixli, 91-IIIQD nömrəli qanunu) 16-cı maddəsinin adından "fors-macor halları baş verdikdə" sözləri çıxarılsın, ikinci hissəsində ", bələdiyyə" sözü "ehtiyacları" sözü ilə əvəz edilsin, həmin maddənin birinci hissəsi aşağıdakı redaksiyada verilsin:

"Hüquqi və ya fiziki şəxslərə icarəyə verilmiş torpaq sahələrinin dövlət ehtiyacları və ya ictimai ehtiyaclar üçün geri alınması şərtləri və halları Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə müəyyən edilir.".

V. "Torpaq bazarı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 7, maddə 390; 2002-ci il, № 5, maddə 241; 2003-cü il, № 1, maddələr 11, 13) 16-cı maddəsinin altıncı hissəsində "dövlət və ictimai ehtiyacları ödəmək məqsədi ilə" sözləri "dövlət ehtiyacları və ya ictimai ehtiyaclar üçün" sözləri ilə, "qiyməti, müstəqil qiymətləndiricilərin (ekspertlərin) rəyi nəzərə alınmaqla," sözləri "satınalma qiyməti Azərbaycan Respublikasının Mülki Məcəlləsinə müvafiq olaraq" sözləri ilə əvəz edilsin.

VI. Azərbaycan Respublikasının Torpaq Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 8, maddə 478; 2001-ci il, № 12, maddə 736; 2002-ci il, № 5, maddələr 237, 241; 2003-cü il, № 1, maddə 11, № 6, maddə 256, № 8, maddə 423; 2004-cü il, № 2, maddə 59, № 6, maddə 415, № 10, maddə 761; 2006-cı il, № 2, maddə 67) aşağıdakı əlavə və dəyişikliklər edilsin:

1. 6-cı maddənin:

1.1. altıncı abzasında "satın və ya məcburi satın alınması" sözləri "özgəninkiləşdirilməsi" sözə ilə əvəz edilsin;

1.2. onuncu abzası aşağıdakı redaksiyada verilsin:

"vergitutma məqsədi ilə kadastr qiymət rayonları və ora daxil olan inzibati rayonlar üzrə kənd təsərrüfatı torpaqlarının təyinatı, coğrafi yerləşməsi və keyfiyyəti nəzərə alınmaqla, şərti balların müəyyənləşdirilməsi;".

2. 8-ci maddənin altıncı abzası aşağıdakı redaksiyada verilsin:

"ictimai ehtiyaclar tələb etdikdə bələdiyyə tərəfindən hüquqi və fiziki şəxslərə əvəzsiz istifadəyə verilmiş torpaq sahələrinin məcburi geri alınması barədə məhkəmədə iddia qaldırılması;".

3. 32-ci maddənin 2-ci bəndində ", bələdiyyə və" sözləri "ehtiyaclarının və ya" sözləri ilə əvəz edilsin.

4. 70-ci maddənin:

4.1. 1-ci bəndində ", bələdiyyə və" sözləri "ehtiyacları və ya" sözləri ilə əvəz edilsin;

4.2. 3-cü bəndində "məcburi geri alınması" sözləri "dövlət ehtiyacları və ya ictimai ehtiyaclar üçün özgəninkiləşdirilməsi" sözləri ilə əvəz edilsin, ", istifadədə" sözü və "və ya bələdiyyənin vəsatəti əsasında məhkəmənin" sözləri çıxarılsın, aşağıdakı redaksiyada ikinci cümlə əlavə edilsin:

"Əvəzsiz istifadədə olan torpaqların məcburi geri alınması müvafiq icra hakimiyyəti orqanının və ya bələdiyyənin vəsatəti əsasında məhkəmənin qərarı ilə həyata keçirilir.";

4.3. 4-cü bəndində "məcburi satın alınması yalnız möhüm dövlət, bələdiyyə və ictimai obyektlərin yerləşdirilməsi məqsədi ilə" sözləri "dövlət ehtiyacları və ya ictimai ehtiyaclar üçün özgəninkiləşdirilməsinə Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş hallarda və şərtlərlə" sözləri ilə əvəz edilsin;

4.4. 5-ci bəndində ", bələdiyyə" sözü "ehtiyacları" sözü ilə, "satın alındıqda" sözləri "özgəninkiləşdirildikdə" sözü ilə əvəz edilsin;

4.5. 6-cı bəndində "bələdiyyə ehtiyacları" sözləri "ictimai ehtiyaclar" sözləri ilə əvəz edilsin;

4.6. 8-ci bəndində ", bələdiyyə" sözü "ehtiyacları" sözü ilə əvəz edilsin.

5. 71-ci maddənin:

5.1. 1-ci bəndinin üçüncü abzasında "satın" sözü "geri" sözü ilə əvəz edilsin;

5.2. 2-ci bəndində ", bələdiyyə və" sözləri "ehtiyaclarının və ya" sözləri ilə əvəz edilsin, "və ya bələdiyyə" sözləri çıxarılsın;

5.3. 3-cü bəndində "iddia" sözü "qərardan iddia" sözləri ilə əvəz edilsin.

6. 73-cü maddənin 1-ci bəndinin on birinci abzasında ", bələdiyyə" sözü "ehtiyacları" sözü ilə əvəz edilsin.

7. 75-ci maddənin 1-ci bəndində "qalan abzaslarda" sözlərindən əvvəl "11-ci abzasında nəzərdə tutulmuş halda torpaq üzərində mülkiyyət və icarə hüququna müvafiq icra hakimiyyəti orqanı tərəfindən, əvəzsiz istifadə hüququna isə müvafiq icra hakimiyyəti orqanının və ya bələdiyyənin vəsatəti üzrə məhkəmə tərəfindən," sözləri əlavə edilsin.

8. 84-cü maddənin 5-ci bəndinin birinci cümləsində ", bələdiyyə və" sözləri "ehtiyacları və ya" sözləri ilə əvəz edilsin.

9. 88-ci maddənin 3-cü bəndinə "tikiliyə" sözündən sonra "(fərdi və çoxmənzilli yaşayış evlərindən başqa)" sözləri əlavə edilsin, bu bəndə aşağıdakı redaksiyada ikinci və üçüncü abzaslar əlavə edilsin:

"Torpaq sahəsinin mülkiyyətçisinə mənsub olan və həmin sahədə yerləşən fərdi yaşayış evinə mülkiyyət hüququ keçərkən tərəflərin razılaşması ilə başqa hal nəzərdə tutulmayıbsa, müəyyənləşdirilən torpaq sahəsinə hüquqlar həmin evi əldə edənə keçir. Əgər yaşayış evinin özgəninkiləşdirilməsi haqqında müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, torpaq sahəsinin ev yerləşən və ondan istifadə üçün zəruri olan hissəsinə mülkiyyət hüququ əldə edənə keçir.

Çoxmənzilli yaşayış evlərinin, habelə onlara aid olan qeyri-yaşayış tikililərinin torpaq sahələri həmin evlərin tərkib hissələri mülkiyyətçilərinin ümumi paylı mülkiyyətinə keçir.".

10. 96-cı maddənin 6-cı bəndinin birinci cümləsində "qiyməti müstəqil qiymətləndiricilərin (ekspertlərin) rəyi nəzərə alınmaqla" sözləri "satınalma qiyməti Azərbaycan Respublikasının Mülki Məcəlləsinə müvafiq olaraq" sözləri ilə əvəz edilsin.

VII. Azərbaycan Respublikasının Mülki Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 4, I kitab, maddə 250, № 5, maddə 323; 2002-ci il, № 12, maddə 709; 2003-cü il, № 8, maddə 420; 2004-cü il, № 3, maddə 123, № 5, maddə 318, № 6, maddə 415, № 10, maddə 761, № 11, maddə 901; 2005-ci il, № 2, maddə 61, № 6, maddə 466, № 8, maddələr 684, 692, 693, № 11, maddə 996, № 12, maddə 1085; 2006-cı il, № 2, maddə 68; Azərbaycan Respublikasının 2006-cı il 3 mart tarixlı, 80-IIIQD və 82-IIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 107-5.1-ci maddədə "tutulmadıqda," sözündən sonra "bu Məcəllənin 107-3.5-ci maddəsinin müddəaları nəzərə alınmaqla," sözləri əlavə edilsin.

2. 360.1-ci maddədə "fəaliyyət göstərmək" sözləri "hərəkət etmək" sözləri ilə, "aşılarsa," sözündən sonra "başqa şəxsin (təmsil edilənin) əqdi bağlayan şəxsdən (təmsil edəndən)" sözləri "əqdin digər tərəfinin təmsilçidən" sözləri ilə əvəz edilsin.

VIII. "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 7, maddə 479; 2003-cü il, № 1, maddə 8; 2004-cü il, № 2, maddə 57) 9-cu maddəsinin üçüncü hissəsində "geri alına" sözləri "və Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş şərtlərlə satın alma, istifadə və icarə hüquqlarına xitam verilə" sözləri ilə əvəz edilsin.

IX. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 1, maddə 1, № 3, maddə 131; 2002-ci il, № 12, maddə 693; 2003-cü il, № 1, maddə 16; 2004-cü il, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005-ci il, № 6, maddələr 463, 475, № 10, maddə 874) aşağıdakı dəyişikliklər və əlavələr edilsin:

1. 8.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"8.1. Dövlət orqanları öz səlahiyyətlərinə görə aşağıdakı təsnifata bölünürlər:

8.1.1. əsas səlahiyyətləri Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyən edilən Azərbaycan Respublikasının ali dövlət hakimiyyəti orqanları - Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinin həyata keçirilməsini bilavasitə təmin edən orqanlar, Azərbaycan Respublikasının Milli Məclisi, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi və Azərbaycan Respublikasının Ali Məhkəməsi, Məhkəmə-Hüquq Şurasının Aparatı (1-ci kateqoriya dövlət orqanları);

8.1.2. əsas səlahiyyətləri Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyən edilən yuxarı dövlət orqanı və Naxçıvan Muxtar Respublikasının ali dövlət hakimiyyəti orqanı - Azərbaycan Respublikasının Nazirlər Kabineti və Naxçıvan Muxtar Respublikasının Ali Məclisi (2-ci kateqoriya dövlət orqanları);

8.1.3. əsas səlahiyyətləri Azərbaycan Respublikasının Konstitusiyası və ya Azərbaycan Respublikasının Konstitusiya qanunları ilə müəyyən edilən dövlət orqanları - Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanının) Aparatı, Azərbaycan Respublikasının apellyasiya məhkəmələri, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi (3-cü kateqoriya dövlət orqanları);

8.1.4. əsas səlahiyyətləri Azərbaycan Respublikasının Konstitusiyasına əsasən qanunla müəyyən edilən dövlət orqanları - Azərbaycan Respublikası Hesablama Palatasının Aparatı, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Aparatı, Ağır Cinayətlərə dair İşlər üzrə Azərbaycan Respublikasının Məhkəməsi, Ağır Cinayətlərə dair İşlər üzrə Azərbaycan Respublikasının Hərbi Məhkəməsi, Ağır Cinayətlərə dair İşlər üzrə Naxçıvan Muxtar Respublikasının Məhkəməsi, Naxçıvan Muxtar Respublikasının İqtisad Məhkəməsi, Azərbaycan Respublikası Dövlət Qulluğunu İdarəetmə Şurası yanında Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyanın Katibliyi (4-cü kateqoriya dövlət orqanları);

8.1.5. əsas səlahiyyətləri Azərbaycan Respublikası Konstitusiyasının 113-cü maddəsində nəzərdə tutulmuş qaydada müəyyən edilən dövlət orqanları - Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları və onlara bərabər tutulan icra hakimiyyəti orqanları (5-ci kateqoriya dövlət orqanları);

8.1.6. əsas səlahiyyətləri Azərbaycan Respublikası Konstitusiyasının 120-ci maddəsində nəzərdə tutulmuş qaydada müəyyən edilən dövlət orqanları, Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları (6-cı kateqoriya dövlət orqanları);

8.1.7. əsas səlahiyyətləri Azərbaycan Respublikası Konstitusiyasının 113-cü və 124-cü maddələrində nəzərdə tutulmuş qaydada müəyyən edilən dövlət orqanları - yerli icra hakimiyyəti orqanları, mərkəzi icra hakimiyyəti orqanlarının ikili tabelikdə olan yerli bölmələri, onların yanında, tabeliyində olan regional orqanları, əsas səlahiyyətləri Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq qanunla müəyyən edilən dövlət orqanları - rayon (şəhər) məhkəmələri, hərbi məhkəmələr və yerli iqtisad məhkəmələri (7-ci kateqoriya dövlət orqanları).".

2. 8.2-ci maddə çıxarılsın.

3. 8.3-cü maddədə "qanunvericiliyi" sözündən sonra "ilə bu Qanun" sözləri əlavə edilsin.

4. 11.1.1-ci maddədən "və işlər müdirlərinin" sözləri və 11.1.3-cü maddədən "1-ci kateqoriya dövlət orqanları işlər müdirləri müavinlərinin vəzifələri," sözləri çıxarılsın, 11.1.2-ci maddədə "müşaviri (köməkçisi) vəzifəsi" sözləri "səlahiyyətlərinin həyata keçirilməsini Azərbaycan Respublikası Prezidentinin İcra Aparatında təmin edən dövlət qulluqçularının vəzifələri" sözləri ilə əvəz edilsin.

5. Qanuna aşağıdakı redaksiyada 11.4-cü maddə əlavə edilsin:

"11.4. Dövlət orqanlarının aparatları (və ya onların fəaliyyətini təmin edən qurumlar) və onların bölmələri 1-7-ci kateqoriya dövlət orqanlarının Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyən edilmiş funksiya və səlahiyyətləri, habelə onların həyata keçirilməsi xüsusiyyətləri nəzərə alınaraq təminedici və yardımçı kimi təsnifləşdirilir.

Dövlət orqanlarının aparatının (və ya onların fəaliyyətini təmin edən qurumların) və onun bölmələrinin adları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.".

6. 11-ci maddənin Qeyd hissəsinə aşağıdakı redaksiyada 3-cü bənd əlavə edilsin:

"3. 11-ci maddədə "dövlət orqanlarının aparatı (və ya onların fəaliyyətini təmin edən qurumlar)" dedikdə dövlət orqanının vəzifə, funksiya və səlahiyyətlərinin həyata keçirilməsini təmin edən dövlət qulluqçularından ibarət ixtisaslaşdırılmış bölmələrini özündə birləşdirən dövlət orqanının struktur vahidi nəzərdə tutulur.".

X. "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 8, maddə 520; 2004-cü il, № 5, maddə 314; 2005-ci il, № 2, maddə 62) aşağıdakı dəyişikliklər edilsin:

1. 4.0.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

"4.0.5. ictimai ehtiyaclar tələb etdikdə bələdiyyə tərəfindən hüquqi və fiziki şəxslərə əvəzsiz istifadəyə verilmiş torpaq sahələrinin məcburi geri alınması barədə məhkəmədə iddia qaldırmaq;".

2. 6.10-cu maddəsində ", bələdiyyə və" sözləri "ehtiyacları və ya" sözləri ilə əvəz edilsin.

XI. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 30 may 2006-cı il
№ 122-IIIQD

# Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Polis haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 11, maddə 611; 2001-ci il № 11, maddə 699, № 12, maddə 731; 2002-ci il, № 3, maddə 118, № 6, maddə 328; 2003-cü il, № 1, maddə 22, № 8, maddə 424; 2004-cü il, № 2, maddə 57, № 3, maddə 133; 2006-cı il, № 2, maddə 74,75) 33-cü maddəsinin I hissəsinə aşağıdakı məzmunda 4-cü bənd əlavə edilsin:

"4) "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsində müəyyən edilmiş tələblərə əməl etmədikdə və ya həmin Qanunun 9-cu maddəsində göstərilən hüquqpozmaları törətdikdə (onlar inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda).".

II. "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 12, maddə 688; 2000-ci il, № 7, maddə 494; 2002-ci il, № 8, maddə 464; 2004-cü il, № 1, maddə 10, № 2, maddə 7, № 3, maddə 133, № 4, maddə 202; 2005-ci il, № 10, maddələr 874, 876, 902) 33-cü maddəsinə aşağıdakı məzmunda səkkizinci hissə əlavə edilsin, səkkizinci və doqquzuncu hissələr müvafiq olaraq doqquzuncu və onuncu hissələr hesab edilsin:

"Prokurorluq işçisi "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsində müəyyən edilmiş tələblərə əməl etmədikdə və ya həmin Qanunun 9-cu maddəsində göstərilən hüquqpozmaları törətdikdə (onlar inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda) intizam məsuliyyətinə cəlb olunur.".

III. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 1, maddə 1; № 3, maddə 131, 2002-ci il, № 12, maddə 693, 2003-cü il, № 1, maddə 16, 2004-cü il, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005-ci il, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006-cı il, № 6, maddə 479; Azərbaycan Respublikasının 2006-cı il 30 may tarixli 122–IIIQD nömrəli Qanunu) aşağıdakı əlavələr və dəyişikliklər edilsin:

1. 2.3-cü maddədə "həyata keçirilməsinə" sözlərindən sonra "və dövlət qulluğunun digər prinsiplərinə" sözləri əlavə edilsin;
2. aşağıdakı məzmunda 4.1.10-cu maddə əlavə edilsin, 4.1.10-cu və 4.1.11-ci maddələr müvafiq olaraq 4.1.11-ci və 4.1.12-ci maddələr hesab edilsin:

"4.1.10. dövlət qulluqçularının potensialının səmərəli istifadəsi, xidməti və peşəkarlıq səviyyəsinin artırılması məqsədi ilə onların rotasiyası;";

3. aşağıdakı məzmunda 25.7-ci maddə əlavə edilsin:

"25.7. Dövlət qulluqçusu "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsində müəyyən edilmiş tələblərə əməl etmədikdə və ya həmin Qanunun 9-cu maddəsində göstərilən hüquqpozmaları törətdikdə (onlar inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda) intizam məsuliyyətinə cəlb olunur.".

IV. Azərbaycan Respublikasının 2001-ci il 12 iyun tarixli 141-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında" Əsasnaməyə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 7, maddə 443; 2006-cı il, № 6, maddə 486) aşağıdakı məzmunda 46-1-ci maddə əlavə edilsin:

"46-1. Vergi orqanının vəzifəli şəxsi "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsində müəyyən edilmiş tələblərə əməl etmədikdə və ya həmin Qanunun 9-cu maddəsində göstərilən hüquqpozmaları törətdikdə (onlar inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda) intizam məsuliyyətinə cəlb olunur.".

V. "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 7, maddə 452, № 12, maddə 731; 2002-ci il, № 12, maddə 706; 2005-ci il, № 10, maddə 902) aşağıdakı məzmunda 26.5-ci maddə əlavə edilsin:

"26.5. Prokurorluq işçisi "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsində müəyyən edilmiş tələblərə əməl etmədikdə və ya həmin Qanunun 9-cu maddəsində göstərilən hüquqpozmaları törətdikdə (onlar inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda) intizam məsuliyyətinə cəlb olunur.".

VI. Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 168-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnaməyə (Azərbaycan

Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 7, maddə 453; № 12, maddə 731; 2004-cü il, № 10, maddə 760; 2005-ci il, № 4, maddə 280, 2005-ci il, № 10, maddə 871, 872) aşağıdakı məzmunda 114-1-ci maddə əlavə edilsin:

"114-1. Daxili işlər orqanının əməkdaşı "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsində müəyyən edilmiş tələblərə əməl etmədikdə və ya həmin Qanunun 9-cu maddəsində göstərilən hüquqpozmaları törətdikdə (onlar inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda) intizam məsuliyyətinə cəlb olunur.".

VII. Azərbaycan Respublikasının 2004-cü il 8 iyul tarixli 682-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Feldyeger rabitəsi orqanında xidmət keçmə haqqında" Əsasnaməyə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 7, maddə 514; 2006-cı il, № 3, maddə 221) aşağıdakı məzmunda 58-1-ci maddə əlavə edilsin:

"58-1. Feldyeger rabitəsi orqanının əməkdaşı "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsində müəyyən edilmiş tələblərə əməl etmədikdə və ya həmin Qanunun 9-cu maddəsində göstərilən hüquqpozmaları törətdikdə (onlar inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda) intizam məsuliyyətinə cəlb olunur.".

VIII. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**İham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 10 oktyabr 2006-cı il
№ 159 - IIIQD

# "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I."Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 1, maddə 1, № 3, maddə 131; 2002-ci il, № 12, maddə 693; 2003-cü il, № 1, maddə 16; 2004-cü il, №1, maddə 10, № 4, maddə 199, № 5 maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005-ci il, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006-cı il, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657) aşağıdakı dəyişikliklər edilsin:

1. 8.1.1-ci maddədə “Azərbaycan Respublikasının Prezidenti” sözləri “müvafiq icra hakimiyyəti orqanı” sözləri ilə, “Azərbaycan Respublikası Prezidentinin” sözləri “müvafiq icra hakimiyyəti orqanının” sözləri ilə əvəz edilsin;

2. 8.1.2-ci maddədə “Azərbaycan Respublikasının Nazirlər Kabineti” sözləri “müvafiq icra hakimiyyəti orqanı” sözləri ilə əvəz edilsin;

3. 8.1.3-cü maddədə “Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti” sözləri “müvafiq icra hakimiyyəti orqanı” sözləri ilə əvəz edilsin;

4. 8.1.5-ci maddədə “Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları və onlara bərabər tutulan icra hakimiyyəti orqanları” sözləri, “müvafiq icra hakimiyyəti orqanları və onlara bərabər tutulan icra hakimiyyəti orqanları, o cümlədən müvafiq icra hakimiyyəti orqanı yanında olan müvafiq icra hakimiyyəti orqanları” sözləri ilə əvəz edilsin;

5. 8.1.6-cı maddə aşağıdakı redaksiyada verilsin:

“Əsas səlahiyyətləri Azərbaycan Respublikası Konstitusiyasının 113-cü və 120-ci maddələrində nəzərdə tutulmuş qaydada müəyyən edilən dövlət orqanları — müvafiq icra hakimiyyəti orqanları, müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətləri (6-cı kateqoriya dövlət orqanları).”;

6. 8.1.7-ci maddədə “yerli icra hakimiyyəti orqanları” sözləri “müvafiq icra hakimiyyəti orqanları” sözləri ilə, “mərkəzi icra hakimiyyəti orqanlarının” sözləri “müvafiq icra hakimiyyəti orqanlarının” sözləri ilə əvəz edilsin.

II. Bu qanun 2007-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 28 noyabr 2006-cı il

# "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il №1, maddə 1, №3, maddə 131; 2002-ci il, №12, maddə 693; 2003-cü il, №1, maddə 16; 2004-cü il, №1, maddə 10, №4, maddə 199, №5, maddə 321, №8, maddə 597, №11, maddə 884; 2005-ci il, №6, maddələr 463, 475, №10, maddə 874; 2006-cı il, №5, maddə 386, №6, maddə 479, №8, maddə 657; Azərbaycan Respublikasının 2006-cı il 28 noyabr tarixli 179-IIIQD nömrəli Qanunu) aşağıdakı əlavələr edilsin:

1. 8.1.7-ci maddədə "tabeliyində olan regional orqanları," sözlərindən sonra "müvafiq icra hakimiyyəti orqanlarının tabeliyində olan orqanları," sözləri əlavə edilsin.

2. 11.1.7-ci maddədə "orqanlarının bölmə rəhbərlərinin" sözlərindən sonra ",müvafiq icra hakimiyyəti orqanlarının tabeliyində olan orqanların rəhbərlərinin" sözləri əlavə edilsin.

3. 11.1.8-ci maddədə "orqanları bölmə rəhbərləri müavinlərinin" sözlərindən sonra ",müvafiq icra hakimiyyəti orqanlarının tabeliyində olan orqan rəhbərləri müavinlərinin" sözləri əlavə edilsin.

4. 11.1.9-cu maddədə "orqanları bölmə mütəxəssislərinin" sözlərindən sonra ",müvafiq icra hakimiyyəti orqanlarının tabeliyində olan orqanların mütəxəssislərinin" sözləri əlavə edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 16 fevral 2007-ci il

# "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 1, maddə 1, № 3, maddə 131; 2002-ci il, № 12, maddə 693; 2003-cü il, № 1, maddə 16; 2004-cü il, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005-ci il, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006-cı il, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; Azərbaycan Respublikasının 2007-ci il 16 fevral tarixli 246-IIIQD nömrəli Qanunu) aşağıdakı əlavələr edilsin:

1. 2.3-cü maddəyə "həyata keçirilməsinə" sözlərindən sonra ", dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsinə" sözləri əlavə edilsin.

2. Qanuna aşağıdakı məzmunda 30-1-ci maddə əlavə edilsin:

"Maddə 30-1. Dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsi

30-1.1. İnzibati vəzifə tutan dövlət qulluqçusunun xidməti fəaliyyəti hər təqvim ilinin sonunda qiymətləndirilir. Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsinin məqsədi onun il ərzində vəzifəsinin öhdəsindən gəlməsini, tutduğu vəzifəyə dair tələblərin yerinə yetirilməsini qiymətləndirməkdən və işçinin gələcək inkişafını müəyyən etməkdən ibarətdir. Xidməti fəaliyyətin qiymətləndirilməsinin nəticələri dövlət qulluqçusunun attestasiyası zamanı nəzərə alınır.

30-1.2. Dövlət qulluqçusunun fəaliyyətinin qiymətləndirilməsi onun bilavasitə rəhbəri tərəfindən həyata keçirilir.

30-1.3. Dövlət qulluqçusunun xidməti fəaliyyəti aşağıdakı meyarlar əsasında qiymətləndirilir:

30-1.3.1. peşə bilikləri;

30-1.3.2. xidməti vəzifələrə münasibət;

30-1.3.3. təhlil aparmaq, problem həll etmək və qərar vermək bacarığı;

30-1.3.4. yaradıcılıq və təşəbbüskarlıq;

30-1.3.5. əmək intizamı;

30-1.3.6. iş təcrübəsi və onu bölüşmə;

30-1.3.7. kollektivdə işləmək bacarığı, ünsiyyət, işçilərarası münasibətlər.

30-1.4. Rəhbər işçilərin xidməti fəaliyyəti bu Qanunun 30-1.3-cü maddəsində göstərilənlərə əlavə olaraq, aşağıdakı meyarlar əsasında qiymətləndirilir:

30-1.4.1. təhlil və proqnozlaşdırma;

30-1.4.2. idarəetmə;

30-1.4.3. kollektiv daxilində nüfuz və ruhlandırmaq bacarığı;

30-1.4.4. komanda qurmaq bacarığı.

30-1.5. Dövlət qulluqçusunun xidməti fəaliyyəti aşağıdakı şəkildə qiymətləndirilir:

30-1.5.1. əla;

30-1.5.2. yaxşı;

30-1.5.3. kafi;

30-1.5.4. qeyri-kafi.

30-1.6. Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticələri xidməti fəaliyyətin qiymətləndirilməsi barədə sənədlə rəsmiləşdirilir. Bu sənəddə dövlət qulluqçusunun fəaliyyəti bütün meyarlar üzrə qiymətləndirilir və bununla bağlı şərhlər verilir. Xidməti fəaliyyətin qiymətləndirilməsi barədə sənədə xidməti fəaliyyəti qiymətləndirilən dövlət qulluqçusunun rəyi əlavə edilir.

30-1.7. Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi qaydalarına dair normativ aktlar müvafiq icra hakimiyyəti orqanı tərəfindən qəbul edilir.

30-1.8. Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticələri onun şəxsi işinə əlavə edilir.".

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 10 aprel 2007-ci il.

# Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavə və dəyişikliklər edilməsi və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının qanununa əlavə və dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2006-cı il 12 may tarixli 108-IIIQD nömrəli qanununun qüvvədən düşmüş hesab edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikası Su Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, №3, maddə 135; 1999-cu il, №8, maddə 476; 2002-ci il, №5, maddə 237; 2003-cü il, №1, maddə 10; 2004-cü il, №2, maddə 57) 37-ci maddəsinin 2-ci hissəsində "digər dövlət və bələdiyyə ehtiyacları" sözləri "digər dövlət ehtiyacları və ya ictimai ehtiyaclar" sözləri ilə əvəz edilsin.

II. Azərbaycan Respublikası Meşə Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, №3, maddə 139; 1999-cu il, №8, maddə 476; 2004-cü il, №11, maddə 902) 51-ci maddəsinin 2-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"Dövlət ehtiyacları və ya ictimai ehtiyaclar üçün meşə fondu torpaqlarının özgəninkiləşdirilməsinə Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş hallarda və şərtlərlə yol verilir.".

III. "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, №9, maddə 562; 2002-ci il, №5, maddə 241) 5-ci maddəsinin beşinci abzası aşağıdakı redaksiyada verilsin:

"mülkiyyətçilərin əmlakı Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş hallarda və şərtlərlə dövlət ehtiyacları və ya ictimai ehtiyaclar üçün alındıqda;".

IV. "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, №1, maddə 2) 46-cı maddəsinin mətni aşağıdakı redaksiyada verilsin:

"Hüquqi və fiziki şəxslərin mülkiyyətində olan torpaqların dövlət ehtiyacları və ya ictimai ehtiyaclar üçün özgəninkiləşdirilməsinə Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş hallarda və şərtlərlə yol verilir.".

V. "Avtomobil yolları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, №3, I kitab, maddə 125; 2001-ci il, №12, maddələr 731, 736; 2004-cü il, №11, maddə 901; 2006-cı il, №6, maddə 478) 14-cü maddəsinin 5-ci hissəsində "geri alına (satın alına) bilər" sözləri "dövlət ehtiyacları və ya ictimai ehtiyaclar üçün geri alına bilər" sözləri ilə əvəz edilsin və həmin hissəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Torpaq sahələrinin dövlət ehtiyacları və ya ictimai ehtiyaclar üçün geri alınması şərtləri və halları Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə müəyyən edilir.".

VI. "İpoteka haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, №6, maddə 461) 32.1-ci maddəsində "dövlət və ya bələdiyyə ehtiyacları üçün satınalma" sözləri "dövlət ehtiyacları və ya ictimai ehtiyaclar üçün özgəninkiləşdirilmə" sözləri ilə əvəz edilsin.

VII. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununa əlavə və dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2006-cı il 12 may tarixli 108-IIIQD nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il №6, maddə 479) qüvvədən düşmüş hesab edilsin.

VIII. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 17 aprel 2007-ci il.

# “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişiklik edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. ”Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, №1, maddə 1, № 3, maddə 131; 2002-ci il, №12, maddə 693; 2003-cü il, №1, maddə 16; 2004-cü il, №1, maddə 10, №4, maddə 199, №5, maddə 321, №8, maddə 597, №11, maddə 884; 2005-ci il, №6, maddələr 463, 475, №10, maddə 874; 2006-cı il, №5, maddə 386, №6, maddə 479, №8, maddə 657, №12, maddə 1014; 2007-ci il, №2, maddə 83) aşağıdakı əlavələr və dəyişiklik edilsin:

1. 8.1.1-ci maddədə “ali dövlət hakimiyyəti orqanları” sözlərindən sonra “və ya Azərbaycan Respublikasının Konstitusiya qanunları ilə müəyyən edilən dövlət orqanları” sözləri, “Məhkəmə-Hüquq Şurasının Aparatı” sözlərindən sonra “, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) Aparatı” sözləri əlavə edilsin.

2. 8.1.3-cü maddədən “və ya Azərbaycan Respublikasının Konstitusiya qanunları” sözləri və “Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanının) Aparatı,” sözləri çıxarılsın.

3. 8.1.6-cı maddədə “dövlət xidmətləri” sözlərindən sonra “, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) regional mərkəzləri” sözləri əlavə edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 31 may 2007- ci il.

# Dövlət qulluqçularının etik davranış qaydaları haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu qanun dövlət qulluqçuları üçün etik davranış qaydalarını və prinsiplərini və onlara əməl edilməsi ilə bağlı hüquqi mexanizmləri müəyyən edir.

**Fəsil 1. Ümumi müddəalar**

Maddə 1. Qanunun əhatə dairəsi

1.1. Bu qaydalar dövlət qulluqçusu statusuna malik olan bütün şəxslərə şamil edilir.

1.2. Hər bir dövlət qulluqçusu qanunun aliliyini, insan hüquqlarını, demokratik prinsipləri və yüksək etik davranış qaydalarını rəhbər tutaraq bu qanunun müddəalarına əməl etməyə borcludur.

Maddə 2. Qanunun məqsədləri

2.0. Bu qanunun məqsədləri aşağıdakılardan ibarətdir:

2.0.1. dövlət orqanlarının və dövlət qulluğunun nüfuzunun artırılması, vətəndaşların dövlət orqanlarına və dövlət qulluqçularına etimadının yüksəldilməsi;

2.0.2. dövlət orqanları və dövlət qulluqçularının fəaliyyətində səmərəliliyin və şəffaflığın artırılması;

2.0.3. dövlət orqanlarında korrupsiyanın və dövlət qulluqçularının fəaliyyətində maraqların toqquşmasının qarşısının alınması;

2.0.4. dövlət qulluqçuları tərəfindən etik davranış qaydalarına əməl olunmasının təmin edilməsi;

2.0.5. dövlət qulluqçularından gözlənilən davranış barədə vətəndaşların məlumatlandırılması;

2.0.6. dövlət orqanlarının və dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsinə vətəndaşların təsiri imkanlarının genişləndirilməsi.

Maddə 3. Xidməti davranışın hüquqi tənzimlənməsi

3.1. Dövlət qulluqçusunun xidməti davranışı qanunvericiliklə ona verilmiş hüquqların həyata keçirilməsi və vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar fəaliyyətidir. Dövlət qulluqçusunun xidməti davranışı bu qanunla müəyyən edilmiş etik davranış qaydalarına və prinsiplərinə əsaslanmalıdır.

3.2. Dövlət qulluqçusunun xidməti davranışı bu qanuna və digər normativ hüquqi aktlara uyğun olaraq tənzimlənir.

3.3. Bu qanunla müəyyən olunmuş etik davranış qaydalarını dəqiqləşdirən normalar, onlara riayət olunması ilə bağlı təminatlar dövlət orqanlarının digər normativ hüquqi aktları ilə müəyyənləşdirilə bilər. Göstərilən normativ hüquqi aktlar bu qanunun müddəalarına zidd olmamalıdır.

**Fəsil 2. Etik davranış qaydaları**

Maddə 4. Vicdanlı davranış

4.1. Şəxsin, cəmiyyətin və dövlətin maraqları naminə dövlət qulluqçuları öz vəzifə borcunu səmərəli yerinə yetirməyə borcludur.

4.2. Dövlət qulluqçusu bütün hallarda hər bir şəxs üçün vicdanlılıq nümunəsi olmalıdır.

Maddə 5. Peşəkarlıq və fərdi məsuliyyətin artırılması

5.1. Dövlət qulluqçusu öz fəaliyyətini Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş səlahiyyətlər çərçivəsində və peşəkarlıq səviyyəsində yerinə yetirməyə borcludur.

5.2. Dövlət qulluqçusu etik davranışı və öz peşəkar fəaliyyəti ilə dövlət orqanlarına, hüquqi və fiziki şəxslərin inamını artırmalı və möhkəmləndirməlidir.

Maddə 6. Loyallıq

6.1. Dövlət qulluqçusu onun xidməti vəzifəsinə aid olmadığı hallarda, dövlət orqanlarının, onların rəhbərlərinin fəaliyyəti ilə əlaqədar (qanunsuz fəaliyyət istisna olmaqla) tənqidi ictimai mülahizələrdən, çıxışlardan və onların fəaliyyətinə ictimai qiymət verilməsindən çəkinməlidir. Bu qayda dövlət qulluqçusunun elmi-pedaqoji fəaliyyəti ilə bağlı çıxışlarına və ya elmi yazılarına şamil olunmur.

6.2. Dövlət qulluqçusu dövlət qulluğu ilə bağlı vəzifələrin icrası ilə bir araya sığmayan və onun adına xələl gətirə biləcək, habelə dövlət orqanının nüfuzunu aşağı sala biləcək hərəkətlərə yol verməməlidir.

6.3. Dövlət qulluqçusu dövlət orqanı tərəfindən açıq çıxışlarla bağlı müəyyən olunmuş qaydalara əməl etməlidir.

6.4. Dövlət qulluqçusu qanunvericilikdə dövlət qulluğu ilə bağlı nəzərdə tutulmuş məhdudiyyətlərə əməl etməlidir.

Maddə 7. İctimai etimad

7.1. Dövlət qulluqçusu Azərbaycan Respublikasının, dövlət orqanının və dövlət qulluğunun nüfuzunu möhkəmləndirməyə, öz adını və şərəfini uca tutmağa borcludur.

7.2. Dövlət qulluqçusu etik davranış qaydalarının onun tərəfindən pozulması nəticələrini aradan qaldırmağa, o cümlədən ictimai etimadın bərpası üçün tədbirlər görməyə borcludur.

7.3. Dövlət qulluqçusu dövlət orqanlarının və onların vəzifəli şəxslərinin fəaliyyəti barədə ictimaiyyəti məlumatlandıran kütləvi informasiya vasitələri nümayəndələrinin qanunla müəyyən edilmiş hallarda və qaydada doğru (dürüst) məlumatlar almasına köməklik göstərməlidir.

Maddə 8. İnsanların hüquq, azadlıq və qanuni maraqlarına, şərəf və ləyaqətinə və işgüzar nüfuzuna hörmət. Hüquqi şəxslərin işgüzar nüfuzuna hörmət

8.1. Dövlət qulluqçularının fəaliyyəti insanların hüquq, azadlıq və qanuni maraqlarının təmin olunmasına, qorunmasına və müdafiəsinə xidmət etməlidir.

8.2. Dövlət qulluqçusu insanların hüquq və azadlıqlarını, qanuni maraqlarını pozan, onların şərəf, ləyaqət və işgüzar nüfuzunu ləkələyə biləcək qərarlara və hərəkətlərə (və ya hərəkətsizliyə) yol verməməlidir.

8.3. Qanunvericiliklə nəzərdə tutulmuş hallar istisna olmaqla, dövlət qulluqçusu xidməti vəzifələrinin icrası ilə bağlı fiziki şəxslərin, habelə digər dövlət qulluqçularının şəxsi həyatı, şərəf və ləyaqəti barədə ona məlum olmuş məlumatların konfidensiallığını təmin etməlidir.

8.4. Dövlət qulluqçusu hüquqi şəxslərin işgüzar nüfuzuna hörmətlə yanaşmalı və onların işgüzar nüfuzunu ləkələyə biləcək hərəkətlərə (və ya hərəkətsizliyə) yol verməməlidir.

Maddə 9. Mədəni davranış

Dövlət qulluqçusu bütün şəxslərə, o cümlədən birbaşa və yuxarı rəhbəri ilə və ya tabeliyində olan şəxslərə münasibətdə nəzakətli, xeyirxah, diqqətli və səbirli olmalıdır.

Maddə 10. Əmr, sərəncam və ya tapşırıqların yerinə yetirilməsi

10.1. Dövlət qulluqçusu birbaşa və ya yuxarı rəhbərinin qanuna uyğun olan və səlahiyyətləri daxilində qəbul etdiyi yazılı əmri, sərəncamı və ya verdiyi şifahi tapşırıqları yerinə yetirməyə borcludur.

10.2. Dövlət qulluqçusu birbaşa və ya yuxarı rəhbər tərəfindən ona verilən əmrin, sərəncamın və ya tapşırığın qanuna və ya digər normativ hüquqi akta zidd olmasına əmindirsə, bu barədə yazılı əsaslandırmanı birbaşa və ya yuxarı rəhbərinə təqdim etməlidir. O, birbaşa rəhbərindən bu əmr, sərəncam və ya tapşırığın yazılı şəkildə təsdiq olunmasını tələb etməlidir. Birbaşa rəhbərindən yazılı şəkildə təsdiq edilmiş əmr, sərəncam və ya tapşırıq almasına baxmayaraq, dövlət qulluqçusu onların qanuna, yaxud digər normativ hüquqi akta zidd olmasına inanmaqda davam edərsə, o, həmin əmr, sərəncam və ya tapşırığın yerinə yetirilməsindən imtina edə bilər.

10.3. Qanuni göstərişlərin yerinə yetirilməməsi intizam məsuliyyətinə səbəb olur.

Maddə 11. Qərəzsizlik

11.1. Dövlət qulluqçusu xidməti vəzifəsini yerinə yetirərkən və ya qərar qəbul edərkən qərəzsiz olmalı və bu zaman irqinə, milliyyətinə, dilinə, cinsinə, sosial mənşəyinə, əmlak və qulluq vəziyyətinə, dinə münasibətinə, əqidəsinə, ictimai və ya hər hansı digər birliyə mənsubiyyətinə görə hər hansı şəxsin və ya şəxslər qrupunun üstünlüyünə və ya belə üstünlüyün əldə edilməsi üçün şəraitin yaradılmasına yol verməməlidir.

11.2. Dövlət qulluqçusu xidməti vəzifələrinin yerinə yetirilməsi zamanı siyasi bitərəfliyə əməl etməyə borcludur.

11.3. Dövlət qulluqçusu özünün və ya maraqlı şəxslərin mənafelərinin onun xidməti vəzifələrinin yerinə yetirilməsinə təsirinə yol verməməli və bu cür təsir üçün şərait yaratmamalıdır.

Maddə 12. Maddi və qeyri-maddi nemətlərin, imtiyazların və ya güzəştlərin əldə edilməsinə yol verilməməsi

12.1. Dövlət qulluqçusunun qanunsuz olaraq maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər əldə etməyə yönəlmiş hərəkətlər (hərəkətsizlik) etməsi və ya qərarlar qəbul etməsi qadağandır.

12.2. Dövlət qulluqçusu onun hərəkətlərinin (hərəkətsizliyinin) və ya qərarlarının maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər əldə etməyə gətirib çıxarmasını istisna edən tədbirlər görməlidir.

12.3. Qanunvericiliklə müəyyən olunmuş qaydada şəxslərə əvəzsiz xidmət (xidmətlər) göstərən dövlət qulluqçusu həmin xidmətə (xidmətlərə) görə hər hansı haqq tələb edə bilməz.

12.4. Qanunvericiliklə müəyyən olunmuş ödəniş müqabilində vətəndaşlara xidmət (xidmətlər) göstərən dövlət qulluqçusu həmin xidmətə (xidmətlərə) görə nəzərdə tutulan məbləğdən artıq haqq tələb edə bilməz.

Maddə 13. Korrupsiyanın qarşısının alınması

13.1. Dövlət qulluqçusuna qanunsuz maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər təklif olunduğu hallarda, dövlət qulluqçusu onlardan imtina etməlidir. Maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər dövlət qulluqçusuna ondan asılı olmayan səbəblərdən verilərsə, o, bu barədə birbaşa rəhbərinə məlumat verməli və maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər dövlət qulluqçusunun işlədiyi dövlət orqanına akt üzrə təhvil verilməlidir.

13.2. Tərəflərdən biri dövlət qulluqçusunun işlədiyi dövlət orqanı olan əqdlərdə həmin dövlət qulluqçusu digər tərəf ola bilməz.

Maddə 14. Hədiyyə alma ilə əlaqədar məhdudiyyətlər

14.1. Dövlət qulluqçusu xidməti vəzifələrinin qərəzsiz icrasına təsir edə bilən və ya bu cür təsir təəssüratı yaradan və ya onun vəzifələrinin icrası müqabilində mükafat qismində verilən və ya bu cür mükafat təəssüratı yaradan hədiyyələri özü və ya digər şəxslər üçün tələb edə və ya qəbul edə bilməz. Bu qayda qonaqpərvərliklə bağlı və dəyəri "Korrupsiyaya qarşı mübarizə haqqında" qanunda nəzərdə tutulmuş məbləğdən yuxarı olmayan hədiyyələrin təqdim olunduğu hallara şamil edilmir.

14.2. Dövlət qulluqçusu hədiyyənin qəbul edilməsi və ya qonaqpərvərlikdən istifadə ilə bağlı qərara gələ bilmədiyi hallarda bu məsələ barədə birbaşa rəhbərinin rəyini öyrənməlidir.

Maddə 15. Maraqlar toqquşmasının qarşısının alınması

15.1. Dövlət qulluqçusu qulluq etdiyi dövrdə maraqların toqquşmasına yol verməməlidir və qanunsuz olaraq öz vəzifə səlahiyyətlərindən şəxsi maraqları üçün istifadə etməməlidir.

15.2. Dövlət qulluqçusunun xidməti vəzifələri ilə onun şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda, o, qanunvericiliyə müvafiq olaraq, dövlət qulluğuna qəbul olunduqda, habelə bundan sonrakı dövrdə həmin maraqların xarakteri barədə məlumat verməyə borcludur.

15.3. Dövlət qulluqçusu başqa işə keçmə ilə əlaqədar təkliflərin maraqların toqquşmasına səbəb ola biləcəyi hallarda, bu barədə dövlət orqanının rəhbərinə məlumat verməlidir. Dövlət qulluqçusu dövlət qulluğundan getdikdən sonra qanunvericiliklə müəyyən edilmiş müddət ərzində əvvəllər fəaliyyətinə nəzarət etdiyi idarə, müəssisə, təşkilatlara və ya onların bölmələrinə işə qəbul edilə bilməz.

15.4. Dövlət qulluqçusu maraqların toqquşmasının qarşısının alınması üçün qanunvericiliklə nəzərdə tutulmuş digər tədbirlər görməlidir.

15.5. Dövlət qulluqçusu vəzifəyə təyin edilərkən və bundan sonrakı müddətdə etik davranış qaydaları, korrupsiyaya qarşı mübarizə və maraqların toqquşmasının qarşısının alınması ilə normativ hüquqi və normativ xarakterli aktlarla tanış olmalıdır. Bu aktlara əməl edilməsi ilə bağlı hər hansı suallar yarandıqda bu barədə birbaşa və ya yuxarı rəhbərinə müraciət etməlidir.

Maddə 16. Əmlakdan istifadə

16.1. Dövlət qulluqçusu istifadəsində olan dövlət əmlakından, maliyyə vəsaitlərindən, rabitə, kompyuter və digər kommunikasiya sistemlərindən, nəqliyyat vasitələrindən və digər maddi-texniki təchizat avadanlıqlarından qənaətlə və səmərəli istifadə etməlidir.

16.2. Dövlət qulluqçusuna dövlət əmlakından, maliyyə vəsaitlərindən, rabitə, kompyuter və digər kommunikasiya sistemlərindən, nəqliyyat vasitələrindən və digər maddi-texniki təchizat avadanlıqlarından şəxsi maraqları naminə, habelə həmin dövlət qulluqçusu tərəfindən xidməti vəzifələrinin icrası ilə əlaqədar olmayan digər məqsədlər üçün istifadə etməsi qadağandır.

Maddə 17. Məlumatlardan istifadə

17.1. Dövlət qulluqçusu xidmət etdiyi dövlət orqanının sərəncamında olan məlumatların qanunvericiliklə müəyyən olunmuş qaydada əldə olunması və yayılması mümkünlüyünü təmin etməlidir.

17.2. Dövlət qulluqçusu dövlət orqanında müəyyən olunmuş xidməti informasiyanın təqdim edilməsi qaydalarına əməl etməlidir.

17.3. Dövlət qulluqçusu xidməti fəaliyyəti zamanı əldə etdiyi məlumatları şəxsi maraqları üçün istifadə edə bilməz.

Maddə 18. İctimai və ya siyasi fəaliyyət

18.1. Qanunvericiliklə başqa qayda nəzərdə tutulmamışdırsa, dövlət qulluqçusu ictimai və ya siyasi birliyə üzv olmaq hüququna malikdir.

18.2. Dövlət qulluqçusunun ictimai və ya siyasi fəaliyyəti, yaxud ictimai və ya siyasi birliyə mənsubiyyəti onun xidməti vəzifələrini qərəzsiz və obyektiv yerinə yetirdiyinə ictimai şübhə doğurmamalıdır.

18.3. Dövlət qulluqçusu qulluq mövqeyindən istifadə edərək digər dövlət qulluqçularını ictimai və ya siyasi birliklərin və dini təşkilatların fəaliyyətində iştiraka təhrik etməməlidir.

18.4. Dövlət qulluqçusuna dövlət orqanlarında ictimai və siyasi birliklərin (həmkarlar ittifaqları istisna olmaqla), dini təşkilatların struktur bölmələrini yaratmaq, yaxud həmin orqanlarda göstərilən struktur bölmələrin yaradılmasına yardım etmək qadağandır.

18.5. Dövlət qulluqçusuna seçkilər zamanı öz vəzifə mövqeyindən və səlahiyyətlərindən özünün və ya digər namizədlərin, siyasi partiyaların, siyasi partiyaların bloklarının xeyrinə istifadə etmək qadağandır.

**Fəsil 3. Etik davranış qaydalarının həyata keçirilməsinin təmin olunması**

Maddə 19. Təminatlar sistemi

19.0. Dövlət qulluqçusu tərəfindən etik davranış qaydalarına əməl olunması üçün:

19.0.1. dövlət qulluqçusunun davranışının etik davranış qaydalarına uyğunluğu onun özü, birbaşa və ya yuxarı rəhbəri tərəfindən müntəzəm təhlil edilir;

19.0.2. dövlət qulluqçusu, onun birbaşa və ya yuxarı rəhbəri tərəfindən bu fəsildə nəzərdə tutulmuş tədbirlər görülür.

Maddə 20. Etik davranış qaydalarına əməl olunmasına nəzarət

20.0. Etik davranış qaydalarına əməl olunmasına nəzarəti:

20.0.1. Dövlət orqanının rəhbəri - xidməti qaydada, yuxarı orqan - tabeçilik əsasında;

20.0.2. Müvafiq dövlət orqanı (bundan sonra "Nəzarət orqanı") - bu qanunla müəyyənləşdirilmiş qaydada həyata keçirir.

Maddə 21. Dövlət orqanının rəhbəri tərəfindən nəzarət

21.1. Dövlət orqanlarında etik davranış qaydalarına əməl olunmasına nəzarəti həmin orqanların müvafiq qurumları həyata keçirir.

21.2. Dövlət orqanının rəhbəri:

21.2.1. tabeliyində olan dövlət qulluqçularının xidməti davranışlarının bu qanunla müəyyən olunan etik davranış qaydalarına uyğunluğuna nəzarət etməli və onun təhlilini aparmalıdır;

21.2.2. öz davranışı ilə etik davranış qaydalarına əməl olunması nümunəsi göstərməlidir;

21.2.3. tabeliyində olan dövlət qulluqçuları arasında onların tutduqları vəzifələrə uyğun olaraq vəzifə bölgüsü aparmalıdır;

21.2.4. tabeliyində olan şəxsləri hüquqa və hamılıqla qəbul edilmiş etik normalara zidd olan hərəkət etməyə və qərarlar qəbul etməyə sövq etməməlidir;

21.2.5. rəhbərlik etdiyi dövlət orqanlarına və onların struktur bölmələrinə kadrların seçilməsi və yerləşdirilməsi zamanı qanunvericiliyin tələblərinə əməl etməlidir;

21.2.6. etik davranış qaydalarının pozulmasının qarşısının alınması və profilaktikası üzrə tədbirlər görməlidir;

21.2.7. tabeliyində olan dövlət qulluqçularına etik davranış qaydalarını izah etməli və müraciət olunduğu təqdirdə etik davranış qaydalarına əməl olunmasına dair onlara tövsiyələr verməlidir;

21.2.8. öz səlahiyyətləri çərçivəsində bu qanunla müəyyən olunmuş etik davranış qaydalarını və onlara əməl olunması ilə bağlı təminatları konkretləşdirən normativ hüquqi (və ya normativ xarakterli) aktları işləyib hazırlamalı və təsdiq etməlidir;

21.2.9. etik davranış qaydalarını pozan dövlət qulluqçularının intizam məsuliyyətinə cəlb edilməsi üçün tədbirlər görməlidir;

21.2.10. etik davranış qaydaları və dövlət qulluqçuları tərəfindən həmin qaydalara əməl olunmasını tələb etmək hüquqlarına malik olmaları barədə vətəndaşları və təşkilatları məlumatlandırmaq üçün tədbirlər görməlidir;

21.2.11. etik davranış qaydalarının pozulması halları ilə bağlı həyata keçirilmiş tədbirlər barədə vətəndaşları, təşkilatları və dövlət orqanlarını məlumatlandırmalıdır;

21.2.12. etik davranış qaydalarının pozulmasının nəticələrinin aradan qaldırılması, habelə dövlət orqanına ictimai etimadın artırılması üçün tədbirlər görməlidir;

21.2.13. etik davranış qaydalarına əməl olunması ilə bağlı qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri həyata keçirməlidir.

Maddə 22. Nəzarət orqanının səlahiyyətləri

22.1. Nəzarət orqanı bu qanunla müəyyən edilmiş etik davranış qaydalarına əməl edilməsi və bu qanunun tətbiqi ilə bağlı məsələlərin əlaqələndirilməsi məqsədi ilə aşağıdakı səlahiyyətləri həyata keçirir:

22.1.1. bu qanunla müəyyən edilmiş etik davranış qaydalarına əməl edilməsi vəziyyətini öyrənir və bu barədə məlumatları ümumiləşdirir;

22.1.2. dövlət qulluqçularından və digər şəxslərdən bu qanunun müddəalarının pozulması ilə bağlı şikayətlər və məlumatlar qəbul edir;

22.1.3. daxil olan şikayətlər və məlumatlardan irəli gələn məsələlərin həlli üzrə təkliflər, tövsiyələr və təqdimatlar verir;

22.1.4. dövlət qulluqçularının etik davranış məsələləri üzrə ictimai rəyin öyrənilməsi və bununla bağlı maarifləndirmənin həyata keçirilməsi üçün tədbirlər görür;

22.1.5. dövlət qulluqçularının etik davranış məsələləri üzrə araşdırmalar aparır, bu məsələlərlə bağlı tövsiyələr və məruzələr tərtib edir;

22.1.6. dövlət qulluqçularının etik davranış məsələləri üzrə qeyri-hökumət təşkilatları, kütləvi informasiya vasitələri və müstəqil ekspertlərlə əməkdaşlıq edir;

22.1.7. daxil olmuş materiallarda hüquqpozmaların əlamətləri olduqda həmin materialları yoxlanılması üçün müvafiq orqanlara göndərir;

22.1.8. dövlət qulluqçularının etik davranış məsələləri ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflər verir;

22.1.9. qanunvericiliklə göstərilmiş digər səlahiyyətləri həyata keçirir.

22.2. Nəzarət orqanı etik davranış qaydalarının pozulması ilə əlaqədar dövlət qulluqçusuna qarşı aparılan intizam icraatının gedişinə hər hansı formada müdaxilə edə bilməz.

Maddə 23. Etik davranış qaydalarının pozulmasına görə məsuliyyət

23.1. Etik davranış qaydalarının pozulması dövlət qulluqçusunun intizam məsuliyyətinə cəlb edilməsi üçün əsasdır.

23.2. Dövlət qulluqçusunun intizam məsuliyyətinə cəlb edilməsi qanunvericiliklə nəzərdə tutulmuş qaydada və müddətdə həyata keçirilir.

23.3. Aşağıdakı hallarda intizam icraatına başlanıla bilər:

23.3.1. bu qanunun müddəalarının dövlət qulluqçusu tərəfindən pozulması barədə hüquqi və ya fiziki şəxslər tərəfindən şikayət və ya digər məlumatın verilməsi;

23.3.2. kütləvi informasiya vasitələrində dövlət qulluqçusu tərəfindən bu qanunun müddəalarının pozulması və maraqların toqquşmasına yol verilməsi barədə məlumatın dərc edilməsi.

23.3. İntizam icraatı zamanı dövlət qulluqçusu tərəfindən yol verilən hüquq pozuntusunda cinayət tərkibinin əlamətləri aşkar edildikdə, həmin əlamətləri aşkar etmiş dövlət orqanının rəhbəri bu barədə cinayət təqibi orqanına məlumat verməlidir.

Maddə 24. Bu qanunun qüvvəyə minməsi

Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 31 may 2007-ci il

# "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 1, maddə 1, № 3, maddə 131; 2002-ci il, № 12, maddə 693; 2003-cü il, № 1, maddə 16; 2004-cü il, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005-ci il, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006-cı il, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007-ci il, № 2, maddə 83, № 5, maddə 434; Azərbaycan Respublikasının 2007-ci il 31 may tarixli 356-IIIQD nömrəli Qanunu) aşağıdakı əlavələr edilsin:

1. 8.1.4-cü maddədə "Katibliyi" sözündən sonra ", Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) Aparatı" sözləri əlavə edilsin.

2. 8.1.5-ci maddədə "müvafiq icra hakimiyyəti orqanı yanında olan müvafiq icra hakimiyyəti orqanları" sözlərindən sonra ", Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının Aparatı" sözləri əlavə edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 19 oktyabr 2007-ci il.

# “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi q ə r a r a a l ı r :

I. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 1, maddə 1, № 3, maddə 131; 2002-ci il, № 12, maddə 693; 2003-cü il, № 1, maddə 16; 2004-cü il, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005-ci il, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006-cı il, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007-ci il, № 2, maddə 83, № 5, maddə 434, № 7, maddə 711; Azərbaycan Respublikasının 2007-ci il 1 oktyabr tarixli 420-IIIQD nömrəli Qanunu) 29-cu maddəsi aşağıdakı redaksiyada verilsin:

“Maddə 29. İnzibati vəzifələrin tutulması

29.1. İnzibati vəzifələrin birinci - beşinci təsnifatlarına uyğun olan vəzifələrin tutulması müsahibə keçirilməklə və ya qulluqda yüksəliş yolu ilə həyata keçirilir.

29.2. Dövlət orqanlarında inzibati vəzifələrin altıncı - doqquzuncu təsnifatlarına uyğun olan vəzifələrin tutulması həmin dövlət orqanı rəhbərinin qərarı əsasında bu Qanunun 28-ci maddəsində nəzərdə tutulmuş qaydada müsabiqə və ya bu Qanunun 29.3-29.9-cu maddələrinə uyğun olaraq müsahibə yolu ilə həyata keçirilir.

29.3. Dövlət orqanlarında inzibati vəzifələrin altıncı - doqquzuncu təsnifatlarına uyğun olan vəzifələrin həmin dövlət orqanında və ya digər dövlət orqanında inzibati vəzifələrdə çalışan dövlət qulluqçuları, habelə azı 5 il qulluq stajı olan və dövlət orqanında inzibatı vəzifələrdə çalışmış şəxslər tərəfindən tutulması müsahibə yolu ilə həyata keçirilir.

29.4. Müsahibə barədə elan inzibati vəzifənin aid olduğu dövlət orqanı və ya həmin dövlət orqanının müraciəti əsasında müvafiq icra hakimiyyəti orqanı tərəfindən kütləvi informasiya vasitələri ilə müsahibənin keçirilməsi tarixinə bir ay qalmış verilir.

29.5. Müsahibədə barəsində müsahibə keçirilən inzibati vəzifəyə uyğun gələn ixtisas dərəcəsinin təsnifatından ən çoxu iki təsnifat aşağı ixtisas dərəcəsinə malik şəxslər iştirak edə bilərlər.

29.6. Müsahibə müvafiq dövlət orqanı rəhbərinin yaratdığı komissiya tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada keçirilir.

29.7. Bu Qanunun 29.6-cı maddəsində nəzərdə tutulmuş komissiya müvafiq icra hakimiyyəti orqanının nümayəndəsi də daxil olmaqla, üzvlərinin sayı üç nəfərdən az olmayan tərkibdə yaradılır.

29.8. Müsahibə zamanı müsahibədə iştirak edən şəxsin bilik səviyyəsi, peşə hazırlığı, ümumi dünyagörüşü, barəsində müsahibə elan edilən vəzifə üçün zəruri olan keyfiyyətləri yoxlanılmaqla, müvafiq vəzifəyə yararlılığı müəyyən edilir.

29.9. Müsahibə zamanı aşağıdakı göstəricilər nəzərə alınmalıdır:

29.9.1. ixtisas dərəcəsi;

29.9.2. attestasiyanın nəticələri;

29.9.3. müvafiq vəzifənin tələblərinə uyğun olaraq təkrar hazırlıq keçilməsi və ixtisasın artırılması.

29.10. Müsahibənin nəticələrinə görə müvafiq inzibati vəzifənin tutulması barədə qərar qəbul edilir.

29.11. Müsahibə nəticəsində müvafiq inzibati vəzifə tutulmadıqda, dövlət orqanı rəhbərinin həmin vəzifənin müsabiqə əsasında tutulması barədə qərarı əsasında bu Qanunun 28-ci maddəsində nəzərdə tutulmuş qaydada müsabiqə keçirilə bilər.”.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 7 dekabr 2007-ci il.

# “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa əlavələr edilməsi barədə” Azərbaycan Respublikasının 2007-ci il 10 aprel tarixli 303-IIIQD nömrəli qanununun tətbiqi ilə əlaqədar bəzi qanunvericilik aktlarına əlavələr və dəyişiklik edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 1, maddə 12, № 12, maddələr 731, 736; 2004-cü il, № 2, maddə 57; 2005-ci il, № 4, maddə 274, № 7, maddə 590; 2006-cı il, № 11, maddə 926; 2007-ci il, № 1, maddə 1; Azərbaycan Respublikasının 2007-ci il 19 oktyabr tarixli 462-IIIQD nömrəli Qanunu) ilə təsdiq edilmiş “Gömrük orqanlarında xidmət haqqında Əsasnamə”yə aşağıdakı əlavələr və dəyişiklik edilsin:

1. VII fəslin adında “attestasiyası” sözündən sonra “və fəaliyyətinin qiymətləndirilməsi” sözləri əlavə edilsin.

2. 114-cü maddənin üçüncü hissəsi dördüncü hissə hesab edilsin və maddəyə aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

“Gömrük orqanlarının vəzifəli şəxslərinin attestasiyası zamanı onların xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticələri nəzərə alınır. Gömrük orqanlarının vəzifəli şəxslərinin fəaliyyətinin qiymətləndirilməsi “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada həyata keçirilir.”.

II. Azərbaycan Respublikasının 2001-ci il 12 iyun tarixli 141-IIQ saylı Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 7, maddə 443; 2006-cı il, № 6, maddə 486, № 11, maddə 927, № 12, maddə 1013; 2007-ci il, № 1, maddə 1, № 5, maddə 441; Azərbaycan Respublikasının 2007-ci il 19 oktyabr tarixli 462-IIIQD nömrəli Qanunu) ilə təsdiq edilmiş “Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə”yə aşağıdakı əlavələr edilsin:

1. VI fəslin adında “attestesiyası” sözündən sonra “və fəaliyyətinin qiymətləndirilməsi” sözləri əlavə edilsin.

2. 55-ci maddəyə aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

“Vergi orqanlarının vəzifəli şəxslərinin attestasiyası zamanı onların xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticələri nəzərə alınır. Vergi orqanlarının vəzifəli şəxslərinin fəaliyyətinin qiymətləndirilməsi “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada həyata keçirilir.”.

III. “Prokurorluq orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 7, maddə 452, № 12, maddə 731; 2002-ci il, № 12, maddə 706; 2005-ci il, № 10, maddə 902; 2006-cı il, № 11, maddə 927; 2007-ci il, № 1, maddələr 1, 4, № 2, maddə 82, № 6, maddə 570; Azərbaycan Respublikasının 2007-ci il 19 oktyabr tarixli 462-IIIQD nömrəli və 23 oktyabr tarixli 465-IIIQD nömrəli qanunları) aşağıdakı əlavələr edilsin:

1. 2.2-ci maddədə “həyata keçirilməsinə” sözlərindən sonra “, dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsinə” sözləri əlavə edilsin.

2. 14-cü maddənin adında “attestasiyası” sözündən sonra “və fəaliyyətinin qiymətləndirilməsi” sözləri əlavə edilsin.

3. 14.1-ci maddəyə aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:
“Prokurorluq işçilərinin attestasiyası zamanı onların xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticələri nəzərə alınır. Prokurorluq işçilərinin fəaliyyətinin qiymətləndirilməsi “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada həyata keçirilir.”.

IV. Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 168-IIQ saylı Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 7, maddə 453, № 12, maddə 731; 2004-cü il, № 10, maddə 760; 2005-ci il, № 4, maddə 280, № 10, maddələr 871, 872; 2006-cı il, № 10, maddə 846, № 11, maddə 927; Azərbaycan Respublikasının 2007-ci il 19 oktyabr tarixli 457-IIIQD nömrəli və 23 oktyabr tarixli 465-IIIQD nömrəli qanunları) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə”yə aşağıdakı əlavələr edilsin:

1. 2-ci maddənin ikinci abzasında “həyata keçirilməsinə” sözlərindən sonra “, dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsinə” sözləri əlavə edilsin.

2. 44-cü maddəyə aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

“Daxili işlər orqanları əməkdaşlarının attestasiyası zamanı onların xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticələri nəzərə alınır. Daxili işlər orqanları əməkdaşlarının fəaliyyətinin qiymətləndirilməsi “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada həyata keçirilir.”.

V. “Diplomatik xidmət haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 9, maddə 567; 2002-ci il, № 12, maddə 703; 2004-cü il, № 6, maddə 414; 2005-ci il, № 10, maddə 873) aşağıdakı əlavələr edilsin:

1. 14-cü maddənin adında “attestasiya” sözündən sonra “və fəaliyyətinin qiymətləndirilməsi” sözləri əlavə edilsin.

2. 14.1-ci maddəyə aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

“Diplomatik xidmət əməkdaşlarının və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən inzibati vəzifə tutan şəxslərin attestasiyası zamanı onların xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticələri nəzərə alınır. Diplomatik xidmət əməkdaşlarının və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən inzibati vəzifə tutan şəxslərin fəaliyyətinin qiymətləndirilməsi “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada həyata keçirilir.”.

VI. Azərbaycan Respublikasının 2004-cü il 8 iyun tarixli 682-IIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 7, maddə 514; 2006-cı il, № 3, maddə 221, № 11, maddə 927; Azərbaycan Respublikasının 2007-ci il 19 oktyabr tarixli 462-IIIQD nömrəli Qanunu) ilə təsdiq edilmiş “Feldyeger rabitəsi orqanında xidmət keçmə haqqında Əsasnamə”nin 87-ci maddəsinə aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

“Feldyeger rabitəsi orqanı əməkdaşlarının attestasiyası zamanı onların xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticələri nəzərə alınır. Feldyeger rabitəsi orqanı əməkdaşlarının fəaliyyətinin qiymətləndirilməsi “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada həyata keçirilir.”.

VII. “Ədliyyə orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 7, maddə 586; 2007-ci il, № 1, maddə 1; Azərbaycan Respublikasının 2007-ci il 19 oktyabr tarixli 462-IIIQD nömrəli və 23 oktyabr tarixli 465-IIIQD nömrəli qanunları) aşağıdakı əlavələr edilsin:

1. 2.2-ci maddədə “həyata keçirilməsinə” sözlərindən sonra “, dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsinə” sözləri əlavə edilsin.

2. 17-ci maddənin adında “attestasiyası” sözündən sonra “və fəaliyyətinin qiymətləndirilməsi” sözləri əlavə edilsin.

3. 17.1-ci maddəyə aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

“Ədliyyə orqanları işçilərinin attestasiyası zamanı onların xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticələri nəzərə alınır. Ədliyyə orqanları işçilərinin fəaliyyətinin qiymətləndirilməsi “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada həyata keçirilir.”.

Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 1 fevral 2008-ci il.

# "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 1, maddə 1, № 3, maddə 131; 2002-ci il, № 12, maddə 693; 2003-cü il, № 1, maddə 16; 2004-cü il, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005-ci il, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006-cı il, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007-ci il, № 2, maddə 83, № 5, maddə 434, № 7, maddə 711, № 10, maddə 934; Azərbaycan Respublikasının 2007-ci il 1 oktyabr tarixli 424-IIIQD, 19 oktyabr tarixli 458-IIIQD və 462-IIIQD, 7 dekabr tarixli 504-IIIQD və 510-IIIQD nömrəli qanunları) aşağıdakı əlavələr edilsin:

1. 8.1.5-ci maddədə "Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının Aparatı" sözlərindən sonra ", Milli Televiziya və Radio Şurasının Aparatı" sözləri əlavə edilsin.

2. 8.1.6-cı maddədə "regional mərkəzləri" sözlərindən sonra ", Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının Aparatı" sözləri əlavə edilsin.

Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 1 fevral 2008-ci il.

# “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa əlavələr edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. “Dövlət Qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 1, maddə 1, № 3, maddə 131; 2002-ci il, № 12, maddə 693; 2003-cü il, № 1, maddə 16; 2004-cü il, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005-ci il, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006-cı il, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007-ci il, № 2, maddə 83, № 5, maddə 434, № 7, maddə 711, № 10, maddə 934; Azərbaycan Respublikasının 2007-ci il 1 oktyabr tarixli 424-IIIQD nömrəli, 19 oktyabr tarixli 458-IIIQD və 462-IIIQD nömrəli, 7 dekabr tarixli 504-IIIQD və 510–IIIQD nömrəli Qanunları) 29-cu maddəsinə aşağıdakı əlavələr edilsin:

1. 29.2-ci maddənin birinci abzasında və 29.3-cü maddədə “Dövlət orqanlarında” sözlərindən sonra mötərizədə “müvafiq icra hakimiyyəti orqanı istisna olmaqla” sözləri əlavə edilsin.

2. 29.2-ci maddəyə aşağıdakı məzmunda ikinci abzas əlavə edilsin:

“Müvafiq icra hakimiyyəti orqanında inzibati vəzifələrin altıncı-doqquzuncu təsnifatlarına uyğun olan vakant vəzifələrin tutulması həmin dövlət orqanı rəhbərinin qərarı əsasında bu Qanunun 29.4-29.8-ci maddələrinə uyğun olaraq yalnız müsahibə yolu ilə həyata keçirilir.”.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 12 fevral 2008-ci il.

# Gender (kişi və qadınların) bərabərliyinin təminatları ilə bağlı "Dövlət qulluğu haqqında" və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanunlarına əlavə və dəyişiklik edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 1, maddə 1, № 3, maddə 131; 2002-ci il, № 12, maddə 693; 2003-cü il, № 1, maddə 16; 2004-cü il, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005-ci il, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006-cı il, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007-ci il, № 2, maddə 83, № 5, maddə 434, № 7, maddə 711, № 10, maddə 934, № 11, maddələr 1049, 1074, 1078; Azərbaycan Respublikasının 2007-ci il 7 dekabr tarixli 504-IIIQD və 510-IIIQD nömrəli; 2008-ci il 12 fevral tarixli 546-IIIQD nömrəli qanunları) 31.7-ci maddəsinin ikinci cümləsində "qadınlar" sözündən sonra "(uşağını təkbaşına böyüdən kişilər)" sözləri əlavə edilsin.

II. "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 8, maddə 522, № 12, maddə 731; 2003-cü il, № 1, maddə 16; 2007-ci il, № 10, maddə 938) 9.1-ci maddəsində "qadınlara" sözü "valideynlərə" sözü ilə əvəz edilsin.

III. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 1 aprel 2008-ci il.

# “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi q ə r a r a a l ı r:

I. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 1, maddə 1, № 3, maddə 131; 2002-ci il, № 12, maddə 693; 2003-cü il, № 1, maddə 16; 2004-cü il, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005-ci il, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006-cı il, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007-ci il, № 2, maddə 83, № 5, maddə 434, № 7, maddə 711; № 10, maddə 934, № 11, maddələr 1049, 1074, 1078, № 12, maddələr 1213, 1219; 2008-ci il, № 3, maddə 153; Azərbaycan Respublikasının 2008-ci il 12 fevral tarixli 546-IIIQD nömrəli, 1 aprel tarixli 579-IIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər və əlavələr edilsin:

1. 2.3-cü maddədə “girmək” sözü “qəbul edilmək” sözləri ilə əvəz edilsin, “milli təhlükəsizlik” sözlərindən sonra “müdafiə, fövqəladə hallar” sözləri, “tənzimlənir” sözündən sonra “və bu orqanlarda qulluq dövlət qulluğunun xüsusi növüdür” sözləri əlavə edilsin.

2. 2.3-cü maddəyə aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

“Bu orqanların (Azərbaycan Respublikasının Milli Bankı istisna olmaqla) aparatlarında calışan və hərbi və ya xüsusi rütbəsi olmayan şəxslərə (dövlət qulluqçusu olmayan işçilər – xadimə, dalandar, bağban, gözətçi, ocaqçı, ixtisas dərəcəsi olmayan fəhlə və s. istisna olmaqla) bu Qanun şamil edilir.”.

3. 2.5-ci maddədə “qulluğu ilə bağlı məsələlər” sözləri “əmək münasibətləri” sözləri ilə əvəz edilsin.

4. 4.1.6-cı maddədə “girmənin” sözü “qəbulun” sözü ilə, 4.1.7-ci maddədə “müsabiqə əsasında girməsi” sözləri “müsabiqə və müsahibə əsasında qəbul edilməsi” sözləri ilə əvəz edilsin.

5. 4.1.9-cu maddədə “dinə münasibətindən,” sözləri çıxarılsın, ”milliyətindən” sözündən sonra “dinindən,” sözü əlavə edilsin.

6. 8.1.7-ci maddədə “tabeliyində olan regional orqanları,” sözlərindən sonra “müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin yerli bölmələri,” sözləri əlavə edilsin.

7. 11.1.7-ci maddədə “regional orqanları rəhbərlərinin,” sözlərindən sonra “müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin yerli bölmələri rəhbərlərinin,” sözləri əlavə edilsin.

8. 11.1.8-ci maddədə “regional orqanları rəhbərləri müavinlərinin vəzifələri,” sözlərindən sonra “müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin yerli bölmələri rəhbərləri müavinlərinin vəzifələri,” sözləri əlavə edilsin.

9. 11.1.9-cu maddədə “regional orqanları mütəxəssislərinin vəzifələri,” sözlərindən sonra “müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin yerli bölmələri mütəxəssislərinin vəzifələri,” sözləri əlavə edilsin.

10. 11.2.1-ci maddədən “və 2-ci” sözləri, 11.2.2-ci maddədən “və 3-cü” sözləri, 11.2.3-cü maddədən “və 4-cü” sözləri, 11.2.4-cü maddədən “və 5-ci” sözləri, 11.2.5-ci maddədən “və 6-cı” sözləri çıxarılsın.

11. 11.3-cü maddə çıxarılsın və həmin maddənin Qeyd hissəsi aşağıdakı redaksiyada verilsin: “Qeyd: 11-ci maddədə “dövlət orqanlarının aparatı (və ya onların fəaliyyətini təmin edən qurumlar)” dedikdə dövlət orqanının vəzifə, funksiya və səlahiyyətlərinin həyata keçirilməsini təmin edən dövlət qulluqçularından ibarət ixtisaslaşdırılmış bölmələrini özündə birləşdirən dövlət orqanının struktur vahidi nəzərdə tutulur.”.

12. 12.1-ci maddədə “vəzifələrin ixtisas dərəcələri, adları, dərəcələr üzrə bölgü” sözləri “vəzifələrin təsnifatları və adları, ixtisas dərəcələri” sözləri ilə əvəz edilsin.

13. 14.1-ci maddədə “dövlət qulluğu vəzifəsini tutan və” sözlərindən sonra “inzibati vəzifə üzrə dövlət qulluğuna qəbul edilərkən” sözləri əlavə edilsin.

14. 15.2-ci maddənin birinci abzası aşağıdakı redaksiyada verilsin: “İlk dəfə daimi dövlət qulluğuna qəbul edilmiş vətəndaş vəzifəsinin icrasına başlamamışdan əvvəl aşağıdakı məzmunda and içir:”.

15. 15.4-cü maddənin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin: “And içən dövlət qulluqçusu andın mətnini imzalayır və bu sənəd onun şəxsi işində saxlanılır.”.

16. 16.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

“Dövlət qulluqçusunun ixtisas dərəcəsi onun ixtisas səviyyəsini göstərir, dövlət qulluqçusuna inzibati vəzifə tutmaq, vəzifə maaşına əlavə haqq almaq və sosial təminatlardan istifadə etmək hüququ verir.”.

17. 17-ci maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 17. İxtisas dərəcələrinin verilməsi və onlardan məhrum edilməsi

17.1. İxtisas dərəcələri bu Qanunun 16-cı maddəsinə müvafiq olaraq dövlət qulluqçusunun tutduğu vəzifəyə, qulluq stajına və ixtisas dərəcəsində qulluq müddətinə uyğun olaraq, habelə əvvəllər verilmiş ixtisas dərəcəsi nəzərə alınmaqla ardıcıl verilir. Dövlət qulluqçusunun qulluq stajına 1991-ci il oktyabrın 18-dək dövlət, sovet və partiya orqanlarında iş müddəti də daxil edilir.

İlk dəfə daimi dövlət qulluğuna qəbul olunmuş şəxsə tutduğu vəzifənin inzibati təsnifatı üçün müəyyən edilmiş ən kiçik ixtisas dərəcəsi verilir.

17.2. 3-cü dərəcə dövlət müşaviri və ondan yuxarı olan ixtisas dərəcələri Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü və 32-ci bəndlərində nəzərdə tutulmuş qaydada verilir. Bu ixtisas dərəcələri alan dövlət qulluqçusuna müvafiq hüquqi akt və vəsiqə verilir. Dövlət qulluğunun baş müşaviri və ondan aşağı olan ixtisas dərəcələri müvafiq dövlət orqanının rəhbəri tərəfindən verilir.

17.3. İnzibati vəzifələrin birinci təsnifatı istisna olmaqla, ikinci-üçüncü təsnifat inzibati vəzifələri tutan dövlət qulluqçusunun həmin təsnifat üzrə daha yüksək (növbəti) ixtisas dərəcəsi alması üçün həmin təsnifatlara daxil olan vəzifələrdə azı 7 il qulluq stajı, eyni zamanda müvafiq vəzifədə azı 3 il qulluq stajı olmalıdır. Üçüncü təsnifat inzibati vəzifələrdə qulluq keçən dövlət qulluqçusunun yalnız müvafiq vəzifədə azı 5 illik qulluq stajının olması, həmin dövlət qulluqçusunun 3-cü dərəcə dövlət müşaviri ixtisas dərəcəsi alması üçün əsasdır.

İnzibati vəzifələrin dördüncü-yeddinci təsnifat vəzifələri tutan dövlət qulluqçusunun həmin təsnifat üzrə daha yüksək (növbəti) ixtisas dərəcəsi alması üçün müvafiq vəzifə də daxil olmaqla, həmin təsnifata daxil olan vəzifələrdə azı 4 il qulluq stajı olmalıdır.

Bu maddənin birinci və ikinci hissələrində müəyyən edilmiş hər hansı tələbə cavab verməyən dövlət qulluqçusuna tutduğu vəzifənin inzibati təsnifatı üçün müəyyən edilmiş ən kiçik ixtisas dərəcəsi verilir. İxtisas dərəcəsi verilərkən dövlət qulluqçusunun peşəkarlığı və idarəçilik təcrübəsi nəzərə alınır. Bu Qanunun 17.3-cü maddəsinin birinci və ikinci hissələrində "müvafiq vəzifə" və "müvafiq vəzifədə" dedikdə, dövlət qulluqçusunun hazırda dövlət qulluğu keçdiyi dövlət orqanında tutduğu dövlət qulluğu vəzifəsi nəzərdə tutulur.

17.4. Müvafiq inzibati vəzifələr üçün müəyyən edilmiş ixtisas dərəcələri çərçivəsində növbəti ixtisas dərəcəsi almaq üçün aşağıdakılar vacibdir: dördüncü-altıncı təsnifat vəzifələri üçün – ixtisas dərəcəsində qulluq müddəti 3 il təşkil etməlidir;

yeddinci-doqquzuncu təsnifat vəzifələri üçün – ixtisas dərəcəsində qulluq müddəti 2 il təşkil etməlidir.

Müvafiq yardımçı vəzifələr üçün müəyyən edilmiş ixtisas dərəcələri çərçivəsində növbəti ixtisas dərəcəsi almaq üçün aşağıdakılar vacibdir:

birinci-üçüncü təsnifat vəzifələri üçün – ixtisas dərəcəsində qulluq müddəti ardıcıl olaraq 2 il təşkil etməlidir;

dördüncü-altıncı təsnifat vəzifələri üçün – ixtisas dərəcəsində qulluq müddəti ardıcıl olaraq 1 il təşkil etməlidir.

17.5. Dövlət orqanlarında dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

17.6. Bu Qanunun 33.1.7-ci maddəsində nəzərdə tutulmuş hallarda dövlət qulluqçusu ona verilmiş ixtisas dərəcəsindən məhrum edilir və bu barədə şəxsin əmək kitabçasında müvafiq qeyd aparılır.".

18. 18.0.4-cü maddədə "işlədiyi" sözü "qulluq keçdiyi" sözləri ilə əvəz edilsin.

19. 18.0.7-ci maddədə "işdən çıxdıqdan, istefaya və ya pensiyaya getdikdən" sözləri "dövlət qulluğuna xitam verildikdən" sözləri ilə əvəz edilsin.

20. 18.0.9-cu maddədə "etdiyi" sözü "keçdiyi" sözü ilə, 18.0.10-cu maddədə "işləməli" sözü "qulluq keçməli" sözləri ilə əvəz edilsin.

21. 19.0.2-ci maddədə "işə götürmək və işdən azad etmək" sözləri "vəzifəyə təyin və vəzifədən azad etmək" sözləri ilə əvəz edilsin.

22. 19.0.3-cü maddədə "dövlət maaşı" sözləri "dövlət məvacibi" sözləri ilə əvəz edilsin.

23. 19.0.5-ci və 19.0.11-ci maddələrdə "işlədiyi" sözü "qulluq keçdiyi" sözləri ilə əvəz edilsin.

24. 19.0.8-ci maddədə "təhqiqat" sözü "araşdırma" sözü ilə əvəz edilsin.

25. 20.1.1-ci maddədə "əlavə ödənişli" sözləri "əlavə ödənişli (əmək qanunvericiliyində nəzərdə tutulmuş qaydada müvəqqəti əvəz edilməsi halları istisna olmaqla), heç bir seçkili və ya təyinatlı" sözləri ilə əvəz edilsin.

26. 20.1.2-ci, 20.1.5-ci maddələrdə "işlədiyi" sözü "qulluq keçdiyi" sözləri ilə əvəz edilsin.

27. 20.1.4-cü maddədə "istefaya getdikdən, işdən və ya pensiyaya çıxdıqdan" sözləri "dövlət qulluğuna xitam verildikdən" sözləri ilə əvəz edilsin.

28. 20.3-cü maddədə "etdiyi" sözü "keçdiyi" sözü ilə əvəz edilsin.

29. 21.1.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

"təcrübə, yenidənhazırlanma və ixtisasartırma keçmə;".

30. 21.1.6-cı maddədə "başqa dövlət orqanında" sözləri "dövlət orqanlarında" sözləri ilə əvəz edilsin.

31. 21.3-cü maddədə "bu Qanunun 25-ci maddəsində" sözləri "bu Qanunda" sözləri ilə əvəz edilsin.

32. 21.5-ci maddə çıxarılsın.

33. 22.1-ci maddənin ikinci cümləsində və 22.7-ci maddənin birinci cümləsində "vəzifədə" sözü çıxarılsın.

34. 22.3-cü maddənin dördüncü və beşinci cümlələri çıxarılsın.

35. 22.4-cü maddədə "təhlükəli olan" sözləri "təhlükəli" sözü ilə əvəz edilsin.

36. Aşağıdakı məzmunda 22-1-ci maddə əlavə edilsin:

"Maddə 22-1. Dövlət qulluqçusunun təcrübə, yenidənhazırlanma və ixtisasartırma keçməsi

22-1.1. Dövlət qulluqçusunun təcrübə, yenidənhazırlanma və ixtisasartırma keçməsi dövlət qulluqçusunun əlavə peşə təhsilini təşkil edir.

22-1.2. Dövlət qulluqçusunun təcrübə, yenidənhazırlanma və ixtisasartırma keçməsi vaxtı onun qulluq stajına daxildir.

22-1.3. Dövlət qulluqçusunun təcrübə, yenidənhazırlanma və ixtisasartırma keçməsi üçün aşağıdakılar əsasdır:

22-1.3.1. dövlət qulluğunda daha yüksək vəzifəyə təyin edilməsi;

22-1.3.2. dövlət qulluğunun ehtiyat kadrlarının siyahısına daxil edilməsi;

22-1.3.3. dövlət qulluqçusunun attestasiyası və ya onun xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticəsi;

22-1.3.4. dövlət qulluqçusunun şəxsi təşəbbüsü.

22-1.4. Dövlət qulluqçusunun təcrübə, yenidənhazırlanma və ixtisasartırma keçməsi həmin dövlət orqanının rəhbəri tərəfindən müəyyən edilir.

22-1.5. Dövlət qulluqçusunun yenidənhazırlanma və ixtisasartırma keçməsi dövlət təhsil müəssisələri və mərkəzləri tərəfindən aparılır.

22-1.6. Dövlət qulluqçusu əlavə peşə təhsili almaq üçün xarici ölkələrə ezam edilə bilər.

22-1.7. Dövlət qulluqçusunun əlavə peşə təhsili qulluqkeçmədən ayrılmaqla, qismən ayrılmaqla və ya ayrılmamaqla həyata keçirilir.

22-1.8. Dövlət qulluqçusunun əlavə peşə təhsilinin növü, forması, müddəti və maliyyə təminatı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən qaydalarla tənzimlənir.".

37. 25-ci maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 25. Dövlət qulluqçusunun məsuliyyəti

25.1. Dövlət qulluqçusuna həvalə olunmuş vəzifələrin yerinə yetirilməməsi və ya lazımi şəkildə yerinə yetirilməməsi, habelə bu Qanunla müəyyən edilmiş məhdudiyyətlərə əməl olunmaması, qanunda başqa qayda nəzərdə tutulmayıbsa, intizam məsuliyyətinə səbəb olur.

25.2. Dövlət qulluqçusu bu Qanunun 18-ci, 20-ci və ya 25.8-ci maddələrində nəzərdə tutulmuş tələbləri pozduqda, onun barəsində aşağıdakı intizam tənbeh tədbirlərindən biri tətbiq edilə bilər:

25.2.1. töhmət;

25.2.2. bir il müddətinədək vəzifə maaşının 5 faizindən 30 faizinədək azaldılması;

25.2.3. həmin təsnifatdan olan, lakin vəzifə maaşı aşağı olan vəzifəyə keçirilməsi;

25.2.4. daha aşağı təsnifatdan olan vəzifəyə keçirilməsi;

25.2.5. ixtisas dərəcəsinin bir pillə aşağı salınması;

25.2.6. dövlət qulluğundan azad edilməsi.

25.3. Bu Qanunun 25.2-ci maddəsinə uyğun olaraq intizam tənbehinin tətbiqinə əsaslar olduqda, müvafiq dövlət orqanı rəhbərinin əmri ilə araşdırma aparılır, dövlət qulluqçusundan yazılı izahat alınır. Zərurət olduqda, müvafiq dövlət orqanının rəhbəri xidməti yoxlama təyin edir. Dövlət qulluqçusunun yazılı izahat verməkdən imtina etməsi rəsmiləşdirilir və bu, intizam tənbehinin tətbiqinə mane olmur. 25.4. Xidməti yoxlamanın aparılması qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

25.5. Dövlət qulluqçularına intizam tənbehi bu Qanunun 25.2-ci maddəsində nəzərdə tutulmuş əsaslar aşkar edildiyi gündən bir ay keçənədək verilə bilər. Dövlət qulluqçusunun məzuniyyətdə, ezamiyyətdə olduğu, əmək qabiliyyətini müvəqqəti itirdiyi, habelə barəsində xidməti yoxlama və ya cinayət işinin istintaqı aparıldığı vaxt həmin müddətə daxil edilmir.

25.6. Bu Qanunun 25.2.6-cı maddəsində nəzərdə tutulmuş intizam tənbeh tədbiri vəzifələrin icrası zamanı kobud və ya mütəmadi olaraq pozuntulara yol verildikdə və ya bu Qanunun 20-ci maddəsində nəzərdə tutulmuş məhdudiyyətlərə əməl edilmədikdə tətbiq oluna bilər.

25.7. Bu Qanunun 25.2.1-25.2.6-cı maddələrində nəzərdə tutulmuş intizam tənbeh tədbirləri dövlət qulluqçusunun qulluq keçdiyi dövlət orqanının rəhbəri tərəfindən, 25.2.1-ci maddəsində nəzərdə tutulmuş intizam tənbeh tədbiri isə, habelə dövlət qulluqçusunun qulluq keçdiyi dövlət orqanının rəhbəri tərəfindən səlahiyyət verilmiş vəzifəli şəxs (şəxslər) tərəfindən tətbiq oluna bilər.

25.8. İntizam tənbeh tədbirinin tətbiq edilməsi barədə əmrdən, onun imzalandığı gündən 7 iş günü müddətində müvafiq icra hakimiyyəti orqanına şikayət vermək olar. Bu zaman həmin orqan tərəfindən intizam tənbeh tədbiri 10 iş günü müddətində ləğv olunmalı və ya qüvvədə saxlanılmalıdır. Tətbiq olunmuş intizam tənbeh tədbirindən şikayət verilməsi qaydası Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən edilir.

25.9. Dövlət qulluqçusu qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada inzibati və cinayət məsuliyyətinə cəlb oluna bilər.

25.10. Dövlət qulluqçusu onun təqsiri üzündən dəymiş zərər üçün qanunvericiliklə müəyyən edilmiş qaydada maddi məsuliyyət daşıyır. Dövlət qulluqçusunun qanuna uyğun hərəkətləri nəticəsində dəymiş zərərin əvəzi tam həcmdə dövlət büdcəsinin vəsaiti hesabına ödənilir.

25.11. Dövlət qulluqçusu "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsində müəyyən edilmiş tələblərə əməl etmədikdə və ya həmin Qanunun 9-cu maddəsində göstərilən hüquqpozmaları törətdikdə (onlar inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda) intizam məsuliyyətinə cəlb olunur.".

38. 27-ci maddənin adında və 27.1-ci maddədə "girmək" sözü "qəbul edilmək" sözləri ilə əvəz edilsin, 27.1-ci maddədə "malik olan" sözlərindən sonra "və Azərbaycan Respublikasının dövlət dilini sərbəst bilən" sözləri əlavə edilsin və həmin maddədə "dinə münasibətindən," sözləri çıxarılsın, "milliyyətindən" sözündən sonra "dinindən," sözü əlavə edilsin.

39. 27.2-ci maddədə "götürülə" sözü "qəbul edilə" sözləri ilə əvəz edilsin.

40. 27.2.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"məhkumluğu ödənilməmiş və ya götürülməmişsə;".

41. Aşağıdakı məzmunda 27.2.4-cü maddə əlavə edilsin, 27.2.4-cü maddə 27.2.5-ci maddə hesab edilsin:

"barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olarsa;".

42. 27.3-cü maddənin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Dövlət orqanında dövlət qulluğuna qəbul edilmək üçün müraciət etmiş şəxsin dövlət qulluğuna qəbul edilməsinin mümkün olub-olmaması qabaqcadan yoxlanılır.".

43. 27.3-cü maddənin ikinci cümləsində "qanunvericiliklə" sözü "müvafiq icra hakimiyyəti orqanı tərəfindən" sözləri ilə əvəz edilsin.

44. 28.2-ci maddə aşağıdakı redaksiyada verilsin:
"İnzibati vəzifələrin altıncı-doqquzuncu təsnifatlarına uyğun olan vakant vəzifələr üzrə dövlət qulluğuna qəbul üçün müvafiq icra hakimiyyəti orqanı müsabiqə elan edir. Qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla, yalnız bir cinsin nümayəndəsi üçün müsabiqənin elan edilməsinə yol verilmir. Müvafiq icra hakimiyyəti orqanının müraciəti əsasında müraciət daxil olan gündən 20 iş günü müddətində müvafiq dövlət orqanı vakant olan vəzifələr barədə məlumatı təqdim etməlidir.".

45. 28.4-cü maddənin birinci cümləsində "10 gün" sözü "30 gün" sözü ilə, "söhbətdən" sözü "müsahibədən" sözü ilə əvəz edilsin.

46. 28.5-ci maddənin birinci cümləsində "söhbətə" sözü "müsahibəyə" sözü ilə əvəz edilsin.

47. 28.6-cı maddə aşağıdakı redaksiyada verilsin:

"Qanunvericiliklə başqa qayda nəzərdə tutulmadıqda, müsabiqədən müvəffəqiyyətlə keçmiş namizədlər dövlət orqanının rəhbərinə təqdim olunurlar. Dövlət orqanının rəhbəri təqdim olunmuş namizədlərdən birini seçərək, bir il müddətinə stajçı kimi qulluğa qəbul edir və vakant vəzifəyə təyin edir. Staj dövründə dövlət orqanı rəhbərinin təyin etdiyi kurator stajçının işini istiqamətləndirir, fəaliyyətinə nəzarət edir və staj müddəti qurtardıqdan sonra stajçının sınaq müddəti ilə dövlət qulluğuna qəbul edilməsinin məqsədəuyğun olub-olmadığı barədə tövsiyə təqdim edir. Qanunvericiliklə başqa qayda nəzərdə tutulmayıbsa, tövsiyə müsbət olarsa, stajçı əmək müqaviləsi bağlamaq yolu ilə altı ay sınaq müddəti ilə dövlət qulluğuna qəbul edilir. Əmək müqaviləsində sınaq müddəti ərzində qulluq keçmənin şərtləri müəyyənləşdirilir. Sınaq müddəti ilə dövlət qulluğuna qəbul edilən şəxslə bağlanan əmək müqaviləsinin nümunəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Sınaq müddəti ərzində əmək müqaviləsi pozulmayıbsa, həmin müddət qurtardıqdan

sonra dövlət orqanının rəhbəri müqavilənin şərtlərinə uyğun olaraq, həmin şəxsin daimi dövlət qulluğuna qəbul edilməsi haqqında əmr verir və onunla müvafiq əmək müqaviləsi bağlayır. Daimi dövlət qulluğuna qəbul edilən şəxslə bağlanan əmək müqaviləsinin nümunəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.”.

48. Aşağıdakı məzmunda 28.7-ci, 28.8-ci və 28.9-cu maddələr əlavə edilsin, 28.7-ci maddə isə 28.10-cu maddə hesab edilsin: “28.7. Stajçı kimi qulluğa qəbul edilmiş şəxs həmin müddətdə bu Qanunun 28-ci maddəsinə müvafiq olaraq yenidən müsabiqədən müvəffəqiyyətlə keçərək yeni vəzifəyə təyin edildikdə, əvvəlki vəzifədəki staj müddəti nəzərə alınır. Sınaq müddəti ilə dövlət qulluğuna qəbul edilmiş şəxs bu Qanunun 28-ci maddəsinə müvafiq olaraq yenidən müsabiqədən müvəffəqiyyətlə keçdikdə, əvvəlki sınaq müddəti nəzərə alınmamaqla, yenidən sınaq müddəti ilə vəzifəyə təyin edilir.
28.8. Daimi dövlət qulluğuna qəbul edilmiş və bu Qanunun 33.1-ci maddəsinə uyğun olaraq dövlət qulluğuna xitam verilmiş şəxslər (yardımçı vəzifə tutmuş şəxslər istisna olmaqla) yenidən dövlət qulluğuna qəbul edildikdə, onlar barəsində bu Qanunun 28.6-cı maddəsində nəzərdə tutulmuş staj və sınaq müddəti tətbiq edilmir.

28.9. “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” çərçivəsində xaricdə təhsil almış şəxslər müvafiq icra hakimiyyəti orqanında ehtiyat kadr kimi saxlanılır və qanunvericiliyə uyğun olaraq, həmin orqan bu şəxslərin müsabiqədən kənar dövlət qulluğuna qəbul edilməsi üçün müvafiq dövlət orqanına təqdimat verir.”.

49. 29.2-ci maddəyə aşağıdakı məzmunda ikinci və üçüncü hissələr əlavə edilsin:
“Dövlət qulluqçusu qulluq keçdiyi orqanda öz razılığı ilə aşağı vəzifəyə keçirilərkən, habelə tutduğu inzibati vəzifə təsnifatına uyğun olan, vəzifənin adı və qulluq funksiyası eyni olan vəzifəyə keçirilərkən bu maddənin müddəaları həmin dövlət qulluqçusu barəsində tətbiq edilmir.
Dövlət qulluqçusu bu maddənin müddəaları tətbiq edilmədən digər dövlət orqanında tutduğu inzibati vəzifə ilə eyni təsnifatdan və ya aşağı təsnifatdan olan vəzifəyə həmin dövlət orqanları rəhbərlərinin qarşılıqlı razılığı ilə keçirilə bilər.”.

50. 29.3-cü maddədə “çalışan” sözü “qulluq keçən və inzibati vəzifələrin təsnifatına uyğun ixtisas dərəcəsi olan” sözləri ilə əvəz edilsin.

51. 29.5-ci maddə aşağıdakı redaksiyada verilsin:
“Müsahibədə barəsində müsahibə elan edilən vəzifənin təsnifatından ən çoxu iki təsnifat aşağı inzibati vəzifələrdə qulluq keçən dövlət qulluqçuları, habelə ən çoxu iki təsnifat aşağı inzibati vəzifələrdə qulluq keçmiş şəxslər iştirak edə bilərlər.

Barələrində intizam tənbehi tətbiq edilmiş dövlət qulluqçuları bir il ərzində müsahibəyə və müsabiqəyə buraxılmırlar.”.

52. 30.3-cü maddənin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:
“İnzibati vəzifə tutan dövlət qulluqçusuna ildə bir dəfə 30 təqvim günü müddətində haqqı ödənilən əsas məzuniyyət verilir.”.

53. 30.3-cü maddəyə aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:
“Dövlət qulluqçusu öz arzusu ilə və dövlət orqanı rəhbərinin razılığı ilə ödənişsiz məzuniyyətə göndərilə bilər.”.

54. 30.5-ci maddədə “işlədiyi” sözü “qulluq keçdiyi” sözləri ilə, “başqa məsələlər” sözləri “digər məsələlər” sözləri ilə əvəz edilsin.

55. 31-ci maddə aşağıdakı redaksiyada verilsin:

“Maddə 31. Dövlət qulluqçusunun attestasiyası
31.1. İnzibati və yardımçı vəzifələri tutan hər bir dövlət qulluqçusu, bu Qanunda başqa hal nəzərdə tutulmayıbsa, beş ildə bir dəfədən çox olmayaraq attestasiyadan keçirilməlidir.
31.2. Attestasiya kollegial, obyektiv surətdə, müvafiq icra hakimiyyəti orqanının nümayəndəsinin və müstəqil mütəxəssislərin cəlb edilməsi ilə keçirilir. Attestasiya komissiyasının tərkibini müvafiq dövlət orqanının rəhbəri təsdiq edir.

31.3. Attestasiya zamanı dövlət qulluqçusunun peşəkarlıq, işgüzarlıq və mənəvi keyfiyyətləri qiymətləndirilir və onun tutduğu vəzifəyə uyğun gəlib-gəlmədiyi barədə nəticə çıxarılır.

31.4. Attestasiyanın əsas məqsədləri aşağıdakılardır:

31.4.1. dövlət qulluqçusunun tutduğu vəzifəyə uyğun gəlib-gəlmədiyinin müəyyənləşdirilməsi;
31.4.2. dövlət qulluqçusunun potensial imkanlarından istifadə etmək mümkünlüyünün aşkara çıxarılması, onun peşə səriştəliyini artırmağa stimullaşdırılması;

31.4.3. dövlət qulluqçusunun təcrübə, yenidənhazırlanma və ya ixtisasartırma keçməsinə zərurət dərəcəsinin müəyyənləşdirilməsi.

31.5. Attestasiyanın keçirilməsinin müddətləri və cədvəli müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmaqla müvafiq dövlət orqanı tərəfindən təsdiq edilir və attestasiyanın başlanmasına ən geci 1 ay qalmış attestasiyadan keçən dövlət qulluqçularının nəzərinə çatdırılır.

31.6. Attestasiya komissiyasının üzvləri tərəfindən dövlət qulluqçusuna yalnız tutduğu vəzifəyə, vəzifə təlimatına, ixtisasına dair, icra etdiyi işlər və onların nəticələri barədə, habelə tutduğu vəzifəyə uyğunluğunu müəyyən etmək üçün zəruri olan əmək müqaviləsi ilə müəyyən edilmiş hüquqları, qulluq funksiyalarına aid olan məsələlərlə əlaqədar suallar verilə bilər. Attestasiya olunan dövlət qulluqçusunun siyasi baxışlarına və etiqadına görə qiymətləndirilməsi yolverilməzdir.

31.7. Tutduğu vəzifədə 1 ildən az qulluq keçən, habelə staj və sınaq müddətində olan dövlət qulluqçuları növbəti attestasiyadan keçirilmirlər. Uşağa qulluq etmək üçün məzuniyyətdə olan dövlət qulluqçusu qulluq keçməsini davam etdirməyə başladıqdan sonra bir ildən tez olmayaraq attestasiyadan keçməlidirlər.

31.8. Attestasiyanın keçirilməsi üçün sədrdən, katibdən və azı digər üç komissiya üzvündən ibarət tərkibdə attestasiya komissiyası təsdiq edilir. Tərkibi vaxtaşırı dəyişən attestasiya komissiyasına yüksək ixtisaslı mütəxəssislər, elmi ekspertlər daxil edilə bilərlər.

31.9. Attestasiyadan keçməli olan hər bir dövlət qulluqçusuna attestasiyanın başlanmasına ən azı 2 həftə qalmış onun bilavasitə rəhbəri tərəfindən hazırlanmış xidməti xasiyyətnamə verilir və həmin dövlət qulluqçusu ona verilən xasiyyətnamə ilə tanış olmalıdır.

Xasiyyətnamədə dövlət qulluqçusunun xidməti fəaliyyətinə qiymət verilir, fərdi xüsusiyyətləri, güclü və zəif cəhətləri, keçən dövr ərzindəki işinin nəticələri göstərilir. Sonrakı attestasiyalarda komissiyaya habelə əvvəlki attestasiyanın attestasiya vərəqəsi təqdim edilir.

31.10. Dövlət qulluqçusu attestasiyadan keçirilərkən onun bilavasitə rəhbəri attestasiyaya dəvət edilə bilər. Attestasiya komissiyası attestasiyadan keçən dövlət qulluqçusunun fəaliyyəti haqqında onun məlumatını dinləyir və təqdim edilmiş materialları nəzərdən keçirir.

31.11. Dövlət qulluqçusu üzrlü səbəb olmadan attestasiya komissiyasının iclasına gəlmədikdə, attestasiyadan keçirilməmiş hesab edilir və həmin dövlət qulluqçusu barəsində bu Qanunun 25.2-ci maddəsində nəzərdə tutulmuş intizam tənbeh tədbirləri tətbiq edilə bilər. Dövlət qulluqçusu üzrlü səbəbdən attestasiya komissiyasının iclasına gəlmədikdə, attestasiyadan keçirilməmiş hesab edilir. Dövlət qulluqçusu üzrlü səbəb olmadan və ya üzrlü səbəbdən attestasiya komissiyasının iclasına gəlmədikdə, həmin dövlət qulluqçusu növbəti attestasiyadan keçməlidir.

31.12. Dövlət qulluqçusunun attestasiyasının nəticələri əsasında attestasiya komissiyası aşağıdakı qiymətlərdən birini verir:

31.12.1. tutduğu vəzifəyə uyğun gəlir;

31.12.2. işini yaxşılaşdırsa və komissiyanın tövsiyələrini yerinə yetirsə, bir ildən sonra təkrar attestasiyadan keçmək şərti ilə tutduğu vəzifəyə uyğun gəlir;

31.12.3. tutduğu vəzifəyə uyğun gəlmir.

31.13. Attestasiya komissiyası attestasiyanın nəticələri əsasında ayrı-ayrı dövlət qulluqçularının qazandıqları müvəffəqiyyətlərə görə mükafatlandırılması, irəli çəkilmək üçün ehtiyat kadrlar siyahısına daxil edilməsi, attestasiyadan keçən dövlət qulluqçularının təcrübə, yenidənhazırlanma və ya ixtisasartırma keçməsi, qulluq fəaliyyətinin, işinin nəticələrinin yaxşılaşdırılması, aşağı vəzifəyə keçirilməsi və ya tutduğu vəzifədən azad edilməsi haqqında tövsiyələr verə bilər. Bu halda komissiya irəli sürdüyü tövsiyələri əsaslandırmalıdır.

31.14. Dövlət qulluqçusunun fəaliyyətinə verilən qiymət və komissiyanın tövsiyələri attestasiyadan keçən dövlət qulluqçusunun iştirakı olmadan açıq səsvermə yolu ilə qəbul edilir.

31.15. Attestasiya və səsvermə attestasiya komissiyasının üzvlərinin ən azı üçdə iki hissəsinin iştirakı ilə keçirilir. Səsvermənin nəticələri səs çoxluğu ilə müəyyən edilir. Səslər bərabər olduqda, attestasiyadan keçən dövlət qulluqçusu tutduğu vəzifəyə uyğun gələn sayılır. Attestasiya komissiyasının üzvü olan dövlət qulluqçusu attestasiyadan keçərkən səsvermədə iştirak etmir. Attestasiyanın nəticələri səsvermədən dərhal sonra dövlət qulluqçusuna bildirilir.

31.16. Attestasiyanın nəticələri (qiymət və tövsiyələr) bir nüsxədə tərtib edilən, sədr, katib və attestasiya komissiyasının səsvermədə iştirak etmiş digər üzvləri tərəfindən imzalanan attestasiya vərəqəsinə yazılır.

31.17. Attestasiyadan keçən dövlət qulluqçusunun attestasiya vərəqəsi və xasiyyətnaməsi onun şəxsi işində saxlanılır və onların bir surəti attestasiyadan keçən dövlət qulluqçusuna verilir.

31.18. Attestasiya komissiyasının verdiyi qiymət əsas götürülərək, tövsiyələr nəzərə alınmaqla və qüvvədə olan qanunvericiliyə uyğun olaraq ayrı-ayrı dövlət qulluqçularının qazandıqları müvəffəqiyyətlər müqabilində mükafatlandırılması, dövlət qulluqçusunun irəli çəkilmək üçün ehtiyat kadrlar siyahısına daxil edilməsi, yuxarı vəzifəyə keçirilməsi, xidməti fəaliyyətlə bağlı təcrübə, yenidənhazırlanma və ixtisasartırma keçməsi, attestasiyanın nəticələrinə görə tutduğu vəzifəyə uyğun gəlmədiyi aşkara çıxan dövlət qulluqçusunun aşağı vəzifəyə keçirilməsi və ya tutduğu vəzifədən azad edilməsi haqqında qərarlar dövlət qulluqçusunun qulluq keçdiyi dövlət orqanının rəhbəri tərəfindən qəbul edilir.

31.19. Bu Qanunun 31.18-ci maddəsində nəzərdə tutulmuş qərarlar dövlət qulluqçusunun attestasiyadan keçdiyi gündən sonra ən geci 2 ay müddətində qəbul edilir. Bu müddət keçdikdən sonra attestasiyanın nəticələri əsasında dövlət qulluqçusunun aşağı vəzifəyə keçirilməsi və ya tutduğu vəzifədən azad edilməsi haqqında qərarlar qəbul edilə bilməz.

31.20. Dövlət qulluqçusunun üzrlü səbəbdən işə gəlmədiyi, ezamiyyətdə və məzuniyyətdə olduğu vaxt həmin 2 ay müddətinə daxil edilmir.

31.21. Dövlət qulluqçusu attestasiyanın nəticələrindən 7 iş günü müddətində müvafiq icra hakimiyyəti orqanına şikayət edə bilər. Müvafiq icra hakimiyyəti orqanı şikayətə daxil olduğu gündən sonra 20 iş günü ərzində baxır.”.

56. 32.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

“Dövlət qulluqçusu bu Qanunla müəyyən edilmiş qaydada qulluqda yüksəliş yolu ilə, habelə müsahibə və ya müsabiqə nəticəsində dövlət qulluğunda irəli çəkilə bilər.”.

57. 32.2-ci maddədə “boşalmış” sözü “vakant” sözü ilə, “təkrar hazırlıq keçməyin və ixtisas artırmağın” sözləri “yenidənhazırlanma və ixtisasartırma keçməyin” sözləri ilə əvəz edilsin.

58. 32.3-cü maddə çıxarılsın.

59. 32.4-cü maddə çıxarılsın.

60. 33-cü maddə aşağıdakı redaksiyada verilsin:

“Maddə 33. Dövlət qulluğuna xitam verilməsi

33.1. Dövlət qulluğuna aşağıdakı əsaslarla xitam verilə bilər:

33.1.1. dövlət qulluqçusunun öz arzusu ilə;

33.1.2. dövlət orqanı ləğv edildikdə;

33.1.3. dövlət qulluqçularının sayı və ya ştatları ixtisar edildikdə;

33.1.4. qanunvericiliyin tələbləri pozularaq işə qəbul edildikdə;

33.1.5. bu Qanuna uyğun olaraq yaradılmış attestasiya komissiyası tərəfindən peşəkarlıq, işgüzarlıq və mənəvi keyfiyyətləri səviyyəsinin kifayət dərəcədə olmadığına görə dövlət qulluqçusunun tutduğu vəzifəyə uyğun gəlmədiyi barədə verilmiş qiymət və tövsiyələr əsasında dövlət qulluqçusunun qulluq keçdiyi dövlət orqanının rəhbəri tərəfindən müvafiq qərar qəbul edildikdə;

33.1.6. Bu Qanunun 25.2.6-cı maddəsinə uyğun olaraq dövlət qulluğundan azad edildikdə;

33.1.7. Azərbaycan Respublikası vətəndaşlığından çıxdıqda;

33.1.8. qanunvericilik və ya yerli özünüidarə orqanlarına seçildikdə, habelə hakim təyin edildikdə, əgər onlar həmin vəzifələrdən imtina etmədikdə;

33.1.9. qanunvericilikdə daha uzun müddət müəyyən edilməyibsə, əmək qabiliyyətinin fasiləsiz olaraq altı aydan çox müddətə tam itirilməsi ilə əlaqədar dövlət qulluqçusu əmək funksiyasını yerinə yetirə bilmədikdə;

33.1.10. məhkəmənin qanuni qüvvəyə minmiş ittiham hökmü və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair qanuni qüvvəyə minmiş qərarı olduqda;

33.1.11. dövlət qulluqçusu vəfat etdikdə, habelə məhkəmə tərəfindən xəbərsiz itkin düşmüş hesab edildikdə və ya ölmüş elan edildikdə.

33.2. Dövlət qulluqçusu müvafiq qanunvericiliyə uyğun olaraq pensiya yaşına çatmasına görə öz arzusu ilə dövlət qulluğundan çıxdıqda, ona qanunvericiliyə uyğun olaraq digər pensiya növünün təyin edilməsindən asılı olmayaraq, ümumi qaydada hesablanmış aylıq pensiyasının 6 misli məbləğində birdəfəlik haqq verilir və bu məbləğdən vergi tutulmur.

33.3. Dövlət orqanı rəhbərinin dövlət qulluğunu davam etdirmək barədə qərarı olarsa, dövlət qulluqçusu öz arzusu ilə dövlət qulluğundan çıxmaq barədə ərizəni verdiyi gündən 1 ay ərzində dövlət qulluğunu davam etdirməlidir. Zərurət olduqda, həmin müddət dövlət orqanının rəhbəri tərəfindən əlavə olaraq 1 ay müddətinədək uzadıla bilər.”.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 2 iyun 2008-ci il.

# "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, №1, maddə 1, №3, maddə 131; 2002-ci il, №12, maddə 693; 2003-cü il, №1, maddə 16; 2004-cü il, №1, maddə 10, №4, maddə 199, №5, maddə 321, №8, maddə 597, №11, maddə 884; 2005-ci il, №6, maddələr 463, 475, №10, maddə 874; 2006-cı il, №5, maddə 386, №6, maddə 479, №8, maddə 657, №11, maddə 927, №12, maddələr 1005, 1014; 2007-ci il, №2, maddə 83, №5, maddə 434, №7, maddə 711; №10, maddə 934, №11, maddələr 1049, 1074, 1078, №12, maddələr 1213, 1219; 2008-ci il, №3, maddə 153; Azərbaycan Respublikasının 2008-ci il 12 fevral tarixli 546-IIIQD nömrəli, 1 aprel tarixli 579-IIIQD nömrəli qanunları) aşağıdakı əlavələr edilsin:

1. 8.1.4-cü maddədə "Ağır Cinayətlərə dair İşlər üzrə Naxçıvan Muxtar Respublikasının Məhkəməsi," sözlərindən sonra "Naxçıvan Muxtar Respublikasının ərazisində Ağır cinayətlərə dair işlər üzrə hərbi məhkəmənin yurisdiksiyasını həyata keçirən müvafiq hərbi məhkəmə," sözləri əlavə edilsin;

2. 8.1.7-ci maddədə "hərbi məhkəmələr" sözlərindən sonra "(Naxçıvan Muxtar Respublikasının ərazisində Ağır cinayətlərə dair işlər üzrə hərbi məhkəmənin yurisdiksiyasını həyata keçirən müvafiq hərbi məhkəmə istisna olmaqla)" sözləri əlavə edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 13 iyun 2008-ci il.

# “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa əlavə və dəyişikliklər edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi qərara a l ı r:

I. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 1, maddə 1, № 3, maddə 131; 2002-ci il, № 12, maddə 693; 2003-cü il, № 1, maddə 16; 2004-cü il, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005-ci il, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006-cı il, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007-ci il, № 2, maddə 83, № 5, maddə 434, № 7, maddə 711, № 10, maddə 934, № 11, maddələr 1049, 1074, 1078, № 12, maddələr 1213, 1219; 2008-ci il, № 3, maddə 153, № 5, maddələr 326, 341, № 6, maddələr 471, 481, № 10, maddə 881) aşağıdakı əlavə və dəyişikliklər edilsin:

1. 8.1.1-ci maddədə “və ya” sözləri “və yuxarı dövlət orqanı və ya” sözləri ilə əvəz edilsin, “Məhkəmə-Hüquq Şurasının Aparatı” sözlərindən əvvəl “müvafiq icra hakimiyyəti orqanı,” sözləri əlavə edilsin.

2. 8.1.2-ci maddədən “yuxarı dövlət orqanı və” və “müvafiq icra hakimiyyəti orqanı və” sözləri çıxarılsın.

3. 8.1.7-ci, 11.1.7-ci, 11.1.8-ci və 11.1.9-cu maddələrdə “ikili tabelikdə olan” və “regional” sözləri çıxarılsın.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 30 dekabr 2008-ci il.

# "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır :

I. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 1, maddə 1, № 3, maddə 131; 2002-ci il, № 12, maddə 693; 2003-cü il, № 1, maddə 16; 2004-cü il, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005-ci il, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006-cı il, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007-ci il, № 2, maddə 83, № 5, maddə 434, № 7, maddə 711, № 10, maddə 934, № 11, maddələr 1049, 1074, 1078, № 12, maddələr 1213, 1219; 2008-ci il, № 3, maddə 153, № 5, maddələr 326, 341, № 6, maddələr 471, 481, № 10, maddə 881; Azərbaycan Respublikasının 2008-ci il 30 dekabr tarixli 755-IIIQD nömrəli Qanunu) aşağıdakı dəyişiklikər və əlavələr edilsin:

1. 29.2-ci maddənin dördüncü hissəsində "29.4-29.8-ci" sözləri "29.4-cü, 29.6-29.8-ci" sözləri ilə əvəz edilsin.

2. 29.3-cü maddəyə aşağıdakı məzmunda ikinci və üçüncü hissələr əlavə edilsin: "İnzibati vəzifələrin altıncı–doqquzuncu təsnifatlarına uyğun olan vəzifələrin tutulması məqsədi ilə dövlət orqanı rəhbərinin qərarı əsasında, ilk növbədə, həmin dövlət orqanında inzibati vəzifələrdə qulluq keçən və inzibati vəzifələrin təsnifatına uyğun ixtisas dərəcəsi olan dövlət qulluqçularının iştirakını nəzərdə tutan müsahibə keçirilə bilər. Müsahibə bu Qanunun 29.4-29.9-cu maddələrinin tələbləri nəzərə alınmaqla, bu Qanunun 29.6-cı maddəsində nəzərdə tutulmuş qaydada keçirilir.

Bu maddənin ikinci hissəsinə uyğun olaraq keçirilən müsahibə nəticəsində müvafiq inzibati vəzifə tutulmadıqda, dövlət orqanı rəhbərinin müvafiq qərarı əsasında bu Qanunun 29.4-29.9-cu maddələrinə uyğun olaraq bu maddənin birinci hissəsində nəzərdə tutulmuş digər şəxslərin iştirakını nəzərdə tutan müsahibə və ya bu Qanunun 28-ci maddəsində nəzərdə tutulmuş qaydada müsabiqə keçirilə bilər.".

3. 29.4-cü maddədə:

3.1. "Müsahibə" sözü "Bu Qanunun 29.3-cü maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş hal istisna olmaqla, müsahibə" sözləri ilə əvəz edilsin;

3.2. maddəyə aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

"Müsahibənin bu Qanunun 29.3-cü maddəsinin ikinci hissəsinə uyğun keçirilməsi barədə dövlət orqanı rəhbərinin qərarı müsahibənin keçirilməsi tarixinə bir ay qalmış həmin dövlət orqanında rəsmi elan olunur.".

4. 29.5-ci maddəyə aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

"Bu maddənin birinci hissəsi məhkəmə hakimiyyəti orqanlarında inzibati vəzifələrin altıncı–doqquzuncu təsnifatlarına uyğun olan vəzifələrin həmin orqanlarda qulluq keçən şəxslərin iştirakı ilə tutulmasına şamil olunmur.".

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 28 aprel 2009-cu il.

# "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikasının Əmək Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 4, maddə 213; 2001-ci il, № 3, maddə 143, № 6, maddə 362, № 11, maddələr 672, 679, № 12, maddə 731; 2002-ci il, № 1, maddə 2, № 5, maddə 241, № 6, maddə 328; 2003-cü il, № 1, maddələr 9, 23; 2004-cü il, № 1, maddə 10, № 2, maddə 57, № 3, maddə 133, № 6, maddə 413, № 7, maddə 505, № 9, maddə 672, № 12, maddə 981; 2005-ci il, № 3, maddə 151, № 4, maddə 278, № 7, maddə 560, № 10, maddə 874, № 11, maddə 1001, № 12, maddə 1094; 2006-cı il, № 3, maddələr 220, 222, № 5, maddə 385, № 11, maddə 923, № 12, maddələr 1004, 1025, 1030; 2007-ci il, № 5, maddələr 401, 437, № 6, maddə 560, № 8, maddə 756, № 11, maddələr 1049, 1053; 2008-ci il, № 3, maddə 156, № 7, maddələr 600, 602; № 10, maddə 887, № 11, maddə 960) 114-cü maddəsinin 3-cü hissəsinin "b" bəndində "çalışan" sözü "qulluq keçən" sözləri ilə əvəz edilsin.

II. "Polis haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 11, maddə 611; 2001-ci il, № 11, maddə 699, № 12, maddə 731; 2002-ci il, № 3, maddə 118, № 6, maddə 328; 2003-cü il, № 1, maddə 22, № 8, maddə 424; 2004-cü il, № 2, maddə 57, № 3, maddə 133; 2006-cı il, № 2, maddələr 74, 75, № 11, maddə 927; 2007-ci il, № 8, maddə 756; 2008-ci il, № 4, maddə 251, № 7, maddə 602, № 8, maddə 696; Azərbaycan Respublikasının 2008-ci il 2 oktyabr tarixli 690-IIIQD nömrəli Qanunu) 28-ci maddəsinin I hissəsində "aşağı olmayan" sözlərindən sonra "və Azərbaycan Respublikasının dövlət dilini sərbəst bilən" sözləri əlavə edilsin.

III. "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 12, maddə 688; 2000-ci il, № 7, maddə 494; 2002-ci il, № 8, maddə 464; 2004-cü il, № 1, maddə 10, № 2, maddə 57, № 3, maddə 133, № 4, maddə 202; 2005-ci il, № 10, maddələr 874, 876, 902; 2006-cı il, № 11, maddə 927; 2007-ci il, № 1, maddə 1, № 2, maddə 82) 29-cu maddəsinin birinci hissəsində "keyfiyyətlərinə malik" sözlərindən sonra "və Azərbaycan Respublikasının dövlət dilini sərbəst bilən" sözləri əlavə edilsin, beşinci hissəsinin ikinci cümləsində "bir illik" sözləri "altı aylıq" sözləri ilə əvəz edilsin.

IV. Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 1, maddə 12; 2001-ci il, № 12, maddələr 731, 736; 2004-cü il, № 2, maddə 57; 2005-ci il, № 4, maddə 274, № 7, maddə 590; 2006-cı il, № 11, maddə 926; 2007-ci il, № 1, maddə 1, № 8, maddə 756, № 11, maddə 1078; 2008-ci il, № 3, maddə 155) ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"yə aşağıdakı dəyişikliklər və əlavələr edilsin:

1. 1-ci maddədə "dövlət xidmətinin" sözləri "dövlət qulluğunun" sözləri ilə əvəz edilsin.
2. 10-cu maddədə "yerinə yetirə" sözlərindən sonra "və Azərbaycan Respublikasının dövlət dilini sərbəst" sözləri əlavə edilsin.

V. Azərbaycan Respublikasının 2001-ci il 12 iyun tarixli 141-IIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 7, maddə 443; 2006-cı il, № 6, maddə 486, № 11, maddə 927, № 12, maddə 1013; 2007-ci il, № 1, maddə 1, № 5, maddə 441, № 8, maddə 756, № 11, maddə 1078; 2008-ci il, № 3, maddə 155, № 4, maddə 253) ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"nin 7-ci maddəsində "malik olan" sözlərindən sonra "və Azərbaycan Respublikasının dövlət dilini sərbəst bilən" sözləri əlavə edilsin.

VI. "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 7, maddə 452, № 12, maddə 731; 2002-ci il, № 12, maddə 706; 2005-ci il, № 10, maddə 902; 2006-cı il, № 11, maddə 927; 2007-ci il, № 1, maddələr 1, 4,

№ 2, maddə 82, № 6, maddə 570, № 8, maddə 756, № 11, maddələr 1078, 1081; 2008-ci il, № 3, maddə 155, № 4, maddə 250, № 8, maddə 696) aşağıdakı dəyişikliklər edilsin:

1. 2.2-ci maddədə “girmək” sözü “qəbul edilmək” sözləri ilə əvəz edilsin.
2. 3.3-cü maddədə “əmək münasibətləri” sözlərindən sonra “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə, dövlət qulluqçusu olmayan işçilərin (xadimə, dalandar, bağban, gözətçi, ocaqçı, ixtisas dərəcəsi olmayan fəhlə və s.) isə əmək münasibətləri” sözləri əlavə edilsin
3. 4.4-cü maddənin ikinci cümləsində “söhbətdən” sözü “müsahibədən” sözü ilə əvəz edilsin.
4. 5.2-ci maddənin üçüncü cümləsində “bir illik” sözləri “altı aylıq” sözləri ilə əvəz edilsin.

VII. Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 168-IIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 7, maddə 453, № 12, maddə 731; 2004-cü il, № 10, maddə 760; 2005-ci il, № 4, maddə 280, № 10, maddələr 871, 872; 2006-cı il, № 10, maddə 846, № 11, maddə 927; 2007-ci il, № 8, maddə 756, № 11, maddələr 1073, 1081; 2008-ci il, № 3, maddə 155; Azərbaycan Respublikasının 2008-ci il 2 oktyabr tarixli 689-IIIQD nömrəli Qanunu) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə”yə aşağıdakı dəyişikliklər və əlavə edilsin:
1. 2-ci maddənin ikinci hissəsində “girmək” sözü “qəbul edilmək” sözləri ilə əvəz edilsin.
2. 11-ci maddənin birinci hissəsində “dövlət dilini” sözlərindən sonra “sərbəst” sözü əlavə edilsin.
3. 16-cı maddənin birinci cümləsində “söhbətdən” sözü “müsahibədən” sözü ilə əvəz edilsin.

VIII. “Diplomatik xidmət haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 9, maddə 567; 2002-ci il, № 12, maddə 703; 2004-cü il, № 6, maddə 414; 2005-ci il, № 10, maddə 873; 2008-ci il, № 3, maddə 155) preambulasında “bir” sözü “xüsusi” sözü ilə, 7.1-ci maddəsində “və sağlamlıq vəziyyətinə malik olan” sözləri “, sağlamlıq vəziyyətinə malik olan və Azərbaycan Respublikasının dövlət dilini sərbəst bilən” sözləri ilə əvəz edilsin.

IX. Azərbaycan Respublikasının 2002-ci il 29 mart tarixli 283-IIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 5, maddə 217; 2003-cü il, № 12 (I kitab), maddə 671; 2006-cı il, № 5, maddə 386, № 8, maddə 697) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında Əsasnamə”nin 2.1.7-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

“dövlət qulluqçularının peşə hazırlığı, təcrübə, yenidənhazırlanma və ixtisasartırma keçmə sahəsində işlərin təhlili və bununla bağlı təkliflərin hazırlanması;”.

X. “Dövlət qulluqçularının icbari sığortası haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 5, maddə 247; 2003-cü il, № 12 (I kitab), maddə 671; 2005-ci il, № 8, maddə 692; 2007-ci il, № 6, maddə 560; 2008-ci il, № 6, maddə 462, № 7, maddə 602) 5.3-cü maddəsində “Sığorta olunan işdən çıxdıqda və ya başqa işə keçdikdə” sözləri “Dövlət qulluğuna xitam verilmiş və ya başqa işə keçmiş sığorta olunan” sözləri ilə əvəz edilsin.

XI. “Dövlət qulluqçusu üçün hakimiyyət səlahiyyətinin icrasına görə əlavə haqqın təyin edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 7, maddə 386; 2003-cü il, № 12 (I kitab), maddə 671) 4-cü maddəsində “işlədiyi” sözü “qulluq keçdiyi” sözləri ilə əvəz edilsin.

XII. “Dövlət qulluqçularının vəzifə maaşlarına yerli əmsalların müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 7, maddə 387) 2-ci maddəsində “çalışan” sözü “qulluq keçən” sözləri ilə, 3-cü maddəsinin ikinci hissəsində və 4-cü maddəsində “işlədiyi” sözü “qulluq keçdiyi” sözləri ilə əvəz edilsin.

XIII. “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 3, maddə 208, № 12, maddə 1019; 2007-ci il, № 12, maddə 1194; 2008-ci il, № 4, maddə 254, № 6, maddə 464, № 7, maddə 602, № 8, maddələr 699, 710) 20.1.7-ci və 20.1.8-ci maddələrində “işdən azad edilmiş” sözləri “dövlət qulluğuna xitam verilmiş” sözləri ilə əvəz edilsin.

XIV. "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 7, maddə 586; 2007-ci il, № 1, maddə 1, № 8, maddə 756, № 11, maddələr 1078, 1081; 2008-ci il, № 3, maddə 155, № 6, maddələr 462, 481, № 8, maddə 710) aşağıdakı dəyişikliklər və əlavələr edilsin:

1. 2.2-ci maddədə "girmək" sözü "qəbul edilmək" sözləri ilə əvəz edilsin.

2. 4.1-ci maddədə "milliyyətindən," sözündən sonra "dinindən," sözü əlavə edilsin, "dinə münasibətindən," sözləri çıxarılsın və "malik olan" sözlərindən sonra "və Azərbaycan Respublikasının dövlət dilini sərbəst bilən" sözləri əlavə edilsin.

3. 6.1-ci maddənin birinci cümləsində "altı aylıq" sözləri "bir illik" sözləri ilə, ikinci cümləsində "bir illik" sözləri "altı aylıq" sözləri ilə əvəz edilsin.

4. aşağıdakı məzmunda 16.3-cü maddə əlavə edilsin:

"16.3. Ədliyyə orqanları işçisinin təcrübə, yenidənhazırlanma və ixtisasartırma keçməsi vaxtı ədliyyə orqanlarında iş stajına hesablanır, qulluq illərinə görə əlavələr və pensiya təyin olunarkən nəzərə alınır.".

5. 40.1.9-cu maddədə "4.5-ci" sözü "4.6-cı" sözü ilə əvəz edilsin.

XV. "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 8, maddə 750) aşağıdakı dəyişikliklər edilsin:

1. 11.1-ci maddədə "milliyyətinə," sözündən sonra "dininə," sözü əlavə edilsin, "dinə münasibətinə," sözləri çıxarılsın.

2. 13.1-ci maddənin ikinci cümləsində və 13.2-ci maddədə "işlədiyi" sözü "qulluq keçdiyi" sözləri ilə əvəz edilsin.

3. 15.3-cü maddədə:

3.1. birinci cümlədə "işə" sözü "vəzifəyə" sözü ilə əvəz edilsin;

3.2. ikinci cümlə aşağıdakı redaksiyada verilsin:

"Dövlət qulluğuna xitam verildikdən sonra dövlət qulluqçusu qanunvericiliklə müəyyən edilmiş müddət ərzində əvvəllər fəaliyyətinə nəzarət etdiyi idarə, müəssisə, təşkilatlara və ya onların bölmələrinə işə qəbul edilə bilməz.".

XVI. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 28 aprel 2009-cu il.

# “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununa əlavə edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır :

I. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 1, maddə 1, № 3, maddə 131; 2002-ci il, № 12, maddə 693; 2003-cü il, № 1, maddə 16; 2004-cü il, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005-ci il, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006-cı il, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007-ci il, № 2, maddə 83, № 5, maddə 434, № 7, maddə 711, № 10, maddə 934, № 11, maddələr 1049, 1074, 1078, № 12, maddələr 1213, 1219; 2008-ci il, № 3, maddə 153, № 5, maddələr 326, 341, № 6, maddələr 471, 481, № 10, maddə 881; 2009-cu il, № 2, maddə 54; Azərbaycan Respublikasının 2009-cu il 28 aprel tarixli 806-IIIQD nömrəli Qanunu) 2.3-cü maddəsinin birinci hissəsində “sərhəd xidməti” sözlərindən sonra “, miqrasiya xidməti” sözləri əlavə edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 26 may 2009-cu il.

# “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 1, maddə 1, № 3, maddə 131; 2002-ci il, № 12, maddə 693; 2003-cü il, № 1, maddə 16; 2004-cü il, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005-ci il, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006-cı il, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007-ci il, № 2, maddə 83, № 5, maddə 434, № 7, maddə 711, № 10, maddə 934, № 11, maddələr 1049, 1074, 1078, № 12, maddələr 1213, 1219; 2008-ci il, № 3, maddə 153, № 5, maddələr 326, 341, № 6, maddələr 471, 481, № 10, maddə 881; 2009-cu il, № 2, maddə 54; № 5, maddə 311; Azərbaycan Respublikasının 2009-cu il 26 may tarixli 820-IIIQD nömrəli Qanunu) aşağıdakı əlavələr və dəyişikliklər edilsin:

1. 8-ci maddə üzrə:

1.1. 8.1.1-ci maddədə “Məhkəmə-Hüquq Şurasının Aparatı” sözlərindən əvvəl “Naxçıvan Muxtar Respublikasının Ali Məclisi,” sözləri əlavə edilsin;

1.2. 8.1.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

“8.1.2. əsas səlahiyyətləri Azərbaycan Respublikasının Konstitusiyası və ya Azərbaycan Respublikasının Konstitusiya qanunları ilə müəyyən edilən dövlət orqanları – müvafiq icra hakimiyyəti orqanı, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi, Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) Aparatı (2-ci kateqoriya dövlət orqanları);”;

1.3. 8.1.3-cü maddədən “müvafiq icra hakimiyyəti orqanı, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi” sözləri çıxarılsın;

1.4. 8.1.4-cü maddədən “Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) Aparatı” sözləri çıxarılsın.

2. 17.3-cü maddə üzrə:

2.1. birinci hissə aşağıdakı redaksiyada verilsin:

“İnzibati vəzifələrin birinci təsnifatı istisna olmaqla, ikinci-üçüncü təsnifat inzibati vəzifələri tutan dövlət qulluqçusunun həmin təsnifat üzrə ixtisas dərəcəsi alması üçün dövlət qulluğunda azı 10 il qulluq stajı, həmin təsnifatlara daxil olan vəzifələrdə azı 3 il qulluq stajı olmalıdır.”;

2.2. beşinci hissədə “birinci və ikinci hissələrində” sözləri “ikinci hissəsində” sözləri ilə əvəz edilsin.

3. 28-ci maddə üzrə:

3.1. 28.4-cü maddədən “vahid” sözü çıxarılsın;

3.2. 28.5-ci maddənin ikinci cümləsi çıxarılsın;

3.3. 28.6-cı maddə üzrə:

3.3.1. birinci cümlədə “namizədlər” sözündən sonra “vakant vəzifəyə təyin edilmək üçün” sözləri əlavə edilsin;

3.3.2. ikinci cümlədə “qəbul edir və vakant vəzifəyə təyin edir” sözləri “qəbul etməli və vakant vəzifəyə təyin etməlidir” sözləri ilə əvəz edilsin;

3.3.3. üçüncü-səkkizinci cümlələr müvafiq olaraq dördüncü-doqquzuncu cümlələr hesab edilsin və aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

“Dövlət orqanının rəhbəri namizədlərin təqdim olunduğu gündən 10 iş günü müddətində qəbul etdiyi müvafiq qərar barədə müvafiq icra hakimiyyəti orqanına məlumat verməlidir.”.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 30 sentyabr 2009-cu il.

# "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 1, maddə 1, № 3, maddə 131; 2002-ci il, № 12, maddə 693; 2003-cü il, № 1, maddə 16; 2004-cü il, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005-ci il, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006-cı il, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007-ci il, № 2, maddə 83, № 5, maddələr 434, 436, № 7, maddə 711, № 10, maddə 934, № 11, maddələr 1049, 1074, 1078, № 12, maddələr 1213, 1219; 2008-ci il, № 3, maddə 153, № 5, maddələr 326, 341, № 6, maddələr 471, 481, № 7, maddə 602, № 8, maddə 699, № 10, maddə 881; 2009-cu il, № 2, maddə 54, № 5, maddə 311, № 6, maddə 403, № 10, maddə 771, № 11, maddə 878, № 12, maddə 964; 2010-cu il, № 4, maddə 276) aşağıdakı dəyişikliklər və əlavələr edilsin:

1. 28.2-ci maddənin üçüncü cümləsi aşağıdakı redaksiyada verilsin:

"Müvafiq dövlət orqanı vakant olan vəzifələr barədə mütəmadi olaraq (ən azı ayda bir dəfə) müvafiq icra hakimiyyəti orqanına məlumat verməlidir.".

2. 28.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"28.3. Müsabiqədə iştirak etmək istəyənlər müsabiqə elan edilən gündən etibarən 30 gün ərzində müvafiq icra hakimiyyəti orqanına müraciət edə bilərlər. Forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən müraciət elektron və ya kağız daşıyıcılar vasitəsilə göndərilə bilər.".

3. 28.4-cü maddənin birinci cümləsində "sənədlərin qəbulu başa çatdıqdan sonra 30 gün ərzində keçirilir və" sözləri çıxarılsın.

4. 28.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

"28.5. Test imtahanından müvəffəqiyyətlə çıxanlar sənədlərini 10 iş günü ərzində müvafiq icra hakimiyyəti orqanına təqdim edir və müsahibəyə buraxılırlar. Müsahibə sənədlərin qəbulu başa çatdıqdan sonra 30 gün ərzində keçirilir.".

5. 28.6-cı maddədə "vakant vəzifəyə təyin edilmək üçün" sözlərindən sonra "5 iş günü müddətində" sözləri əlavə edilsin.

6. Aşağıdakı məzmunda 28.6-1-ci maddə əlavə edilsin:

"28.6-1. Bu Qanunun 28.6-cı maddəsində nəzərdə tutulmuş staj və sınaq müddəti müvafiq icra hakimiyyəti orqanında inzibati vəzifələrin altıncı-doqquzuncu təsnifatlarına uyğun olan vakant vəzifələr üzrə müsahibə əsasında ilk dəfə dövlət qulluğuna qəbul edilən şəxslərə də şamil edilir.".

7. 29.2-ci maddənin birinci hissəsinə aşağıdakı məzmunda ikinci və üçüncü cümlələr əlavə edilsin:

"Dövlət orqanının rəhbəri inzibati vəzifələrin altıncı-doqquzuncu təsnifatlarına uyğun olan vakant vəzifə yarandığı gündən bir ay ərzində müsabiqənin, ümumi müsahibənin və ya daxili müsahibənin keçirilməsi barədə qərar qəbul etməlidir. Müvafiq icra hakimiyyəti orqanı və müsabiqə (müsahibə) barədə qərar qəbul edən müvafiq dövlət orqanı həmin müsabiqə və müsahibələrin ədalətli, şəffaf və operativ keçirilməsini təmin etməlidirlər.".

8. 29.3-cü maddə üzrə:

8.1. ikinci hissənin birinci cümləsində "dövlət qulluqçularının iştirakını nəzərdə tutan müsahibə" sözlərindən sonra "(daxili müsahibə)" sözləri əlavə edilsin;

8.2. üçüncü hissədə "digər şəxslərin iştirakını nəzərdə tutan müsahibə" sözlərindən sonra "(ümumi müsahibə)" sözləri əlavə edilsin;

8.3. aşağıdakı məzmunda dördüncü hissə əlavə edilsin:

"Bu maddəyə uyğun olaraq müvafiq inzibati vəzifənin müsahibə yolu ilə tutulması həyata keçirildikdə qanunvericiliklə müəyyən edilmiş vakant vəzifələrin tutulmasının ümumi şərtlərinin tələbləri gözlənilməlidir.".

9. 29.4-cü maddənin birinci hissəsində "inzibati vəzifənin aid olduğu dövlət orqanı və ya həmin" sözləri "müvafiq" sözü ilə əvəz edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 1 fevral 2011-ci il.

# "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndinə əsasən **qərara alır:**

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 1, maddə 1, № 3, maddə 131; 2002-ci il, № 12, maddə 693; 2003-cü il, № 1, maddə 16; 2004-cü il, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005-ci il, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006-cı il, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007-ci il, № 2, maddə 83, № 5, maddələr 434, 436, № 7, maddə 711, № 10, maddə 934, № 11, maddələr 1049, 1074, 1078, № 12, maddələr 1213, 1219; 2008-ci il, № 3, maddə 153, № 5, maddələr 326, 341, № 6, maddələr 471, 481, № 7, maddə 602, № 8, maddə 699, № 10, maddə 881; 2009-cu il, № 2, maddə 54, № 5, maddə 311, № 6, maddə 403, № 10, maddə 771, № 11, maddə 878, № 12, maddə 964; 2010-cu il, № 4, maddə 276; 2011-ci il, № 3, maddə 165) aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 32-1-ci maddə əlavə edilsin:

"Maddə 32-1. Dövlət qulluğunda olmanın yaş həddi

32-1.1. Dövlət qulluqçusunun dövlət qulluğunda olmasının yaş həddi 65-dir.

32-1.2. 65 yaşına çatmış dövlət qulluqçusunun dövlət qulluğunda olma müddəti müvafiq dövlət orqanının rəhbəri tərəfindən hər dəfə 1 ildən çox olmayaraq uzadıla bilər. Dövlət qulluqçusunun dövlət qulluğunda olma müddətinin 5 ildən çox uzadılmasına yol verilmir.

32-1.3. İnzibati vəzifələrin birinci-dördüncü təsnifatına aid vəzifələrdə qulluq keçən dövlət qulluqçusunun dövlət qulluğunda olma müddəti müvafiq dövlət orqanının razılığı əsasında bu Qanunun

32-1.2-ci maddəsində nəzərdə tutulmuş müddətdən artıq uzadıla bilər.

32-1.4. Bu Qanunun 32-1.2-ci maddəsinə uyğun olaraq dövlət orqanına aid edilən sahədə dövlət qulluğunda olma müddəti uzadılmış dövlət qulluqçularının sayı həmin dövlət orqanının vahid sistemini təşkil edən qurumların işçilərinin ümumi sayının 15 faizindən artıq ola bilməz.

32-1.5. Dövlət orqanının aparatının və tabeliyində olan qurumun çalışma müddəti uzadılmış işçilərinin sayı müvafiq olaraq onun aparatının və tabeliyində olan həmin qurumun işçilərinin sayının 2 faizindən artıq ola bilməz.

32-1.6. Dövlət orqanının aparatında və ya tabeliyində olan qurumunda dövlət qulluqçularının sayı 100 nəfərdən az olduqda, çalışma müddəti uzadılmış işçilərin sayı iki ştat vahidinə qədər yuvarlaqlaşdırılır.

32-1.7. Dövlət qulluqçusunun dövlət qulluğunda olma müddətinin uzadılmasına onun razılığı əsasında yol verilir.

32-1.8. Bu Qanunun 32-1.2-ci maddəsi tətbiq edilərkən aşağıdakılar nəzərə alınır:

32-1.8.1. dövlət qulluğunda intizam tənbeh tədbirlərinin tətbiq edilməməsi;

32-1.8.2. elmi dərəcənin və ya elmi adın olması;

32-1.8.3. dövlət təltifi ilə təltif edilmə;

32-1.8.4. attestasiyadan üç dəfə müvəffəqiyyətlə keçmə.".

2. 33.1.11-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 33.1.12-ci maddə əlavə edilsin:

"33.1.12. dövlət qulluğunda olmanın yaş həddinə çatdıqda.".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 17 may 2011-ci il.

# "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq **qərara alır :**

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1, № 3, maddə 131; 2002, № 12, maddə 693; 2003, № 1, maddə 16; 2004, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007, № 2, maddə 83, № 5, maddələr 434, 436, № 7, maddə 711, № 10, maddə 934, № 11, maddələr 1049, 1074, 1078, № 12, maddələr 1213, 1219; 2008, № 3, maddə 153, № 5, maddələr 326, 341, № 6, maddələr 471, 481, № 7, maddə 602, № 8, maddə 699, № 10, maddə 881; 2009, № 2, maddə 54, № 5, maddə 311, № 6, maddə 403, № 10, maddə 771, № 11, maddə 878, № 12, maddə 964; 2010, № 4, maddə 276; 2011, № 3, maddə 165, № 6, maddə 463) aşağıdakı dəyişikliklər edilsin:

1. 8.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"8.1. Dövlət orqanları onların statusu, iyerarxiyası və yurisdiksiyası (ölkə, regional və yerli səviyyədə) nəzərə alınmaqla aşağıdakı kateqoriyalar üzrə təsnifatlaşdırılır:

8.1.1. əsas səlahiyyətləri Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsinin III hissəsinə əsasən müəyyən edilən Azərbaycan Respublikasının qanunvericilik, icra və məhkəmə hakimiyyətinin ən yüksək dövlət orqanları, habelə yuxarı icra orqanı – Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən və icra səlahiyyətlərini həyata keçirən orqanlar, Azərbaycan Respublikasının Milli Məclisi, Ali konstitusiya ədalət mühakiməsi səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi (Ali kateqoriya dövlət orqanları);

8.1.2. əsas səlahiyyətləri Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Konstitusiya qanunları və Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilən dövlət orqanları – Azərbaycan Respublikasının Ali Məhkəməsi, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi, Azərbaycan Respublikasının Hesablama Palatası, Məhkəmə-Hüquq Şurasının Aparatı, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkilinin (ombudsmanın) Aparatı (1-ci kateqoriya dövlət orqanları);

8.1.3. əsas səlahiyyətləri Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Konstitusiya qanunları, Azərbaycan Respublikasının qanunları ilə və Azərbaycan Respublikasının Konstitusiyasının 113-cü maddəsi ilə müəyyən edilən dövlət orqanları – Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi, Naxçıvan Muxtar Respublikasının müvafiq icra hakimiyyəti orqanı, Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) Aparatı, Azərbaycan Respublikasının apelyasiya məhkəmələri, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Aparatı, Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının Katibliyi, müvafiq icra hakimiyyəti orqanları, Milli Televiziya və Radio Şurasının Aparatı (2-ci kateqoriya dövlət orqanları);

8.1.4. əsas səlahiyyətləri Azərbaycan Respublikası Konstitusiyasının 113-cü və 124-cü maddələri ilə və qanunla müəyyən edilən dövlət orqanları – müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətləri, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) regional mərkəzləri, Naxçıvan Muxtar Respublikasının Mərkəzi Seçki Komissiyasının Aparatı, Naxçıvan Muxtar Respublikasının müvafiq icra hakimiyyəti orqanları, Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının Aparatı, ağır cinayətlər məhkəmələri, inzibati-iqtisadi məhkəmələr, hərbi məhkəmələr (3-cü kateqoriya dövlət orqanları);

8.1.5. əsas səlahiyyətləri Azərbaycan Respublikası Konstitusiyasının 113-cü, 120-ci və 124-cü maddələri ilə və qanunla müəyyən edilən dövlət orqanları – müvafiq icra hakimiyyəti orqanları, müvafiq icra hakimiyyəti orqanlarının yerli bölmələri, müvafiq icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanlar, rayon (şəhər) məhkəmələri (4-cü kateqoriya dövlət orqanları);

8.1.6. əsas səlahiyyətləri Azərbaycan Respublikası Konstitusiyasının 113-cü və 124-cü maddələri ilə müəyyən edilən dövlət orqanları – müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, müvafiq icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanların yerli bölmələri, müvafiq icra hakimiyyəti orqanlarının inzibati ərazi dairələri üzrə nümayəndəlikləri (5-ci kateqoriya dövlət orqanları).".

2. 10.5-ci maddədə və 10.6-cı maddənin birinci cümləsində "1-ci - 7-ci kateqoriya" sözləri "Ali - 5-ci kateqoriya" sözləri ilə əvəz edilsin.

3. 11.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

“11.1. İnzibati vəzifələrin aşağıdakı təsnifatları vardır:

11.1.1. inzibati vəzifələrin ali təsnifatı:

11.1.1.1. Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında Administrasiya rəhbərinin vəzifəsi, Azərbaycan Respublikası Milli Məclisinin Aparat rəhbərinin vəzifəsi, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Aparat rəhbərinin vəzifəsi, Azərbaycan dövlətinin başçısının icra səlahiyyətlərini həyata keçirən orqanın Aparat rəhbərinin vəzifəsi, Azərbaycan Respublikası Dövlət müşavirlərinin vəzifəsi.

11.1.2. inzibati vəzifələrin birinci təsnifatı:

11.1.2.1. Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında Administrasiya rəhbərinin müavini, Azərbaycan Respublikası Milli Məclisinin və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin aparat rəhbərlərinin müavinləri vəzifələri, Azərbaycan dövlətinin başçısının icra səlahiyyətlərini həyata keçirən orqanın Aparat rəhbərinin müavini vəzifəsi, habelə həmin dövlət orqanlarında bölmə rəhbərlərinin vəzifələri;

11.1.2.2. Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanların rəhbərlərinin və onların birinci müavinlərinin vəzifələri;

11.1.2.3. 1-ci kateqoriya dövlət orqanları aparat rəhbərlərinin vəzifələri.

11.1.3. inzibati vəzifələrin ikinci təsnifatı:

11.1.3.1. Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında bölmə rəhbərinin müavini vəzifəsi, Azərbaycan Respublikası Milli Məclisinin və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin aparatlarında bölmə rəhbərinin müavini vəzifəsi;

11.1.3.2. Azərbaycan dövlətinin başçısının icra səlahiyyətlərini həyata keçirən orqanın Aparatında bölmə rəhbərinin müavini vəzifəsi;

11.1.3.3. Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanların rəhbərlərinin müavinlərinin vəzifələri;

11.1.3.4. 1-ci kateqoriya dövlət orqanları aparat rəhbərlərinin müavinlərinin, bölmə rəhbərlərinin vəzifələri;

11.1.3.5. Naxçıvan Muxtar Respublikasında 2-ci kateqoriya dövlət orqanları aparat rəhbərlərinin vəzifələri;

11.1.3.6. müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin rəhbərlərinin vəzifələri;

11.1.3.7. müvafiq icra hakimiyyəti orqanı rəhbərinin müavinlərinin vəzifələri.

11.1.4. inzibati vəzifələrin üçüncü təsnifatı:

11.1.4.1. Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Milli Məclisinin və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin aparatlarında mütəxəssislərin vəzifələri;

11.1.4.2. Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanların bölmə rəhbərlərinin, onların müavinlərinin və mütəxəssislərinin vəzifələri;

11.1.4.3. Azərbaycan dövlətinin başçısının icra səlahiyyətlərini həyata keçirən orqanın Aparatında mütəxəssislərin vəzifələri;

11.1.4.4. 1-ci kateqoriya dövlət orqanları bölmə rəhbərlərinin müavinlərinin vəzifələri;

11.1.4.5. 2-ci kateqoriya dövlət orqanları aparat rəhbərlərinin və onların müavinlərinin vəzifələri;

11.1.4.6. Naxçıvan Muxtar Respublikasında 2-ci kateqoriya dövlət orqanları aparat rəhbərlərinin müavinlərinin və bölmə rəhbərlərinin vəzifələri;

11.1.4.7. müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin rəhbərlərinin müavinlərinin vəzifələri.

11.1.5. inzibati vəzifələrin dördüncü təsnifatı:

11.1.5.1. 1-ci kateqoriya dövlət orqanlarının aparatlarında mütəxəssislərin vəzifələri;

11.1.5.2. 2-ci kateqoriya dövlət orqanları bölmə rəhbərlərinin və onların müavinlərinin vəzifələri;

11.1.5.3. Naxçıvan Muxtar Respublikasında 2-ci kateqoriya dövlət orqanları bölmə rəhbərlərinin müavinlərinin vəzifələri;

11.1.5.4. müvafiq icra hakimiyyəti orqanı rəhbərinin müavinlərinin vəzifələri.

11.1.6. inzibati vəzifələrin beşinci təsnifatı:

11.1.6.1. 2-ci kateqoriya dövlət orqanlarının mütəxəssislərinin vəzifələri;

11.1.6.2. Naxçıvan Muxtar Respublikasında 3-cü kateqoriya müvafiq icra hakimiyyəti orqanlarının aparat rəhbərlərinin vəzifələri;

11.1.6.3. 3-cü kateqoriya dövlət orqanları bölmə rəhbərlərinin və onların müavinlərinin vəzifələri;

11.1.6.4. 4-cü kateqoriya dövlət orqanları – müvafiq icra hakimiyyəti orqanlarının yerli bölmələrinin, müvafiq icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanların, müvafiq icra hakimiyyəti orqanının tabeliyində olan orqanların rəhbərlərinin vəzifələri;

11.1.7. inzibati vəzifələrin altıncı təsnifatı:

11.1.7.1. 3-cü kateqoriya dövlət orqanlarının mütəxəssislərinin vəzifələri;

11.1.7.2. 4-cü kateqoriya müvafiq icra hakimiyyəti orqanının bölmə rəhbərinin və onun müavininin vəzifələri;

11.1.7.3. 4-cü kateqoriya dövlət orqanları – müvafiq icra hakimiyyəti orqanlarının yerli bölmələrinin, müvafiq icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanların, müvafiq icra hakimiyyəti orqanının tabeliyində olan orqanların rəhbərlərinin müavinlərinin vəzifələri;

11.1.7.4. 5-ci kateqoriya dövlət orqanları – müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, onların yanında, tabeliyində olan orqanların yerli bölmələrinin rəhbərləri və onların müavinlərinin vəzifələri.

11.1.8. inzibati vəzifələrin yeddinci təsnifatı:

11.1.8.1. 4-cü və 5-ci kateqoriya dövlət orqanları – müvafiq icra hakimiyyəti orqanının, müvafiq icra hakimiyyəti orqanlarının yerli bölmələrinin, müvafiq icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanların, rayon (şəhər) məhkəmələrinin, müvafiq icra hakimiyyəti orqanının tabeliyində olan orqanların, müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, onların yanında, tabeliyində olan orqanların yerli bölmələrinin mütəxəssislərinin vəzifələri;

11.1.8.2. müvafiq icra hakimiyyəti orqanlarının inzibati ərazi dairələri üzrə nümayəndələrinin, onların müavinlərinin və mütəxəssislərin vəzifələri.”.

4. 11.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

“11.2. Yardımçı vəzifələrin aşağıdakı təsnifatları vardır:

11.2.1. yardımçı vəzifələrin birinci təsnifatı – Ali kateqoriya dövlət orqanlarında texniki vəzifələr;

11.2.2. yardımçı vəzifələrin ikinci təsnifatı – 1-ci kateqoriya dövlət orqanlarında texniki vəzifələr;

11.2.3. yardımçı vəzifələrin üçüncü təsnifatı – 2-ci və 3-cü kateqoriya dövlət orqanlarında texniki vəzifələr;

11.2.4. yardımçı vəzifələrin dördüncü təsnifatı – 4-cü və 5-ci kateqoriya dövlət orqanlarında texniki vəzifələr.”.

5. 11.4-cü maddədə “1 - 7-ci kateqoriya” sözləri “Ali - 5-ci kateqoriya” sözləri ilə əvəz edilsin.

6. 16.2-ci və 16.3-cü maddələr aşağıdakı redaksiyada verilsin:

“16.2. İnzibati vəzifələrin təsnifatına uyğun olaraq aşağıdakı ixtisas dərəcələri verilir:

16.2.1. inzibati vəzifələrin ali təsnifatı üzrə – həqiqi dövlət müşaviri, 1-ci dərəcə dövlət müşaviri və 2-ci dərəcə dövlət müşaviri;

16.2.2. inzibati vəzifələrin birinci təsnifatı üzrə – 1-ci dərəcə dövlət müşaviri, 2-ci dərəcə dövlət müşaviri və 3-cü dərəcə dövlət müşaviri;

16.2.3. inzibati vəzifələrin ikinci təsnifatı üzrə – 2-ci dərəcə dövlət müşaviri, 3-cü dərəcə dövlət müşaviri və dövlət qulluğunun baş müşaviri;

16.2.4. inzibati vəzifələrin üçüncü təsnifatı üzrə – dövlət qulluğunun baş müşaviri, dövlət qulluğunun müşaviri və dövlət qulluğunun kiçik müşaviri;

16.2.5. inzibati vəzifələrin dördüncü təsnifatı üzrə – dövlət qulluğunun müşaviri, dövlət qulluğunun kiçik müşaviri və 1-ci dərəcə dövlət qulluqçusu;

16.2.6. inzibati vəzifələrin beşinci təsnifatı üzrə – dövlət qulluğunun kiçik müşaviri, 1-ci dərəcə dövlət qulluqçusu və 2-ci dərəcə dövlət qulluqçusu;

16.2.7. inzibati vəzifələrin altıncı təsnifatı üzrə – 1-ci dərəcə dövlət qulluqçusu, 2-ci dərəcə dövlət qulluqçusu və 3-cü dərəcə dövlət qulluqçusu;

16.2.8. inzibati vəzifələrin yeddinci təsnifatı üzrə – 2-ci dərəcə dövlət qulluqçusu, 3-cü dərəcə dövlət qulluqçusu və kiçik dövlət qulluqçusu.

16.3. Yardımçı vəzifələrin təsnifatına uyğun olaraq aşağıdakı ixtisas dərəcələri verilir:

16.3.1. yardımçı vəzifələrin birinci təsnifatı üzrə – dövlət qulluğunun baş referenti, dövlət qulluğunun böyük referenti və dövlət qulluğunun 1-ci dərəcə referenti;

16.3.2. yardımçı vəzifələrin ikinci təsnifatı üzrə – dövlət qulluğunun böyük referenti, dövlət qulluğunun 1-ci dərəcə referenti və dövlət qulluğunun 2-ci dərəcə referenti;

16.3.3. yardımçı vəzifələrin üçüncü təsnifatı üzrə – dövlət qulluğunun 1-ci dərəcə referenti, dövlət qulluğunun 2-ci dərəcə referenti və dövlət qulluğunun 3-cü dərəcə referenti;

16.3.4. yardımçı vəzifələrin dördüncü təsnifatı üzrə – dövlət qulluğunun 2-ci dərəcə referenti, dövlət qulluğunun 3-cü dərəcə referenti və dövlət qulluğunun kiçik referenti.”.

7. 17.3-cü maddənin birinci hissəsində “birinci” sözü “ali” sözü ilə, “ikinci-üçüncü” sözləri “birinci-ikinci” sözləri ilə, ikinci hissəsində “dördüncü-yeddinci” sözləri “üçüncü-altıncı” sözləri ilə əvəz edilsin.

8. 17.4-cü maddənin ikinci abzasında “dördüncü-altıncı” sözləri “üçüncü-beşinci” sözləri ilə, üçüncü abzasında “yeddinci-doqquzuncu” sözləri “altıncı-yeddinci” sözləri ilə, beşinci abzasında “birinci-üçüncü” sözləri “birinci-ikinci” sözləri ilə, altıncı abzasında “dördüncü-altıncı” sözləri “üçüncü-dördüncü” sözləri ilə əvəz edilsin.

9. 22.3-cü maddədə “9-cu” sözü “yeddinci” sözü ilə, “6-cı” sözü “dördüncü” sözü ilə əvəz edilsin.

10. 22-1.9-cu maddədə “3-cü-7-ci” sözləri “2-ci-5-ci” sözləri ilə əvəz edilsin.

11. 28.2-ci maddədə, 28.6-1-ci maddədə, 29.2-ci maddədə hər üç halda, 29.3-cü maddədə hər iki halda və 29.5-ci maddədə “altıncı-doqquzuncu” sözləri “beşinci-yeddinci” sözləri ilə əvəz edilsin.

12. 29.1-ci maddədə “birinci-beşinci” sözləri “ali-dördüncü” sözləri ilə əvəz edilsin.

13. 32-1.3-cü maddədə “birinci-dördüncü” sözləri “ali-üçüncü” sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 20 aprel 2012-ci il.

# "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq qərara alır :

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1, № 3, maddə 131; 2002, № 12, maddə 693; 2003, № 1, maddə 16; 2004, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, №11, maddə 884; 2005, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007, № 2, maddə 83, № 5, maddələr 434, 436, № 7, maddə 711, № 10, maddə 934, № 11, maddələr 1049, 1074, 1078, № 12, maddələr 1213, 1219; 2008, № 3, maddə 153, № 5, maddələr 326, 341, № 6, maddələr 471, 481, № 7, maddə 602, № 8, maddə 699, № 10, maddə 881; 2009, № 2, maddə 54, № 5, maddə 311, № 6, maddə 403, № 10, maddə 771, № 11, maddə 878, № 12, maddə 964; 2010, № 4, maddə 276; 2011, № 3, maddə 165, № 6, maddə 463; 2012, № 5, maddə 413) aşağıdakı dəyişikliklər edilsin:

1. 8-ci maddə üzrə:

1.1. 8.1.2-ci maddəyə "Naxçıvan Muxtar Respublikasının Ali Məclisi," sözlərindən sonra "Azərbaycan Respublikasının Baş Prokurorluğu," sözləri əlavə edilsin;

1.2. 8.1.3-cü maddəyə "Naxçıvan Muxtar Respublikasının müvafiq icra hakimiyyəti orqanı," sözlərindən sonra "Azərbaycan Respublikasının Hərbi Prokurorluğu, Naxçıvan Muxtar Respublikasının Prokurorluğu," sözləri əlavə edilsin;

1.3. 8.1.4-cü maddəyə "hərbi məhkəmələr" sözlərindən sonra ", Naxçıvan Muxtar Respublikasının Hərbi Prokurorluğu, Bakı şəhər prokurorluğu" sözləri əlavə edilsin;

1.4. 8.1.5-ci maddəyə "rayon (şəhər) məhkəmələri" sözlərindən sonra ", rayon (şəhər) prokurorluqları və hərbi prokurorluqları" sözləri əlavə edilsin.

2. 11.1.8.1-ci maddəyə "rayon (şəhər) məhkəmələrinin," sözlərindən sonra "rayon (şəhər) prokurorluqlarının və hərbi prokurorluqlarının," sözləri əlavə edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 1 oktyabr 2012-ci il.

# "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq **qərara alır:**

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1, № 3, maddə 131; 2002, № 12, maddə 693; 2003, № 1, maddə 16; 2004, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007, № 2, maddə 83, № 5, maddələr 434, 436, № 7, maddə 711, № 10, maddə 934, № 11, maddələr 1049, 1074, 1078, № 12, maddələr 1213, 1219; 2008, № 3, maddə 153, № 5, maddələr 326, 341, № 6, maddələr 471, 481, № 7, maddə 602, № 8, maddə 699, № 10, maddə 881; 2009, № 2, maddə 54, № 5, maddə 311, № 6, maddə 403, № 10, maddə 771, № 11, maddə 878, № 12, maddə 964; 2010, № 4, maddə 276; 2011, № 3, maddə 165, № 6, maddə 463; 2012, № 5, maddə 413) 2.3-cü maddəsinin birinci hissəsində "sərhəd xidməti," sözlərindən sonra "xüsusi dövlət mühafizə xidməti," sözləri əlavə edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 16 oktyabr 2012-ci il.

**"Dövlət qulluqçularının icbari sığortası haqqında" Azərbaycan Respublikası Qanununun ləğv edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 27-ci bəndini rəhbər tutaraq, "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının 2010-cu il 11 may tarixli 999-IIIQ nömrəli Qanununu nəzərə alaraq qərara alır:

"Dövlət qulluqçularının icbari sığortası haqqında" Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 247; 2003, № 12 (I kitab), maddə 671; 2005, № 8, maddə 692; 2007, № 6, maddə 560; 2008, № 6, maddə 462, № 7, maddə 602; 2009, №6, maddə 399) ləğv edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 4 aprel 2014-cü il.

## “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq qərara alır:

“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1, № 3, maddə 131; 2002, № 12, maddə 693; 2003, № 1, maddə 16; 2004, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007, № 2, maddə 83, № 5, maddələr 434, 436, № 7, maddə 711, № 10, maddə 934, № 11, maddələr 1049, 1074, 1078, № 12, maddələr 1213, 1219; 2008, № 3, maddə 153, № 5, maddələr 326, 341, № 6, maddələr 471, 481, № 7, maddə 602, № 8, maddə 699, № 10, maddə 881; 2009, № 2, maddə 54, № 5, maddə 311, № 6, maddə 403, № 10, maddə 771, № 11, maddə 878, № 12, maddə 964; 2010, № 4, maddə 276; 2011, № 3, maddə 165, № 6, maddə 463; 2012, № 5, maddə 413, № 10, maddə 945; № 11, maddə 1049) aşağıdakı dəyişikliklər edilsin:

1. 31.5-ci maddədə “müddətləri və cədvəli” sözləri “müddətləri, cədvəli və bu Qanunun 31.6-cı maddəsində göstərilən sualların hazırlanmasında istifadə olunan hüquqi aktların və digər məlumat mənbələrinin siyahısı” sözləri ilə əvəz edilsin;

2. 31.6-cı maddənin ikinci cümləsində “qulluqçusunun” sözü “qulluqçusuna onun xidməti fəaliyyətinə bilavasitə aid olmayan sualların verilməsi, habelə onun” sözləri ilə əvəz edilsin;

3. 31.16-cı maddəyə “bir nüsxədə” sözlərindən əvvəl “, habelə attestasiya zamanı verilən suallar və cavablar” sözləri əlavə edilsin;

4. Aşağıdakı məzmunda 31.22-ci maddə əlavə edilsin:

“31.22. Dövlət qulluqçusunun attestasiyasının keçirilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.”.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 30 dekabr 2014-cü il.

**“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

**Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq, “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununu “Azərbaycan Respublikasının vətəndaşlığı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2014-cü il 30 may tarixli 973-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alır:

“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1, № 3, maddə 131; 2002, № 12, maddə 693; 2003, № 1, maddə 16; 2004, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007, № 2, maddə 83, № 5, maddələr 434, 436, № 7, maddə 711, № 10, maddə 934, № 11, maddələr 1049, 1074, 1078, № 12, maddələr 1213, 1219; 2008, № 3, maddə 153, № 5, maddələr 326, 341, № 6, maddələr 471, 481, № 7, maddə 602, № 8, maddə 699, № 10, maddə 881; 2009, № 2, maddə 54, № 5, maddə 311, № 6, maddə 403, № 10, maddə 771, № 11, maddə 878, № 12, maddə 964; 2010, № 4, maddə 276; 2011, № 2, maddə 71, № 3, maddə 165, № 6, maddə 463; 2012, № 5, maddə 413, № 10, maddə 945, № 11, maddə 1049; 2015, № 1, maddə 9) 33.1.7-ci maddəsində “vətəndaşlığından çıxdıqda” sözləri “vətəndaşlığına xitam verildikdə” sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 aprel 2015-ci il.

**“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə**

**Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq **qərara alır:**

“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1, № 3, maddə 131; 2002, № 12, maddə 693; 2003, № 1, maddə 16; 2004, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007, № 2, maddə 83, № 5, maddələr 434, 436, № 7, maddə 711, № 10, maddə 934, № 11, maddələr 1049, 1074, 1078, № 12, maddələr 1213, 1219; 2008, № 3, maddə 153, № 5, maddələr 326, 341, № 6, maddələr 471, 481, № 7, maddə 602, № 8, maddə 699, № 10, maddə 881; 2009, № 2, maddə 54, № 5, maddə 311, № 6, maddə 403, № 10, maddə 771, № 11, maddə 878, № 12, maddə 964; 2010, № 4, maddə 276; 2011, № 2, maddə 71, № 3, maddə 165, № 6, maddə 463; 2012, № 5, maddə 413, № 10, maddə 945, № 11, maddə 1049; 2015, № 1, maddə 9, № 5, maddə 488) aşağıdakı dəyişikliklər edilsin:

1. 8-ci maddə üzrə:

1.1. 8.1.1-ci maddəyə “Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi” sözlərindən sonra “,ümumi və ixtisaslaşdırılmış məhkəmələrin icraatına aid edilən işlər üzrə ali məhkəmə orqanı olan Azərbaycan Respublikasının Ali Məhkəməsi” sözləri əlavə edilsin;

1.2. 8.1.2-ci maddədən “Azərbaycan Respublikasının Ali Məhkəməsi,” sözləri çıxarılsın.

2. 11-ci maddə üzrə:

2.1. 11.1.1.1-ci maddəyə “Azərbaycan Respublikası Dövlət müşavirlərinin vəzifəsi” sözlərindən sonra “,Azərbaycan Respublikasının Ali Məhkəməsinin Aparat rəhbərinin vəzifəsi” sözləri əlavə edilsin;

2.2. 11.1.2.1-ci maddəyə “müavini vəzifəsi,” sözlərindən sonra “Azərbaycan Respublikasının Ali Məhkəməsinin Aparat rəhbərinin müavini vəzifəsi,” sözləri əlavə edilsin;

2.3. 11.1.3.1-ci və 11.1.4.1-ci maddələrdə “və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin” sözləri ”,Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin və Azərbaycan Respublikası Ali Məhkəməsinin” sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 30 sentyabr 2015-ci il.

**"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə**

**Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq **qərara alır:**

Maddə 1. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1, № 3, maddə 131; 2002, № 12, maddə 693; 2003, № 1, maddə 16; 2004, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007, № 2, maddə 83, № 5, maddələr 434, 436, № 7, maddə 711, № 10, maddə 934, № 11, maddələr 1049, 1074, 1078, № 12, maddələr 1213, 1219; 2008, № 3, maddə 153, № 5, maddələr 326, 341, № 6, maddələr 471, 481, № 7, maddə 602, № 8, maddə 699, № 10, maddə 881; 2009, № 2, maddə 54, № 5, maddə 311, № 6, maddə 403, № 10, maddə 771, № 11, maddə 878, № 12, maddə 964; 2010, № 4, maddə 276; 2011, № 2, maddə 71, № 3, maddə 165, № 6, maddə 463; 2012, № 5, maddə 413, № 10, maddə 945, № 11, maddə 1049; 2015, № 1, maddə 9, № 5, maddə 488, № 10, maddə 1100) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 22-1.3.3-cü maddədən "attestasiyası və ya onun" sözləri çıxarılsın.

1.2. 28-ci maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 28. Dövlət qulluğuna qəbul

28.1. Dövlət qulluğuna qəbul müsabiqə əsasında aparılır. Müsabiqə test imtahanından və müsahibədən ibarətdir.

28.2. Müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum inzibati və yardımçı vəzifələrin təsnifat toplusuna uyğun olaraq dövlət qulluğuna qəbul üçün ayda bir dəfədən az olmayaraq test imtahanları təşkil edir.

Test nümunələrinin hazırlanması, ekspertizası, təsdiqi, test imtahanının təşkili, keçirilməsi, qiymətləndirmənin aparılması qaydasını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

Test imtahanında iştirak etmək üçün ödənişin məbləğini müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

28.3. Müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum test imtahanından keçən şəxsə inzibati və yardımçı vəzifələrin təsnifat toplusuna uyğun olaraq test imtahanından keçdiyini təsdiq edən sertifikat verir. Forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən sertifikatın qüvvədəolma müddəti beş ildir. Şəxs dövlət qulluğu vəzifələri üzrə, bu Qanuna uyğun olaraq bir neçə sertifikat ala bilər.

28.4. Müsahibəni dövlət qulluğu vəzifəsinin aid olduğu dövlət orqanı təşkil edir.

Müsahibənin keçirilməsi haqqında elan, sənədlərin qəbulu üçün müəyyən edilmiş son müddət göstərilməklə, dövlət qulluğu vəzifəsinin aid olduğu dövlət orqanının internet saytında və digər kütləvi informasiya vasitələrində verilir.

28.5. Dövlət qulluğunun müvafiq vəzifəsi üzrə test imtahanından keçdiyini təsdiq edən sertifikatı qüvvədə olan şəxs müsahibədə iştirak edə bilər. Müsahibədə iştirak etmək istəyən şəxs müsahibənin keçirilməsi elan edildiyi gündən 30 gün müddətində dövlət qulluğu vəzifəsinin aid olduğu dövlət orqanına müraciət edir. Müraciətə əlavə edilməli sənədlərin siyahısı və sənədlərin qəbulu qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

28.6. Müsahibə sənədlərin qəbulu başa çatdıqdan sonra 30 gün ərzində keçirilir.

Dövlət qulluğu vəzifəsinin aid olduğu dövlət orqanı müsahibənin keçirilməsi üçün müsahibə komissiyası yaradır. Müsahibə komissiyası 5 nəfərdən ibarət tərkibdə, müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumun 2 nümayəndəsi daxil edilməklə yaradılır. Müsahibə komissiyası üzvünün müsahibənin nəticələri barədə xüsusi rəyi müsahibənin nəticələrinin araşdırılması üçün əsasdır.

Müsahibə komissiyasının reqlamenti, o cümlədən müsahibə komissiyası tərkibinin formalaşdırılması, müsahibənin keçirilməsi, qiymətləndirmənin aparılması, müsahibənin nəticələrinin araşdırılması qaydası və keçid balları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

28.7. Müsabiqədən müvəffəqiyyətlə keçmiş namizədlər vakant dövlət qulluğu vəzifəsinə təyin edilmək üçün 5 iş günü müddətində dövlət orqanının rəhbərinə təqdim olunurlar. Dövlət orqanının rəhbəri təqdim olunmuş namizədlərdən birini seçərək, altı ay müddətinə stajçı kimi qulluğa qəbul etməli və vakant dövlət qulluğu vəzifəsinə təyin etməlidir. Staj dövründə dövlət orqanı rəhbərinin təyin etdiyi kurator stajçının işini istiqamətləndirir, fəaliyyətinə nəzarət edir və staj müddəti qurtardıqdan sonra stajçının sınaq müddəti ilə dövlət qulluğuna qəbul edilməsinin məqsədəuyğun olub-olmadığı barədə tövsiyə təqdim edir. Tövsiyə müsbət olarsa, stajçı əmək müqaviləsi bağlamaq yolu ilə üç ay sınaq müddəti ilə dövlət qulluğuna qəbul edilir. Əmək müqaviləsində sınaq müddəti ərzində qulluq keçmənin şərtləri müəyyənləşdirilir. Sınaq müddəti ilə dövlət qulluğuna qəbul edilən şəxslə bağlanan əmək müqaviləsinin nümunəsi müvafiq icra hakimiyyəti orqanı

tərəfindən müəyyən edilir. Sınaq müddəti ərzində əmək müqaviləsi pozulmayıbsa, həmin müddət qurtardıqdan sonra dövlət orqanının rəhbəri müqavilənin şərtlərinə uyğun olaraq, həmin şəxsin daimi dövlət qulluğuna qəbul edilməsi haqqında əmr verir və onunla müvafiq əmək müqaviləsi bağlayır. Daimi dövlət qulluğuna qəbul edilən şəxslə bağlanan əmək müqaviləsinin nümunəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

28.8. Stajçı kimi qulluğa qəbul edilmiş şəxs həmin müddətdə bu Qanunun 28-ci maddəsinə uyğun olaraq yenidən müsabiqədən keçərək yeni vəzifəyə təyin edildikdə, əvvəlki vəzifədəki staj müddəti nəzərə alınır. Sınaq müddəti ilə dövlət qulluğuna qəbul edilmiş şəxs bu Qanunun 28-ci maddəsinə uyğun olaraq yenidən müsabiqədən keçdikdə, əvvəlki sınaq müddəti nəzərə alınmamaqla, yenidən sınaq müddəti ilə vəzifəyə təyin edilir.

28.9. Daimi dövlət qulluğuna qəbul edilmiş və bu Qanunun 33.1-ci maddəsinə uyğun olaraq dövlət qulluğuna xitam verilmiş şəxslər (yardımçı vəzifə tutmuş şəxslər istisna olmaqla) yenidən dövlət qulluğuna qəbul edildikdə, onlar barəsində bu Qanunun 28.7-ci maddəsində nəzərdə tutulmuş staj və sınaq müddəti tətbiq edilmir.

28.10. Daimi dövlət qulluğuna qəbul Azərbaycan Respublikasının adından müvafiq dövlət orqanının sənədi ilə təsdiq edilir.

28.11. Vakant vəzifəyə təyin olunmaq üçün dövlət orqanının rəhbərinə təqdim olunmuş, lakin vakant vəzifəyə təyin edilməmiş namizədlər iki il müddətində həmin dövlət orqanında ehtiyat kadr kimi saxlanılır. Bu müddət ərzində həmin dövlət orqanında analoji vakant vəzifə olduqda, namizədlər onların razılığı ilə həmin vəzifələrə təyin edilir. Həmin müddət ərzində inzibati vəzifələrə təyin edilən namizəd ehtiyat kadrlar siyahısından çıxarılır. Şəxsin bir dövlət orqanında ehtiyat kadr kimi saxlanılması digər dövlət orqanında dövlət qulluğuna qəbul üzrə keçirilən müsahibədə iştirakını məhdudlaşdırmır.

28.12. Bu Qanunun 28-ci maddəsinin müddəaları ali kateqoriya dövlət orqanlarında inzibati vəzifələrin ali, birinci, ikinci və üçüncü təsnifatı vəzifələrinə və bu Qanunun 2.3-cü maddəsində nəzərdə tutulmuş dövlət qulluğunun xüsusi növünə qəbula şamil edilmir. Bu Qanunun 2.3-cü maddəsində nəzərdə tutulmuş dövlət orqanlarında qulluğa (xidmətə) qəbul qaydaları Azərbaycan Respublikasının dövlət qulluğunun xüsusi növünü tənzimləyən qanunları ilə müəyyən edilir.”.

1.3. Aşağıdakı məzmunda 28-1-ci maddə əlavə edilsin:

“Maddə 28-1. Dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi

28-1.1. Dövlət qulluqçusu kimi fəaliyyətini davam etdirmək istəyən şəxs sertifikatın qüvvədə olma müddətinin son ilində növbəti sertifikat almaq üçün müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum tərəfindən keçirilən imtahanlarda iştirak etməli və yenidən sertifikat almalıdır.

28-1.2. Sertifikat alaraq dövlət qulluğuna qəbul edilən şəxs sonradan iki dəfə sertifikat aldıqda, sonuncu sertifikat şəxsə ömürlük verilir və həmin şəxs dövlət qulluqçusu kimi fəaliyyətini davam etdirməsi üçün hər hansı bir imtahana cəlb oluna bilməz.

28-1.3. Sertifikat alaraq dövlət qulluğuna qəbul edilən şəxsi işlədiyi dövlət orqanının rəhbəri bu Qanuna əsasən digər oxşar vəzifəyə təyin edə, habelə sertifikatına uyğun olaraq, vəzifədə irəli çəkə bilər.”.

1.4. 29.2-ci maddənin birinci hissəsinin üçüncü cümləsində və 29.4-cü maddənin birinci hissəsində “müvafiq icra hakimiyyəti orqanı” sözləri “müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum” sözləri ilə əvəz edilsin.

1.5. 29.7-ci maddədə “nümayəndəsi də daxil olmaqla, üzvlərinin sayı üç nəfərdən az olmayan” sözləri “yaratdığı qurumun 2 nümayəndəsi daxil edilməklə, 5 nəfərdən ibarət” sözləri ilə əvəz edilsin.

1.6. 29.9.2-ci və 31-ci maddələr ləğv edilsin.

1.7. 30-1.1-ci maddənin üçüncü cümləsi çıxarılsın.

1.8. 33.1.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

“33.1.5. dövlət qulluqçusunun aldığı sertifikatın qüvvədəolma müddəti bitdikdə və dövlət qulluqçusu növbəti sertifikat ala bilmədikdə;”.

Maddə 2. Keçid müddəaları

2.1. Bu Qanunun müddəaları bu Qanun qüvvəyə minənədək dövlət qulluğunda çalışan şəxslərə şamil edilmir.

2.2. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 32-1.8.4-cü maddəsi bu Qanun qüvvəyə mindikdən sonra dövlət qulluğuna qəbul edilən şəxslərə şamil edilmir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 31 may 2016-cı il.

**“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

**Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq **qərara alır:**

“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1, № 3, maddə 131; 2002, № 12, maddə 693; 2003, № 1, maddə 16; 2004, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007, № 2, maddə 83, № 5, maddələr 434, 436, № 7, maddə 711, № 10, maddə 934, № 11, maddələr 1049, 1074, 1078, № 12, maddələr 1213, 1219; 2008, № 3, maddə 153, № 5, maddələr 326, 341, № 6, maddələr 471, 481, № 7, maddə 602, № 8, maddə 699, № 10, maddə 881; 2009, № 2, maddə 54, № 5, maddə 311, № 6, maddə 403, № 10, maddə 771, № 11, maddə 878, № 12, maddə 964; 2010, № 4, maddə 276; 2011, № 2, maddə 71, № 3, maddə 165, № 6, maddə 463; 2012, № 5, maddə 413, № 10, maddə 945, № 11, maddə 1049; 2015, № 1, maddə 9, № 5, maddə 488, № 10, maddə 1100; Azərbaycan Respublikasının 2016-cı il 31 may tarixli 267-VQD nömrəli Qanunu) 8.1.6-cı maddəsində “müvafiq icra hakimiyyəti orqanlarının inzibati ərazi dairələri üzrə nümayəndəlikləri” sözləri “müvafiq icra hakimiyyəti orqanlarının yanında olan orqanlar və inzibati ərazi dairələri üzrə nümayəndəlikləri” sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 30 sentyabr 2016-cı il.

**"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə**

**Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq **qərara alır:**

Bakı şəhəri, 31 may 2017-ci il.

**“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 31 may tarixli 267-VQD nömrəli Qanununda dəyişiklik edilməsi haqqında**

**Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq **qərara alır:**

“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 31 may tarixli 267-VQD nömrəli Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 8, maddə 1365) 2.1-ci maddəsində “müddəaları” sözü “1.2-ci, 1.3-cü və 1.8-ci maddələri” sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 31 may 2017-ci il.

**“Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə**

**Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq, “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununu “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 31 may tarixli 267-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

“Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 8, maddə 750; 2009, № 6, maddə 399) aşağıdakı dəyişikliklər edilsin:

1. 20-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

“20.1. Etik davranış qaydalarına əməl olunmasına nəzarəti dövlət orqanının rəhbəri xidməti qaydada, yuxarı orqan tabeçilik əsasında həyata keçirir.

20.2. Müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum etik davranış qaydalarına əməl olunmasına nəzarəti nizamnaməsinə uyğun olaraq həyata keçirir.”.

2. 22-ci maddə ləğv edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 31 may 2017-ci il.

**“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

**Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq **qərara alır:**

“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1, № 3, maddə 131; 2002, № 12, maddə 693; 2003, № 1, maddə 16; 2004, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007, № 2, maddə 83, № 5, maddələr 434, 436, № 7, maddə 711, № 10, maddə 934, № 11, maddələr 1049, 1074, 1078, № 12, maddələr 1213, 1219; 2008, № 3, maddə 153, № 5, maddələr 326, 341, № 6, maddələr 471, 481, № 7, maddə 602, № 8, maddə 699, № 10, maddə 881; 2009, № 2, maddə 54, № 5, maddə 311, № 6, maddə 403, № 10, maddə 771, № 11, maddə 878, № 12, maddə 964; 2010, № 4, maddə 276; 2011, № 2, maddə 71, № 3, maddə 165, № 6, maddə 463; 2012, № 5, maddə 413, № 10, maddə 945, № 11, maddə 1049; 2015, № 1, maddə 9, № 5, maddə 488, № 10, maddə 1100; 2016, № 8, maddə 1365, № 11, maddələr 1760, 1782, 1785; Azərbaycan Respublikasının 2017-ci il 31 may tarixli 693-VQD nömrəli Qanunu) 11.1.8.2-ci maddəsinə “müvafiq” sözündən əvvəl “müvafiq icra hakimiyyəti orqanlarının yanında olan orqanların rəhbərlərinin, onların müavinlərinin və mütəxəssislərinin vəzifələri,” sözləri əlavə edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 30 iyun 2017-ci il.

**“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə**

**Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq **qərara alır:**

“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1, № 3, maddə 131; 2002, № 12, maddə 693; 2003, № 1, maddə 16; 2004, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007, № 2, maddə 83, № 5, maddələr 434, 436, № 7, maddə 711, № 10, maddə 934, № 11, maddələr 1049, 1074, 1078, № 12, maddələr 1213, 1219; 2008, № 3, maddə 153, № 5, maddələr 326, 341, № 6, maddələr 471, 481, № 7, maddə 602, № 8, maddə 699, № 10, maddə 881; 2009, № 2, maddə 54, № 5, maddə 311, № 6, maddə 403, № 10, maddə 771, № 11, maddə 878, № 12, maddə 964; 2010, № 4, maddə 276; 2011, № 2, maddə 71, № 3, maddə 165, № 6, maddə 463; 2012, № 5, maddə 413, № 10, maddə 945, № 11, maddə 1049; 2015, № 1, maddə 9, № 5, maddə 488, № 10, maddə 1100; 2016, № 8, maddə 1365, № 11, maddələr 1760, 1782, 1785; 2017, № 5, maddə 726; № 6, maddə 1054, № 7, maddə 1267, № 8, maddə 1513) aşağıdakı dəyişikliklər edilsin:

1. 11.1.1.1-ci maddədən “Azərbaycan Respublikası Dövlət müşavirlərinin vəzifəsi,” sözləri çıxarılsın.

2. 11.1.2.1-ci maddədən “Azərbaycan Respublikası Prezidentinin Administrasiya rəhbərinin müavini vəzifəsi,” sözləri çıxarılsın.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 31 oktyabr 2017-ci il.

**“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

**Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq, “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununu “Elm haqqında” Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli 271-VQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1, № 3, maddə 131; 2002, № 12, maddə 693; 2003, № 1, maddə 16; 2004, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007, № 2, maddə 83, № 5, maddələr 434, 436, № 7, maddə 711, № 10, maddə 934, № 11, maddələr 1049, 1074, 1078, № 12, maddələr 1213, 1219; 2008, № 3, maddə 153, № 5, maddələr 326, 341, № 6, maddələr 471, 481, № 7, maddə 602, № 8, maddə 699, № 10, maddə 881; 2009, № 2, maddə 54, № 5, maddə 311, № 6, maddə 403, № 10, maddə 771, № 11, maddə 878, № 12, maddə 964; 2010, № 4, maddə 276; 2011, № 2, maddə 71, № 3, maddə 165, № 6, maddə 463; 2012, № 5, maddə 413, № 10, maddə 945, № 11, maddə 1049; 2015, № 1, maddə 9, № 5, maddə 488, № 10, maddə 1100; 2016, № 8, maddə 1365, № 11, maddələr 1760, 1782, 1785; 2017, № 5, maddə 726, № 6, maddə 1054, № 7, maddə 1267, № 8, maddə 1513) 19.0.14-cü maddəsində “və elmi məzuniyyətlər” sözləri “və yaradıcılıq məzuniyyətləri” sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 31 oktyabr 2017-ci il.

## "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq **qərara alır:**

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1, № 3, maddə 131; 2002, № 12, maddə 693; 2003, № 1, maddə 16; 2004, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007, № 2, maddə 83, № 5, maddələr 434, 436, № 7, maddə 711, № 10, maddə 934, № 11, maddələr 1049, 1074, 1078, № 12, maddələr 1213, 1219; 2008, № 3, maddə 153, № 5, maddələr 326, 341, № 6, maddələr 471, 481, № 7, maddə 602, № 8, maddə 699, № 10, maddə 881; 2009, № 2, maddə 54, № 5, maddə 311, № 6, maddə 403, № 10, maddə 771, № 11, maddə 878, № 12, maddə 964; 2010, № 4, maddə 276; 2011, № 2, maddə 71, № 3, maddə 165, № 6, maddə 463; 2012, № 5, maddə 413, № 10, maddə 945, № 11, maddə 1049; 2015, № 1, maddə 9, № 5, maddə 488, № 10, maddə 1100; 2016, № 8, maddə 1365, № 11, maddələr 1760, 1782, 1785; 2017, № 5, maddə 726, № 6, maddə 1054, № 7, maddə 1267, № 8, maddə 1513, Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 824-VQD nömrəli Qanunu, Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 850-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 11.1.3.6-cı maddəyə "dövlət xidmətlərinin rəhbərlərinin" sözlərindən sonra ", Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən səfirlik və konsulluqlarında təyin olunan ticarət nümayəndələrinin" sözləri əlavə edilsin.

2. Aşağıdakı məzmunda 21.6-cı və 22.9-cu maddələr əlavə edilsin:

"21.6. Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən səfirlik və konsulluqlarında təyin olunan ticarət nümayəndələrinə və onların aparatlarının işçilərinə dövlət məvacibi (əməkhaqqı), tibbi sığorta, nəqliyyat xərcləri, yaşayış sahəsinin icarə xərcləri, məktəbyaşlı ailə üzvlərinin təhsil haqqı və bu Qanunda nəzərdə tutulmayan təminatların verilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Bu Qanunun dövlət qulluqçularına aid edilən digər təminatlar ilə bağlı müddəaları Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən səfirlik və konsulluqlarında təyin olunan ticarət nümayəndələrinə və onların aparatlarının işçilərinə şamil edilir.";

"22.9. Bu Qanunun 22-ci maddəsinin müddəaları Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən səfirlik və konsulluqlarında təyin olunan ticarət nümayəndələrinə və onların aparatlarının işçilərinə şamil olunmur.".

3. 28.12-ci maddənin birinci cümləsinə "üçüncü təsnifatı vəzifələrinə," sözlərindən sonra "Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən səfirlik və konsulluqlarında təyin olunan ticarət nümayəndələri vəzifələrinə," sözləri əlavə edilsin.

4. 29-cu maddə üzrə:

4.1. 29.2-ci maddənin birinci hissəsinin birinci cümləsinə "müvafiq icra hakimiyyəti orqanı" sözlərindən sonra "və Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən səfirlik və konsulluqlarında təyin olunan ticarət nümayəndələri vəzifələri" sözləri əlavə edilsin;

4.2. 29.2-ci maddəyə aşağıdakı məzmunda beşinci hissə əlavə edilsin:

"Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən səfirlik və ya konsulluğunda ticarət nümayəndəsi vəzifəsinin tutulması müsahibə keçirilməklə və ya qulluqda yüksəliş yolu ilə bu Qanunun 29.12-ci maddəsinin müddəaları nəzərə alınmaqla həyata keçirilir.";

4.3. aşağıdakı məzmunda 29.12-ci maddə əlavə edilsin:

"29.12. Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən səfirlik və konsulluqlarında ticarət nümayəndələri müvafiq icra hakimiyyəti orqanının rəhbəri tərəfindən müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmaqla təyin olunur.".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 dekabr 2017-ci il.

**"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə**

**Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq **qərara alır:**

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1, № 3, maddə 131; 2002, № 12, maddə 693; 2003, № 1, maddə 16; 2004, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007, № 2, maddə 83, № 5, maddələr 434, 436, № 7, maddə 711, № 10, maddə 934, № 11, maddələr 1049, 1074, 1078, № 12, maddələr 1213, 1219; 2008, № 3, maddə 153, № 5, maddələr 326, 341, № 6, maddələr 471, 481, № 7, maddə 602, № 8, maddə 699, № 10, maddə 881; 2009, № 2, maddə 54, № 5, maddə 311, № 6, maddə 403, № 10, maddə 771, № 11, maddə 878, № 12, maddə 964; 2010, № 4, maddə 276; 2011, № 2, maddə 71, № 3, maddə 165, № 6, maddə 463; 2012, № 5, maddə 413, № 10, maddə 945, № 11, maddə 1049; 2015, № 1, maddə 9, № 5, maddə 488, № 10, maddə 1100; 2016, № 8, maddə 1365, № 11, maddələr 1760, 1782, 1785; 2017, № 5, maddə 726, № 6, maddə 1054, № 7, maddə 1267, № 8, maddə 1513, Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 824-VQD nömrəli Qanunu, Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 850-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 2.3-cü maddənin birinci hissəsinə "müddəaları" sözündən sonra ", həmçinin bu Qanunun 15-1-ci maddəsi" sözləri əlavə edilsin.

2. Aşağıdakı məzmunda 15-1-ci və 15-2-ci maddələr əlavə edilsin:

"Maddə 15-1. Dövlət qulluqçusunun şəxsi işi

15-1.1. Dövlət qulluqçusunun dövlət qulluğu keçdiyi dövr ərzində yalnız bir şəxsi işi tərtib edilir və aparılır.

15-1.2. Dövlət qulluqçusunun şəxsi işinə bu Qanunun 15-1.3-cü maddəsinə əsasən müəyyən olunan qaydalarda nəzərdə tutulmuş sənədlər və məlumatlar daxil edilir.

15-1.3. Dövlət qulluqçusunun şəxsi işinin aparılması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.

15-1.4. Dövlət qulluqçusunun şəxsi işinin aparılması ilə bağlı tələblərin pozulmasında təqsirli olan şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

Maddə 15-2. Dövlət qulluqçusunun xidməti vəsiqəsi

15-2.1. Dövlət qulluqçusuna qulluq keçdiyi dövlət orqanında xidməti vəsiqə verilir.

15-2.2. Xidməti vəsiqə dövlət qulluqçusunun tutduğu dövlət qulluğu vəzifəsini və ona verilmiş ixtisas dərəcəsini təsdiq edən rəsmi sənəddir.

15-2.3. Xidməti vəsiqənin nümunəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 dekabr 2017-ci il.

**“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə**

**Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq, “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 10 mart tarixli 543-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1, № 3, maddə 131; 2002, № 12, maddə 693; 2003, № 1, maddə 16; 2004, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007, № 2, maddə 83, № 5, maddələr 434, 436, № 7, maddə 711, № 10, maddə 934, № 11, maddələr 1049, 1074, 1078, № 12, maddələr 1213, 1219; 2008, № 3, maddə 153, № 5, maddələr 326, 341, № 6, maddələr 471, 481, № 7, maddə 602, № 8, maddə 699, № 10, maddə 881; 2009, № 2, maddə 54, № 5, maddə 311, № 6, maddə 403, № 10, maddə 771, № 11, maddə 878, № 12, maddə 964; 2010, № 4, maddə 276; 2011, № 2, maddə 71, № 3, maddə 165, № 6, maddə 463; 2012, № 5, maddə 413, № 10, maddə 945, № 11, maddə 1049; 2015, № 1, maddə 9, № 5, maddə 488, № 10, maddə 1100; 2016, № 8, maddə 1365, № 11, maddələr 1760, 1782, 1785; 2017, № 5, maddə 726, № 6, maddə 1054, № 7, maddə 1267, № 8, maddə 1513, № 11, maddə 1974, Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 824-VQD nömrəli, 29 dekabr tarixli 967-VQD və 968-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 23.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

“23.1. Dövlət qulluqçusunun və onun ailə üzvlərinin pensiya təminatı “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.”.

2. 23.2-ci maddə üzrə:

2.1. birinci cümlədə “qulluğunda xidmət illərindən” sözləri “qulluğu vəzifəsində qulluq stajından” sözləri ilə əvəz edilsin;

2.2. ikinci cümlə aşağıdakı redaksiyada verilsin:

“Dövlət qulluqçusuna “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq qulluq stajına görə əmək pensiyasına əlavələr təyin edilməsi üçün dövlət qulluğu vəzifəsində minimum 15 il qulluq stajı tələb olunur.”.

3. 23.3-cü maddədə “qulluğunda xidmət illərinin minimum həddinə” sözləri “qulluğu vəzifəsində bu Qanunun 23.2-ci maddəsi ilə müəyyən edilmiş minimum qulluq stajına” sözləri ilə əvəz edilsin.

4. 23.5-ci maddə ləğv edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 6 mart 2018-ci il.

**"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə**

**Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununu "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 765-VQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1, № 3, maddə 131; 2002, № 12, maddə 693; 2003, № 1, maddə 16; 2004, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007, № 2, maddə 83, № 5, maddələr 434, 436, № 7, maddə 711, № 10, maddə 934, № 11, maddələr 1049, 1074, 1078, № 12, maddələr 1213, 1219; 2008, № 3, maddə 153, № 5, maddələr 326, 341, № 6, maddələr 471, 481, № 7, maddə 602, № 8, maddə 699, № 10, maddə 881; 2009, № 2, maddə 54, № 5, maddə 311, № 6, maddə 403, № 10, maddə 771, № 11, maddə 878, № 12, maddə 964; 2010, № 4, maddə 276; 2011, № 2, maddə 71, № 3, maddə 165, № 6, maddə 463; 2012, № 5, maddə 413, № 10, maddə 945, № 11, maddə 1049; 2015, № 1, maddə 9, № 5, maddə 488, № 10, maddə 1100; 2016, № 8, maddə 1365, № 11, maddələr 1760, 1782, 1785; 2017, № 5, maddə 726, № 6, maddə 1054, № 7, maddə 1267, № 8, maddə 1513, № 11, maddə 1974, № 12 (I kitab), maddə 2192; Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 967-VQD və 968-VQD nömrəli, 2018-ci il 6 mart tarixli 1025-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 7.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"7.1. Dövlət orqanı Azərbaycan Respublikasının qanunvericilik aktları ilə müəyyən edilmiş hüdudlarda dövlətin məqsəd və funksiyalarını həyata keçirən, Azərbaycan Respublikasının dövlət büdcəsindən, Naxçıvan Muxtar Respublikasının büdcəsindən, sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının və işsizlikdən sığorta fondunun büdcəsindən maliyyələşdirilən, Azərbaycan Respublikasının Konstitusiyasına və Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq yaradılan dövlət təsisatıdır.".

2. 14.1-ci maddədə "dövlət büdcəsi vəsaitindən" sözləri "bu Qanunun 7.1-ci maddəsində göstərilən mənbələrdən" sözləri ilə əvəz edilsin.

3. 25.10-cu maddənin ikinci cümləsində "dövlət büdcəsinin" sözləri "Azərbaycan Respublikasının dövlət büdcəsinin, Naxçıvan Muxtar Respublikasının büdcəsinin, sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının və işsizlikdən sığorta fondunun büdcəsinin" sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 24 aprel 2018-ci il.

**“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə**

**Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq **qərara alır:**

“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1, № 3, maddə 131; 2002, № 12, maddə 693; 2003, № 1, maddə 16; 2004, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007, № 2, maddə 83, № 5, maddələr 434, 436, № 7, maddə 711, № 10, maddə 934, № 11, maddələr 1049, 1074, 1078, № 12, maddələr 1213, 1219; 2008, № 3, maddə 153, № 5, maddələr 326, 341, № 6, maddələr 471, 481, № 7, maddə 602, № 8, maddə 699, № 10, maddə 881; 2009, № 2, maddə 54, № 5, maddə 311, № 6, maddə 403, № 10, maddə 771, № 11, maddə 878, № 12, maddə 964; 2010, № 4, maddə 276; 2011, № 2, maddə 71, № 3, maddə 165, № 6, maddə 463; 2012, № 5, maddə 413, № 10, maddə 945, № 11, maddə 1049; 2015, № 1, maddə 9, № 5, maddə 488, № 10, maddə 1100; 2016, № 8, maddə 1365, № 11, maddələr 1760, 1782, 1785; 2017, № 5, maddə 726, № 6, maddə 1054, № 7, maddə 1267, № 8, maddə 1513, № 11, maddə 1974, № 12 (I kitab), maddə 2192; Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 967-VQD və 968-VQD nömrəli, 2018-ci il 6 mart tarixli 1025-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 29.2-ci maddənin üçüncü hissəsinə “dövlət orqanında” sözlərindən sonra “(bu maddənin dördüncü hissəsinə uyğun olaraq dövlət qulluğuna qəbul edilmiş dövlət qulluqçusu isə digər müvafiq icra hakimiyyəti orqanında)” sözləri əlavə edilsin.

2. 29.3-cü maddənin birinci hissəsinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Bu maddənin müddəaları bu Qanunun 29.2-ci maddəsinin dördüncü hissəsinə uyğun olaraq dövlət qulluğuna qəbul edilmiş dövlət qulluqçuları (şəxslər) barəsində tətbiq edilmir.”.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 1 may 2018-ci il.

**"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

**Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununu "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1, № 3, maddə 131; 2002, № 12, maddə 693; 2003, № 1, maddə 16; 2004, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007, № 2, maddə 83, № 5, maddələr 434, 436, № 7, maddə 711, № 10, maddə 934, № 11, maddələr 1049, 1074, 1078, № 12, maddələr 1213, 1219; 2008, № 3, maddə 153, № 5, maddələr 326, 341, № 6, maddələr 471, 481, № 7, maddə 602, № 8, maddə 699, № 10, maddə 881; 2009, № 2, maddə 54, № 5, maddə 311, № 6, maddə 403, № 10, maddə 771, № 11, maddə 878, № 12, maddə 964; 2010, № 4, maddə 276; 2011, № 2, maddə 71, № 3, maddə 165, № 6, maddə 463; 2012, № 5, maddə 413, № 10, maddə 945, № 11, maddə 1049; 2015, № 1, maddə 9, № 5, maddə 488, № 10, maddə 1100; 2016, № 8, maddə 1365, № 11, maddələr 1760, 1782, 1785; 2017, № 5, maddə 726, № 6, maddə 1054, № 7, maddə 1267, № 8, maddə 1513, № 11, maddə 1974, № 12, I kitab, maddə 2192; 2018, № 2, maddələr 158, 159; Azərbaycan Respublikasının 2018-ci il 6 mart tarixli 1025-VQD nömrəli Qanunu) 30.5-ci maddəsinin üçüncü cümləsində "uşaq" sözü "təhsil" sözü ilə əvəz edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 18 may 2018-ci il.

**“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə**

**Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq, 2016-cı il 26 sentyabr tarixli referendum nəticəsində qəbul edilmiş “Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Referendum Aktının icrası ilə əlaqədar **qərara alır:**

“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1, № 3, maddə 131; 2002, № 12, maddə 693; 2003, № 1, maddə 16; 2004, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007, № 2, maddə 83, № 5, maddələr 434, 436, № 7, maddə 711, № 10, maddə 934, № 11, maddələr 1049, 1074, 1078, № 12, maddələr 1213, 1219; 2008, № 3, maddə 153, № 5, maddələr 326, 341, № 6, maddələr 471, 481, № 7, maddə 602, № 8, maddə 699, № 10, maddə 881; 2009, № 2, maddə 54, № 5, maddə 311, № 6, maddə 403, № 10, maddə 771, № 11, maddə 878, № 12, maddə 964; 2010, № 4, maddə 276; 2011, № 2, maddə 71, № 3, maddə 165, № 6, maddə 463; 2012, № 5, maddə 413, № 10, maddə 945, № 11, maddə 1049; 2015, № 1, maddə 9, № 5, maddə 488, № 10, maddə 1100; 2016, № 8, maddə 1365, № 11, maddələr 1760, 1782, 1785; 2017, № 5, maddə 726, № 6, maddə 1054, № 7, maddə 1267, № 8, maddə 1513, № 11, maddə 1974, № 12, maddə 2192; 2018, № 2, maddələr 158, 159, № 3, maddə 392; Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1077-VQD və 1 may tarixli 1114-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 2.4-cü maddəyə “Azərbaycan Respublikasının Prezidentinə” sözlərindən sonra “, Azərbaycan Respublikasının Birinci vitse-prezidentinə və vitse-prezidentlərinə” sözləri əlavə edilsin.
2. 4.1.9-cu və 27.1-ci maddələrdə “milliyyətindən” sözü “etnik mənsubiyyətindən” sözləri ilə əvəz edilsin.
3. 11.1.2.1-ci maddəyə “köməkçisinin vəzifəsi” sözlərindən sonra “, Azərbaycan Respublikasının vitse-prezidentinin köməkçisinin vəzifəsi” sözləri əlavə edilsin.
4. 22.7-ci maddənin üçüncü cümləsinə “maddə” sözündən sonra “Azərbaycan Respublikasının Birinci vitse-prezidenti və vitse-prezidentləri,” sözləri əlavə edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 31 may 2018-ci il.

**“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

**Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq **qərara alır:**

“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1, № 3, maddə 131; 2002, № 12, maddə 693; 2003, № 1, maddə 16; 2004, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007, № 2, maddə 83, № 5, maddələr 434, 436, № 7, maddə 711, № 10, maddə 934, № 11, maddələr 1049, 1074, 1078, № 12, maddələr 1213, 1219; 2008, № 3, maddə 153, № 5, maddələr 326, 341, № 6, maddələr 471, 481, № 7, maddə 602, № 8, maddə 699, № 10, maddə 881; 2009, № 2, maddə 54, № 5, maddə 311, № 6, maddə 403, № 10, maddə 771, № 11, maddə 878, № 12, maddə 964; 2010, № 4, maddə 276; 2011, № 2, maddə 71, № 3, maddə 165, № 6, maddə 463; 2012, № 5, maddə 413, № 10, maddə 945, № 11, maddə 1049; 2015, № 1, maddə 9, № 5, maddə 488, № 10, maddə 1100; 2016, № 8, maddə 1365, № 11, maddələr 1760, 1782, 1785; 2017, № 5, maddə 726, № 6, maddə 1054, № 7, maddə 1267, № 8, maddə 1513, № 11, maddə 1974, № 12, I kitab, maddə 2192; 2018, № 2, maddələr 158, 159, № 3, maddə 392, Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1077-VQD və 1 may tarixli 1114-VQD nömrəli qanunları) 2.3-cü maddəsində “, xarici işlər və feldyeger rabitəsi” sözləri “və xarici işlər” sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 iyun 2018-ci il.

**“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

**Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq **qərara alır:**

“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1, № 3, maddə 131; 2002, № 12, maddə 693; 2003, № 1, maddə 16; 2004, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007, № 2, maddə 83, № 5, maddələr 434, 436, № 7, maddə 711, № 10, maddə 934, № 11, maddələr 1049, 1074, 1078, № 12, maddələr 1213, 1219; 2008, № 3, maddə 153, № 5, maddələr 326, 341, № 6, maddələr 471, 481, № 7, maddə 602, № 8, maddə 699, № 10, maddə 881; 2009, № 2, maddə 54, № 5, maddə 311, № 6, maddə 403, № 10, maddə 771, № 11, maddə 878, № 12, maddə 964; 2010, № 4, maddə 276; 2011, № 2, maddə 71, № 3, maddə 165, № 6, maddə 463; 2012, № 5, maddə 413, № 10, maddə 945, № 11, maddə 1049; 2015, № 1, maddə 9, № 5, maddə 488, № 10, maddə 1100; 2016, № 8, maddə 1365, № 11, maddələr 1760, 1782, 1785; 2017, № 5, maddə 726, № 6, maddə 1054, № 7, maddə 1267, № 8, maddə 1513, № 11, maddə 1974, № 12, I kitab, maddə 2192; 2018, № 2, maddələr 158, 159, № 3, maddə 392, №5, maddələr 864, 880, №6, maddə 1191, №7, I kitab, maddələr 1383, 1428) aşağıdakı dəyişikliklər edilsin:

1. 8.1.6-cı maddədə “və inzibati ərazi dairələri” sözləri “, inzibati ərazi dairələri üzrə nümayəndəlikləri və sahə inzibati ərazi dairələri” sözləri ilə əvəz edilsin.

2. 11.1.8.2-ci maddəyə “nümayəndələrinin” sözündən sonra “və sahə inzibati ərazi dairələri nümayəndələrinin” sözləri əlavə edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 7 dekabr 2018-ci il.

**"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

**Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq **qərara alır:**

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1, № 3, maddə 131; 2002, № 12, maddə 693; 2003, № 1, maddə 16; 2004, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007, № 2, maddə 83, № 5, maddələr 434, 436, № 7, maddə 711, № 10, maddə 934, № 11, maddələr 1049, 1074, 1078, № 12, maddələr 1213, 1219; 2008, № 3, maddə 153, № 5, maddələr 326, 341, № 6, maddələr 471, 481, № 7, maddə 602, № 8, maddə 699, № 10, maddə 881; 2009, № 2, maddə 54, № 5, maddə 311, № 6, maddə 403, № 10, maddə 771, № 11, maddə 878, № 12, maddə 964; 2010, № 4, maddə 276; 2011, № 2, maddə 71, № 3, maddə 165, № 6, maddə 463; 2012, № 5, maddə 413, № 10, maddə 945, № 11, maddə 1049; 2015, № 1, maddə 9, № 5, maddə 488, № 10, maddə 1100; 2016, № 8, maddə 1365, № 11, maddələr 1760, 1782, 1785; 2017, № 5, maddə 726, № 6, maddə 1054, № 7, maddə 1267, № 8, maddə 1513, № 11, maddə 1974, № 12 (I kitab), maddə 2192; 2018, № 2, maddələr 158, 159, № 3, maddə 392, № 5, maddələr 864, 880, № 6, maddə 1191, № 7 (I kitab), maddələr 1383, 1428; 2019, № 1, maddə 8; 2020, № 7, maddələr 828, 851, 856) aşağıdakı dəyişikliklər edilsin:

1. 17.2-ci maddədə "24-cü və 32-ci bəndlərində nəzərdə tutulmuş qaydada" sözləri "32-ci bəndinə uyğun olaraq" sözləri ilə əvəz edilsin.

2. 17.3-cü maddə üzrə:

2.1. 1-ci hissədə "10" rəqəmləri "5" rəqəmi ilə əvəz edilsin;

2.2. 2-ci və 5-ci hissələr ləğv edilsin;

2.3. 3-cü hissədə "və ikinci hissələrində" sözləri "hissəsində" sözü ilə əvəz edilsin və həmin hissəyə "dövlət qulluqçusuna" sözlərindən sonra ", habelə təyin olunduğu inzibati vəzifənin təsnifatına uyğun ixtisas dərəcəsinə malik olmayan dövlət qulluqçusuna" sözləri əlavə edilsin.

3. aşağıdakı məzmunda 17.4-1 – 17.4-3-cü, 17.7-ci və 17.8-ci maddələr əlavə edilsin:

"17.4-1. Dövlət qulluqçusuna bu Qanunun 17.3-cü maddəsinin birinci hissəsində və 17.4-cü maddəsində müəyyən edilmiş tələblər nəzərə alınmadan daha yüksək (növbəti) ixtisas dərəcəsi aşağıdakı hallarda verilə bilər:

17.4-1.1. xidməti fəaliyyətin qiymətləndirilməsinin nəticəsinə uyğun olaraq qulluq funksiyalarını nümunəvi icra etdiyinə və işindəki yüksək nailiyyətlərinə görə;

17.4-1.2. yuxarı təsnifat dövlət qulluğu vəzifəsinə təyin edildikdə.

17.4-2. Bu Qanunun 17.4-1-ci maddəsində nəzərdə tutulmuş qaydada dövlət qulluqçusuna vaxtından əvvəl ixtisas dərəcəsi onun malik olduğu ixtisas dərəcəsində qulluq müddətinin ən azı yarısı keçdikdən sonra verilə bilər.

Bu Qanunun 17.4-1.1-ci maddəsində nəzərdə tutulmuş halda vaxtından əvvəl ixtisas dərəcəsinin verilməsinə dövlət qulluqçusunun dövlət qulluğunda qulluq etdiyi müddətdə yalnız bir dəfə yol verilir.

Bu Qanunun 17.4-1.2-ci maddəsi dövlət qulluqçusunun tutduğu inzibati vəzifədən bir təsnifat yuxarı inzibati vəzifəyə təyin edildiyi hallarda tətbiq oluna bilər.

17.4-3. Dövlət qulluqçularına ixtisas dərəcələri verilərkən onların xüsusi, hərbi və diplomatik rütbələri nəzərə alınır. Xüsusi, hərbi və diplomatik rütbələrin ixtisas dərəcələri ilə qarşılıqlı olaraq uyğunlaşdırılması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada həyata keçirilir.";

"17.7. Bu Qanunun 25.2-ci maddəsinə əsasən intizam tənbehi qaydasında dövlət qulluqçusunun ixtisas dərəcəsi (bu Qanunun 17.2-ci maddəsinin birinci hissəsinə uyğun olaraq verilmiş ixtisas dərəcələri istisna olmaqla) bir pillə aşağı salına bilər. İntizam tənbehinin tətbiqi qaydasında dövlət qulluqçusunun ixtisas dərəcəsi təqvim ili ərzində yalnız bir dəfə aşağı salına bilər. Bu qaydada aşağı salınmış ixtisas dərəcəsində qulluq müddəti həmin intizam tənbehinin verilməsi haqqında əmrin imzalandığı gündən hesablanır.

17.8. İxtisas dərəcəsinin verilməsi, aşağı salınması və ixtisas dərəcəsindən məhrum etmə tətbiq olunarkən dövlət qulluqçusunun əmək kitabçasında və şəxsi işində müvafiq qeydlər edilir.".

4. 17.6-cı maddədən "və bu barədə şəxsin əmək kitabçasında müvafiq qeyd aparılır" sözləri çıxarılsın.

5. 30-1-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 30-1. Dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi**

30-1.1. Dövlət qulluqçusunun cari fəaliyyətinə nəzarətin həyata keçirilməsi, onun potensial imkanlarının aşkara çıxarılması və həmin imkanlardan səmərəli istifadə edilməsi, dövlət qulluqçusunun peşə səriştəliyini artırmağa stimullaşdırılması və onun əlavə təhsilə ehtiyacının, habelə tutduğu vəzifəyə uyğun gəlib-gəlmədiyinin müəyyənləşdirilməsi məqsədilə hər təqvim ilinin sonunda inzibati vəzifə tutan dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi həyata keçirilir.

30-1.2. Ali kateqoriya dövlət orqanlarında inzibati vəzifələrin ali-üçüncü təsnifatlarına uyğun dövlət qulluğu vəzifələrini tutan dövlət qulluqçularının, stajçı kimi və sınaq müddəti ilə dövlət qulluğuna qəbul edilmiş şəxslərin, habelə təqvim ilinin sonunadək müvafiq vəzifədə faktiki olaraq 6 aydan az müddətdə qulluq keçən dövlət qulluqçularının xidməti fəaliyyəti qiymətləndirilmir.

30-1.3. Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi onun bilavasitə rəhbəri tərəfindən həyata keçirilir.

30-1.4. Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi qiymətləndirilmə forması əsasında aparılır. Qiymətləndirilmə forması dövlət qulluqçusunun təqvim ili ərzində yerinə yetirməli olduğu tapşırıqlar (hədəflər) və bu Qanunun 30-1.6-cı və 30-1.7-ci maddələrində göstərilən meyarlar, habelə əmək intizamı nəzərə alınmaqla tərtib edilir. Tapşırıqların (hədəflərin) və meyarların mühümlük dərəcəsi bilavasitə rəhbər tərəfindən müəyyən edilir.

30-1.5. Tapşırıqlar (hədəflər) dövlət qulluqçusunun il ərzində icra etməli olduğu mühüm işlərdir. Tapşırıqlar (hədəflər) dövlət qulluqçusunun qulluq keçdiyi struktur bölmənin fəaliyyət istiqamətlərinə uyğun və dövlət qulluqçusunun qulluq funksiyaları çərçivəsində olmalıdır. Tapşırıqların (hədəflərin) icra müddəti dəqiq müəyyən edilməli, ölçülə və yerinə yetirilə bilən olmalıdır. Hər bir tapşırığın (hədəfin) icra edilməsindən gözlənilən nəticə müəyyən edilməlidir.

30-1.6. Dövlət qulluqçusunun il ərzində xidməti fəaliyyəti aşağıdakı meyarlar əsasında qiymətləndirilir:

30-1.6.1. peşə bilikləri;

30-1.6.2. qulluq (xidməti) vəzifələrinə münasibəti;

30-1.6.3. təhlil aparmaq, problem həll etmək və qərar vermək bacarığı;

30-1.6.4. yaradıcılıq və təşəbbüskarlıq;

30-1.6.5. iş təcrübəsi və onu bölüşmə;

30-1.6.6. kollektivdə işləmək və ünsiyyət bacarığı.

30-1.7. Rəhbər vəzifə tutan dövlət qulluqçularının fəaliyyəti bu Qanunun 30-1.6-cı maddəsində göstərilənlərə əlavə olaraq aşağıdakı meyarlar əsasında qiymətləndirilir:

30-1.7.1. proqnozlaşdırma;

30-1.7.2. idarəetmə;

30-1.7.3. kollektiv daxilində nüfuz və ruhlandırmaq bacarığı;

30-1.7.4. komanda qurmaq bacarığı.

30-1.8. Dövlət qulluqçusunun xidməti fəaliyyəti aşağıdakı şəkildə qiymətləndirilir:

30-1.8.1. əla;

30-1.8.2. yaxşı;

30-1.8.3. kafi;

30-1.8.4. qeyri-kafi.

30-1.9. Dövlət qulluqçusunun xidməti fəaliyyətinə verilən yekun qiymətin 50 faizi tapşırıqların (hədəflərin) icra səviyyəsinin qiymətləndirilməsinə, 40 faizi meyarlar əsasında qiymətləndirilməyə, 10 faizi isə əmək intizamı əsasında qiymətləndirməyə əsaslanır.

30-1.10. Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticələri xidməti fəaliyyətin qiymətləndirilməsi barədə sənədlə rəsmiləşdirilir. Dövlət qulluqçusunun fəaliyyəti bütün tapşırıqlar (hədəflər), meyarlar, eləcə də əmək intizamı üzrə qiymətləndirilir və verilmiş qiymətlər əsaslandırılır. Dövlət qulluqçusu xidməti fəaliyyətinin qiymətləndirilməsi nəticəsi ilə razılaşmadıqda xidməti fəaliyyətin qiymətləndirilməsi barədə sənədə onun rəyi əlavə edilir. Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticələri onun şəxsi işində saxlanılır.

30-1.11. Dövlət qulluqçusunun xidməti fəaliyyəti üzrə yekun qiymət müəyyən edildikdən sonra onunla müsahibə keçirilir. Müsahibə zamanı dövlət qulluqçusunun xidməti fəaliyyətinə verilən qiymət və şərhlər müzakirə olunur. Müsahibə zamanı növbəti qiymətləndirilmə ili üçün tapşırıqlar (hədəflər) və onların mühümlük dərəcəsi müəyyən edilə bilər.

30-1.12. Dövlət orqanının rəhbəri tərəfindən dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticəsi əsasında onun barəsində aşağıdakı tədbirlərdən biri görülə bilər:

30-1.12.1. dövlət qulluqçusunun mükafatlandırılması;

30-1.12.2. dövlət qulluqçusuna vaxtından əvvəl ixtisas dərəcəsinin verilməsi;

30-1.12.3. dövlət qulluqçusunun fəaliyyətinin və bacarıqlarının daha da təkmilləşdirilməsi məqsədilə əlavə təhsilə və ya xüsusi təlimlərə cəlb edilməsi;

30-1.12.4. dövlət qulluqçusunun bilik və bacarıqlarına uyğun digər analoji vəzifəyə keçirilməsi;

30-1.12.5. dövlət qulluqçusunun aşağı inzibati vəzifəyə keçirilməsi.

30-1.13. Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi qaydası və qiymətləndirilmə forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

30-1.14. Dövlət qulluqçusu xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticəsi ilə razılaşmadıqda inzibati qaydada və məhkəmə qaydasında şikayət etmək hüququna malikdir.”.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 24 noyabr 2020-ci il.

**“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

**Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq **qərara alır:**

“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1, № 3, maddə 131; 2002, № 12, maddə 693; 2003, № 1, maddə 16; 2004, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007, № 2, maddə 83, № 5, maddələr 434, 436, № 7, maddə 711, № 10, maddə 934, № 11, maddələr 1049, 1074, 1078, № 12, maddələr 1213, 1219; 2008, № 3, maddə 153, № 5, maddələr 326, 341, № 6, maddələr 471, 481, № 7, maddə 602, № 8, maddə 699, № 10, maddə 881; 2009, № 2, maddə 54, № 5, maddə 311, № 6, maddə 403, № 10, maddə 771, № 11, maddə 878, № 12, maddə 964; 2010, № 4, maddə 276; 2011, № 2, maddə 71, № 3, maddə 165, № 6, maddə 463; 2012, № 5, maddə 413, № 10, maddə 945, № 11, maddə 1049; 2015, № 1, maddə 9, № 5, maddə 488, № 10, maddə 1100; 2016, № 8, maddə 1365, № 11, maddələr 1760, 1782, 1785; 2017, № 5, maddə 726, № 6, maddə 1054, № 7, maddə 1267, № 8, maddə 1513, № 11, maddə 1974, № 12 (I kitab), maddə 2192; 2018, № 2, maddələr 158, 159, № 3, maddə 392, № 5, maddələr 864, 880, № 6, maddə 1191, № 7 (I kitab), maddələr 1383, 1428; 2019, № 1, maddə 8; 2020, № 7, maddələr 828, 851, 856, № 11, maddə 1322; Azərbaycan Respublikasının 2020-ci il 20 noyabr tarixli 200-VIQD nömrəli və 24 noyabr tarixli 202-VIQD nömrəli qanunları) aşağıdakı məzmunda 11.1.2.1-1-ci, 11.1.3.3-1-ci və 11.1.4.3-1-ci maddələr əlavə edilsin:

“11.1.2.1-1. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələrinin vəzifələri;”;

“11.1.3.3-1. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələrinin müavinlərinin vəzifələri;”;

“11.1.4.3-1. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliklərində mütəxəssislərin vəzifələri;”.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 12 fevral 2021-ci il.